Xalqın qəzeti!

# Xalq qəzeti

№ 131 (30825) 1 iyul 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycanın "qırmızı xətti": müstəqilliyimiz əbədidir!



səhifə ⇨ 6

## "Qohum evliliyi" tarixdə qaldı



səhifə ⇨ 7

## "Sərhəd yürüşü"nün qəhrəmanı



səhifə ⇨ 11

# Azərbaycan diplomatiyası dostluğa, əməkdaşlığa, tərəfdaşlığa xidmət edir

*Prezident İlham Əliyev Polşanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pavel Radomskinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Polşa arasında bir çox istiqamətdə əməkdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu vurğuladı, siyasi və iqtisadi sahədə əlaqələrimizin inkişafından məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Polşanın Avropa İttifaqının üzvü olduğunu deyərək, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı istiqamətində də ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin önəminə toxundu. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ilə Avropa İttifaqı arasında yüksəksəviyyəli təmasların ikitərəfli münasibətlərdə yeni səhifənin açılmasına şərait yaratdığını qeyd etdi.

Səfir Polşa Respublikasının Prezidenti Andjey Dudanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Andjey Dudaya çatdırmağı xahiş etdi.

Pavel Radomski Bakının inkişafının şahidi olduğunu deyərək, işğaldan azad edilmiş torpaqlarımıza səfər etdiyini bildirdi və orada aparılan genişmiqyaslı quruculuq işlərinin, həmçinin həmin ərazilərin təbiətinin onda dərin təəssürat hissi yaratdığını vurğuladı.

Söhbət zamanı münasibətlərimizin genişləndirilməsində iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın və parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətinin əhəmiyyəti qeyd edildi.

Görüşdə iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Xəzərin "Qarabağ" yatağı zəngin neft vəd edir




**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Qarabağ" yatağından ilk neftin 2029-cu ildə hasil olunacağı planlaşdırılır. Artıq bunun üçün bütün zəruri sənədlər imzalanıb, layihədə yer alan şirkətlər və onların iştirak payları müəyyənləşdirilib.**

Məlum olduğu kimi, ötən ayın əvvəllərində keçirilmiş Bakı Enerji Həftəsi çərçivəsində BP və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında Xəzər dənizinin ölkəmizə aid sektorunda yerləşən iki dəniz kəşfiyyat və işlənmə blokunda iştirak paylarının dəqiqləşdirilməsi ilə bağlı sövdələşməni rəsmiləşdirən sazişlər imzalanıb. Həmin sazişlərin biri "Qarabağ" neft yatağındakı ehtiyatların işlənməyə cəlb edilməsini nəzərdə tutur. Yeni sazişə əsasən isə SOCAR və BP "Qarabağ" layihəsi üzrə müvafiq olaraq 65 faiz və 35 faiz iştirak payı əldə ediblər. Layihənin operatoru funksiyasını isə BP şirkəti həyata keçirəcək.

*(ardı 9-cu səhifədə)*

## Moskvanın Bakıdan umduqları...



Səhifə ⇨ 4

# Lev Tolstoydan Pyotr Tolstoya

*Yaxud OMON-u Opritçina kimi görənlər haqqında rekviyem*




**Dünya və rus ədəbiyyatının görkəmli simalarından olan Lev Nikolayeviç Tolstoy "Dirilmə" romanında zadəgan Dmitri Nexlyudovun kəndli Katyuşa Maslovaya qarşı haqsızlığı və sonradan getdiyi mənəvi dönüş yolu ilə ədalət, vicdan və tövbə səhnələrini canlandırıb. Ümumən, Tolstoyun yaradıcılığı millətlərdən, dinlərdən və dövrlərdən üstün ümumbəşəri ideyalarla zəngindir. Bu baxımdan onun ən məşhur romanı sayılan "Hərb və sülh" ayrıca vurğulanmalıdır. Romanda müharibənin dağıdıcı mahiyyəti fonunda insan həyatının dəyəri, habelə yaşanan tarixin fəlsəfi çalarları kimi dərin mövzular son dərəcə universal səciyyə daşıyır.**

Onu da bildirək ki, klassik rus ədəbiyyatında insanpərvərliyi təlqin edən digər dühalar da olub və onların irsi bəşəriyyətin ədəbi xəzinəsi sayılır. Lev Tolstoy da belə dühalardandır. Ancaq onun yaradıcılığından bəhs etmək niyyətindən uzağıq. Məqsədimiz Lev Tolstoy kimi nəhəngləri yetişdirən rus ictimai fikrinin hazırda düşdüyü acınacaqlı durumdan söz açmaqdır. Mövcud fonda istər-istəməz, sual yaranır: Görəsən, tolstoylar, dostoyevskilər və adlarını çəkmədiyimiz neçə-neçə dahilər dünyaya gəlməsəydilər, indi Rusiya necə olardı?

*(ardı 5-ci səhifədə)*

## Repressiyanın astar üzü



Səhifə ⇨ 4

# Prezident İlham Əliyev Sudan səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafanın etimadnaməsini qəbul edib.**



Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Sudanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, Birləşmiş Millətlər Təşkilatında (BMT), İslam Əməkdaşlıq Təşkilatında (İƏT), Qoşulmama Hərəkatında və digər beynəlxalq təşkilatlarda ölkələrimizin uğurlu əməkdaşlığını vurğuladı.

Prezident İlham Əliyev Sudanın Suveren Keçid Şurasının Sədri ilə Qoşulmama Hərəkatının Bakıda keçirilmiş Zirvə toplantısı və Antalya Diplomatiya Forumu çərçivəsində görüşlərini, ikitərəfli əlaqələrin inkişafına dair müzakirələri məmnunluqla xatırladı.

Səfir Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhana çatdırmağı xahiş etdi.

Səfir Azərbaycanın Sudanın ərazi bütövlüyünə, suverenliyinə və siyasi birliyinə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, iki ölkənin dövlət başçılarının tapşırıqlarına uyğun olaraq ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün Sudan tərəfindən işçi qrupunun yaradıldığını vurğuladı.

Ənəs Eltayeb Elqaylani Mustafa sudanlı tələbələrə ölkəmiz tərəfindən təhsil təqaüdünün ayrılmasına görə minnətdarlığını bildirərək, bu təqaüdlərin artırılmasını xahiş etdi.

# İran səfiri etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti ilə dünən telefon danışığını və Məsud Pezeşkianın Azərbaycana səfəri zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bu səfərin bütövlükdə iki ölkə arasındakı münasibətlərin inkişafında yeni səhifə açdığını qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, Məsud Pezeşkianın ölkəmizə səfəri zamanı səsləndirdiyi bəyanatlar və fikirlər Azərbaycan ictimaiyyəti tərəfindən çox müsbət qəbul olunub.

Dövlətimizin başçısı İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın öz mövqeyini ifadə edən ilk ölkələrdən biri olduğunu deyərək, bu gərginliyi qınadığını vurğuladı və qarşıdurma zamanı həlak olan İran vətəndaşları ilə bağlı bir daha başsağlığını ifadə etdi. İranla İsrail arasında bu gərginliklə əlaqədar bəzi dairələrin və media təmsilçilərinin Azərbaycan-İran əlaqələrinə xələl gətirmək üçün şayiələr və yalanlara əsaslanan məlumatlar yaydığını deyən Prezident İlham Əliyev bütün bunların tamamilə cəfəngiyyat olduğunu bildirdi.

Müctəba Dəmirçilu İran İslam Respublikasının ali rəhbərliyinin də Azərbaycanla münasibətlərin inkişafına xüsusi diqqət göstərdiyini vurğuladı.

Səfir Azərbaycanla İran arasındakı münasibətlərin dostluğa, qonşuluğa və qardaşlığa əsaslandığını qeyd etdi. O, İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın prinsipial və qəti mövqeyinin İranda yüksək qiymətləndirildiyini vurğuladı və buna görə də təşəkkürlərini çatdırdı. Səfir qeyd etdi ki, İran tərəfi də tam əmindir ki, Azərbaycan ərazisindən İrana qarşı heç vaxt istifadə oluna bilməz, Azərbaycan dövləti buna heç zaman imkan verməz.

Diplomat, həmçinin xarici və İran vətəndaşlarının ölkəmizə keçidi üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanla İran arasında ikitərəfli siyasi, iqtisadi, ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı. Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində inşa olunan, Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi, ümumilikdə Araz nəqliyyat dəhlizinin inkişafı məsələləri müzakirə olundu.

***AZƏRTAC***

# Mərakeş parlamentariləri Ulu öndərin məzarını ziyarət ediblər

Azərbaycanda səfərdə olan Mərakeş Krallığı Parlamentinin Nümayəndələr Palatasının Savadsızlığın aradan qaldırılması proqramlarının qiymətləndirilməsi üzrə tematik parlament qrupundan ibarət nümayəndə heyəti iyunun 30-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət edib. Nümayəndə heyəti Ulu Öndərin məzarı üzərinə gül dəstələri düzüb, xatirəsini dərin hörmət və ehtiramla anıb.

*

Həmin gün qonaqlar Bakıdakı Zəfər parkını da ziyarət ediblər. Onlar Zəfər abidəsinin önünə gül dəstələri düzüblər.



# Azərbaycan və İran prezidentlərinin telefon dialoqu

**İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon söhbəti olub.**

Dövlətimizin başçısı İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar ölkəmizin mövqeyini və regionda vəziyyətin gərginləşməsi ilə bağlı Azərbaycanın narahatlığını bir daha ifadə edib.

Prezident İlham Əliyev son hadisələr zamanı İran vətəndaşlarının həlak olması ilə əlaqədar başsağlığını çatdırıb, Allahdan onlara rəhmət diləyib, yaralananların tezliklə sağalmalarını arzulayıb.

Dövlətimizin başçısı İran-İsrail qarşıdurmasının dayandırılması, atəşkəsin əldə olunması ilə bağlı Məsud Pezeşkiana təbriklərini çatdırıb, bölgədə sülhün və əmin-amanlığın vacib şərt olduğunu bir daha qeyd edib.

Məsud Pezeşkian başsağlığına görə təşəkkürünü bildirib.

Telefon söhbəti əsnasında dövlət başçıları ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıb, Məsud Pezeşkianın Azərbaycana uğurlu səfərini məmnunluqla xatırlayıb və səfər nəticəsində əldə olunan razılaşmaların həyata keçirilməsi istiqamətində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Prezident İlham Əliyev Məsud Pezeşkianı iyulun əvvəlində Azərbaycanda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Sammitinə bir daha dəvət edib.

***Prezidentin Mətbuat Xidməti***

# Cibuti Respublikasının Prezidenti Zati-aliləri cənab İsmail Ömər Gellehə

**Hörmətli cənab Prezident!**

Cibuti Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz xoş ənənələrə əsaslanan Azərbaycan-Cibuti dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk. İnanıram ki, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası əlaqələrimizi daha da möhkəmləndirmək, qarşılıqlı maraq doğuran bir sıra sahələr üzrə əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Cibuti xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2025-ci il**

# F.F.Məmmədovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ədliyyə və məhkəmə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fikrət Fərrux oğlu Məmmədov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 iyun 2025-ci il**

# XİN: görüşlər, məsləhətləşmələr



**İyunun 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Özbəkistanın xarici işlər nazirinin müavini Bobur Usmanovla görüşüb.**

Görüş zamanı Azərbaycan-Özbəkistan müttəfiqliyindən irəli gələn planlar və birgə layihələr, ikitərəfli ali səviyyədə planlaşdırılan səfərlərə hazırlıq, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyi, ölkəmizdə keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) 17-ci Zirvə Görüşünə hazırlıq məsələləri müzakirə olunub.

Azərbaycan və Özbəkistan arasında qardaşlıq və dostluğa əsaslanan müttəfiqliyin inkişafında iki ölkənin liderləri arasında mövcud yüksəksəviyyəli təmasların, Hökumətlərarası Komissiyanın, siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti vurğulanıb.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Bolqarıstanın xarici işlər nazirinin müavini Elena Şekerletova ilə də görüşüb.**

Görüşdə Azərbaycan-Bolqarıstan strateji tərəfdaşlığının müxtəlif, o cümlədən iqtisadi, ticarət, enerji təhlükəsizliyi, yaşıl enerji, humanitar, mədəni və sair aspektləri, gələcək planlar, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafında ali səviyyəli səfərlərin və siyasi dialoqun əhəmiyyəti vurğulanıb. Azərbaycan və Bolqarıstan arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın rolu qeyd edilib.

Enerji sahəsi üzrə həyata keçirilən birgə təşəbbüslərin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynadığı diqqətə çatdırılıb, bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsinin, xüsusilə yaşıl enerji sahəsi üzrə yeni layihələrin icrası üçün geniş perspektivlərin mövcud olduğu bildirilib.

Ceyhun Bayramov, həmçinin qarşı tərəfi Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırıb.

Eyni gündə Azərbaycanın və Bolqarıstanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Fariz Rzayev, Bolqarıstan tərəfindən isə xarici işlər nazirinin müavini Elena Şekerletova rəhbərlik edib.

*

**Dünən Bakıda Azərbaycan Xarici İşlər Nazirliyi və Ukrayna Xarici İşlər Nazirliyi arasında sayca yeddinci konsulluq məsləhətləşmələri keçirilib.**

Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Nazirliyin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Ukrayna nümayəndə heyətinə isə Ukrayna Xarici İşlər Nazirliyinin Konsulluq xidməti departamentinin rəisi Vladislav Kanevski rəhbərlik edib.

Məsləhətləşmələr zamanı konsulluq sahəsi üzrə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, ikitərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları müzakirə edilib. Azərbaycanın və Ukraynanın vətəndaşlarının hüquq və qanuni mənafelərinin qorunması istiqamətində əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub, konsulluq sahəsində rəqəmsal xidmətlərin və proseslərin tətbiqinə dair qabaqcıl təcrübə üzrə, həmçinin hər iki ölkənin viza-miqrasiya siyasəti barəsində fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Yekaterinburq zorakılığını kəskin ittiham edir

## *Azərbaycan XİN Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı hücumlarla bağlı bəyanat yayıb*



**Azərbaycanın Xarici İşlər Nazirliyi Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı hücumlarla bağlı bəyanat yayıb.**

**Bəyanatda deyilir:**

*"İyunun 27-də səhər saatlarında Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Yekaterinburq şəhərində azərbaycanlıların yaşadığı evlərə basqını nəticəsində həmvətənlərimizin həlak olması və bəzilərinin ağır bədən xəsarətləri nəticəsində yaralanması, habelə 9 nəfərin saxlanması ilə bağlı dərin narahatlığımızı bildiririk.*

*Rusiya tərəfindən məsələ ilə bağlı təxirəsalınmaz araşdırılma aparılmasını və bu qəbuledilməz zorakılığı törədənlərin qısa müddət ərzində məsuliyyətə cəlb edilməsini gözləyirik".*

## Rusiya səfirliyinin müvəqqəti işlər vəkili XİN-ə çağırılıb

**İyunun 28-də Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Pyotr Volokovıx Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı hücumlarla əlaqədar Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

XİN-dən verilən məlumata görə, Rusiya tərəfinə iyunun 27-də həmvətənlərimizin yaşadığı mənzillərdə Rusiyanın təhlükəsizlik qüvvələri tərəfindən iki azərbaycanlının qəddarlıqla qətlə yetirildiyi, bir neçə nəfərin ağır bədən xəsarətləri aldığı, doqquz nəfərin həbs edildiyi reydləri ilə bağlı kəskin etiraz bildirilib.

Məsələnin araşdırılması, zorakılıq törədən bütün şəxslərin tezliklə cinayət məsuliyyətinə cəlb olunması barədə gözləntimiz qarşı tərəfin diqqətinə çatdırılıb.

***XQ***

## QHT Forumu Rusiyada azərbaycanlılara qarşı etnik basqıları pisləyib

**Azərbaycan Milli QHT Forumu Rusiyada azərbaycanlıların etnik mənsubiyyətinə görə qətl və zorakılığa məruz qalmasına dair bəyanat yayıb.**

Bəyanatda deyilir: "Biz - Azərbaycan vətəndaş cəmiyyətinin səsi olaraq, son zamanlar Rusiyada azərbaycanlıların etnik mənsubiyyətinə görə qətl və zorakılığa məruz qalmasının sistemli xarakter aldığını müşahidə edir, bunu hiddətlə qarşılayırıq. 2025-ci il iyunun 27-də Yekaterinburq şəhərində azərbaycanlılara qarşı məhkəmə mühakiməsi olmadan törədilmiş qətl və zorakılıqlar etnik və dini dözümsüzlük, irqi ayrı-seçkilik və faşizm nümunəsidir.

Faktlar, obyektiv təhlillər və çoxsaylı sübutlar göstərir ki, azərbaycanlılara qarşı bu cür cinayətlər çox vaxt rəsmi Moskvanın ən azı səssiz razılığı ilə sanksiyalaşdırılır.

Azərbaycan Respublikası hər zaman Rusiya ilə mehriban qonşuluq, dostluq və tərəfdaşlıq siyasətinə sadiqliyini nümayiş etdirib. Bu mövqe ölkəmizdə dövlət təhsil müəssisələrində rus bölmələrinin mövcudluğunu saxlaması, Rusiya ilə güclü mədəni əlaqələrin inkişafı, rus məktəbləri, teatrları, mədəniyyət mərkəzlərinin sərbəst fəaliyyəti, Azərbaycanda rus icmasına göstərilən xüsusi diqqət və qayğı, eləcə də qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi ilə təsdiqlənir. Biz Azərbaycanın Rus İcmasının Yekaterinburqda Rusiya güc strukturlarının qəddarlığını qətiyyətlə pisləməsini də təqdir edirik.

Biz Azərbaycan dövlətini çağırırıq ki, Rusiya Federasiyası tərəfindən azərbaycanlılara qarşı təhdid, hədə-qorxu və şantaj siyasətinin davam etdiyi indiki şəraitdə bu ölkə ilə bütün sahələrdə əməkdaşlıq və münasibətlər yenidən nəzərdən keçirilsin. Bu baxımdan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Rusiya ilə dövlət və özəl müəssisələrin xətti ilə Azərbaycanda keçirilməsi nəzərdə tutulan mədəniyyət tədbirlərini, o cümlədən konsertləri, festivalları, tamaşaları, sərgiləri ləğv etməsini təqdir edirik.

Ötən ilin sonu Rusiya səmasında vurulmuş AZAL təyyarəsi ilə əlaqədar bu günə qədər də günahkarların müəyyən edilərək mühakimə edilməməsi göstərir ki, Rusiya hakimiyyəti bu dəhşətli cinayətlərin açılmasında maraqlı tərəf deyil. Biz şəffaflıq, ədalət, qarşılıqlı hörmət tələb edirik.

Yekaterinburq şəhərində baş vermis sonuncu cinayət əməli də yalnız Səfərovlar ailəsini deyil, bütün Azərbaycanı sarsıdır. Hər birimiz özümüzü səfərovlardan biri hesab edirik".

***XQ***

# Yekaterinburq qurbanlarının cənazələri Bakıya gətirilib





**Cənazələr yenidən yoxlanılacaq, müvafiq obyektiv rəy hazırlanacaq**

İyunun 27-də Yekaterinburqda vəhşicəsinə döyülmə nəticəsində dünyasını dəyişən azərbaycanlılar - Ziyəddin və Hüseyn Səfərov qardaşlarının meyitləri dünən "Ural Airlines" aviaşirkətinə məxsus reyslə Bakıya gətirilib.



Meyitlərin dünən yenidən tibbi ekspertizaya göndərilməsi nəzərdə tutulur.

Jurnalistlərə açıqlamasında Rusiyada qardaşları qətlə yetirilən jurnalist Seyfəddin Hüseynli bildirib:

– Yekaterinburqdakı hadisələr təkcə ailəmiz deyil, bütün Azərbaycan üçün ağır oldu. Bir azdan Rusiyanın güc strukturlarının amansız işgəncələri nəticəsində həyatını itirmiş qardaşlarımın cənazələri ölkəyə gətirilir.

"Rusiyada həyata keçirilən qurama, qeyri-obyektiv, qondarma ekspertizanın rəyi ilə bağlı həqiqətin üzə çıxarılması, haqq-ədalətin öz əksini tapması üçün ölkəmizin peşəkar həkimləri tərəfindən cənazələr yenidən yoxlanılacaq, müvafiq obyektiv rəy hazırlanacaq", – deyə o vurğulayıb.

Seyfəddin Hüseynli fikirlərini belə davam etdirib:"Bizim xalqımız da, dövlətimiz də alicənabdır. Hər zaman öz nəcibliyini qoruyub. Sözsüz ki, Azərbaycan bu məsələdə də tam qanuna uyğun şəkildə davrandı, adekvat addımlar atdı. Azərbaycan dövləti göstərdi ki, hər bir vətəndaşının, ümumilikdə bütün azərbaycanlıların hüququnu, haqqını qorumağa qadirdir, bunun üçün çalışır. Dövlətimiz Azərbaycan mənsubiyyəti olan heç bir insanın zülmə, işgəncəyə məruz qalmasına sakit baxmayacaq".

***XQ***

# DİN: "Sputnik Azərbaycan"ın qanunsuz fəaliyyəti araşdırılır



**2025-ci ilin fevralında "Rossiya Seqodnya" İnformasiya Agentliyinin Bakı filialının ("Sputnik Azərbaycan") akkreditasiyası dayandırılsa da, qanunsuz maliyyələşmə əsasında fəaliyyətini davam etdirməsinə dair daxil olmuş əməliyyat məlumatı əsasında Daxili İşlər Nazirliyi (DİN) araşdırmalara başlayıb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, iyunun 30-da filialın ofisində əməliyyat-axtarış tədbirləri keçirilib, saxlanılanlar var.

Əlavə məlumat veriləcək.

***XQ***

# Ermənilərin Azərbaycanda özlərinə qarşı törətdikləri hərbi cinayətlərə Ermənistanda baxılırdı



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma kimi çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 30-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında əvvəlcə təqsirləndirilən şəxs Arayik Harutyunyana öz müdafiəçisi tərəfindən suallar ünvanlanıb. A.Harutyunyan suallara cavabında Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qondarma qurumun "müdafiə naziri"nə 2020-ci ildə general-leytenant rütbəsinin Ermənistan prezidenti tərəfindən verildiyini deyib. O, qondarma rejimin "ordusu"nda (Ermənistan Respublikası silahlı qüvvələrinin silahlı birləşməsi nəzərdə tutulur – red.) belə bir qərar vermək səlahiyyətinin olmadığını deyib.



Təqsirləndirilən şəxs hərbi cinayətlərə baxılması üçün qondarma qurumun "hərbi polisi"nin, "hərbi prokurorluğu"nun və "hərbi məhkəməsi"nin olmadığını da söyləyib. Müdafiə tərəfinin digər vəkili A.Harutyunyandan qondarma rejimin "rəhbəri" kimi onun tabeliyində hərbi bölmə, manqa və s. olub-olmadığını soruşub. Təqsirləndirilən şəxs isə onun tabeliyində yalnız "polis" və "milli təhlükəsizlik xidməti"nin olduğunu söyləyib. Vəkilin "İstənilən hərbi birləşmə Ermənistan ordusunun tərkib hissəsi idi?" sualına isə "Bəli" cavabını verib.

Daha sonra təqsirləndirilən şəxs Arkadi Qukasyan Baş Prokurorluğun dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında qondarma rejimin "rəhbəri" olduğu dövrlərdə orada kənd təsərrüfatı və sənaye sahəsində xırda şirkətlərin mövcud olduğunu bildirib, həmçinin nəhəng "Base Metals" şirkətinin fəaliyyəti barədə danışıb. A.Qukasyan "Base Metals" şirkətinin həmin vaxt Ermənistanın işğalı altında olan Azərbaycanın suveren ərazilərində 2001-ci, yaxud 2002-ci ildən fəaliyyətə başladığını, 2012-ci ilədək Heyvalı yatağından mis çıxardığını söyləyib. A.Qukasyan əldə olunan misin Ermənistana aparıldığını da qeyd edib. Təqsirləndirilən şəxs 2012-ci ildə Heyvalı yatağında misin bitdiyini, lakin şirkətin bu və digər istiqamətlərdə fəaliyyətini davam etdirdiyini deyib.

A.Qukasyan isveçrəəsilli erməni iş adamı Vartan Srmakeşin qondarma rejimin ərazisindəki fəaliyyəti barədə də danışıb. Təqsirləndirilən şəxs qondarma rejimin mobil operatoru - "Karabax Telekom"un fəaliyyətindən bəhs edərkən deyib ki, onun sahibi Livan ermənisi idi. O, 2020-ci ildə Bako Sahakyanla birlikdə Arayik Harutyunyanla bunkerdə görüşdüyünü də söyləyib: "Arayik Harutyunyan dedi Ermənistanın rəhbərliyinə çatdırmalısınız və xahiş etməlisiniz ki, əlindən gələn hər şeyi etsin ki, bu müharibəni dayandırsın. Bu, təkcə Arayik Harutyunyanın xahişi deyildi, bir çox adamlar yaxınlaşıb bizdən xahiş edirdi".

Təqsirləndirilən şəxs oktyabrın 18-20-də B.Sahakyanla birlikdə İrəvana gedərək baş nazir Nikol Paşinyanla görüşdüyünü, ona xahişi çatdırdıqlarını deyib: "Ondan xahiş etdik ki, əlindən gələni etsin ki, bu müharibəni dayandırsın".

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran A.Qukasyan qondarma rejimin "rəhbəri" qismində "Hayastan" ümumerməni fondunun (həmin fond 1992-ci ildə Ermənistan prezidenti Levon Ter-Petrosyanın fərmanı ilə yaradılıb – red.) Himayəçilər Şurasının üzvü olduğunu bildirib. O əlavə edib ki, fondun Himayəçilər Şurası arasında Ermənistan prezidenti, baş naziri, parlament sədri, maliyyə naziri, iki katolikos, tanınmış erməni diaspor təşkilatlarının rəhbərləri və s. şəxslər (ümumilikdə 30-40 nəfər) olub. O, fondun Azərbaycanın vaxtilə Ermənistanın işğalı altında olan ərazilərində gördüyü işlərdən də danışıb. Bu sıraya Ermənistanla qondarma rejimi birləşdirən yolun çəkilməsi, məktəblərin tikilməsi və s. daxildir.

A.Qukasyanın Azərbaycan ərazilərində 2001-ci ildə məskunlaşma ilə bağlı onillik strateji planın qəbul edildiyini təsdiqləyib. Lakin iddia edib ki, bu qərar qondarma rejimin ərazisindən gedənlərin geri qaytarılması məqsədilə qəbul olunub. Bununla yanaşı, etiraf edib ki, qondarma rejimin ərazisinə Ermənistandan daimi yaşamaq üçün gələnlər olub. Onun mənzilinə baxış zamanı aşkarlanmış erməni dilində olan sənəd - Azərbaycanın vaxtilə Ermənistanın işğalı altında olan ərazilərində məskunlaşma ilə bağlı xəritə məhkəmədə tədqiq edilib. Burada müxtəlif ərazilər və ailələrin, sakinlərin sayları göstərilib.

A.Qukasyan prokurorun suallarını cavablandırarkən belə bir sənədi xatırlamadığını deyib və əlavə edib: "Bu, mənim dövrümə aid sənəd deyil. Ola bilsin 2015-2016-cı illərə aid olan sənəddir".

Məhkəmə prosesi iyulun 3-də davam etdiriləcək.

***XQ***

# Lev Tolstoydan Pyotr Tolstoya

(əvvəli 1-ci səhifədə)

Əlqərəz, hazırda Tolstoy soyadlı biri Rusiya Dövlət Dumasının sədr müavinidir. Adı Pyotrdur və neonasist ruhlu bu məxluq ölkəsi üçün böyük utanc səhifəsinə çevrilmiş Yekaterinburq olaylarından söz açarkən, özünün ənənəvi hiddət ritorikasını işə salıb. O, Azərbaycan Xarici İşlər Nazirliyinin soydaşlarımıza qarşı zorakılığın və qətlin araşdırılmasına çağırış ruhlu bəyanatına tərbiyəsiz formada münasibət bildirib. P.Tolstoy, faktiki olaraq, azərbaycanlıların öldürülmələrinə haqq qazandırıb.

Dövlət Dumasında əyləşən bu neandertalın yarımçıq düşüncəsinə görə, Rusiya özünün Azərbaycan əsilli vətəndaşlarını qətlə yetirmək, əzmək ixtiyarındaymış və heç bir başqa dövlət buna qarışa bilməzmiş. Hər halda, P.Tolstoy Yekaterinburq məşəqqətinin nə üçün, hansı məqsədlə başlandığından xəbərdardır. Eləcə də hazırda Rusiyanın müxtəlif bölgələrindəki azərbaycanlıların sıxışdırılmasının səbəbləri ona yaxşı məlumdur.

...Fərq qoyulmur ki, kimsə ölkə vətəndaşıdır, yoxsa yox. Buna görə birmənalı şəkildə demək olar ki, hazırda Rusiyada soydaşlarımıza qarşı yaşanan total təzyiq fonunda əsl repressiv mühit hökm sürməkdədir və mövcud durumu formalaşdıranlar, öz aləmlərində, Azərbaycana dərs verdiklərini düşünürlər. P.Tolstoy bu "dərsə" iyrənc motivlər qazandırmaqdan başqa bir şey etmir. Onun dilə gətirdikləri körpüləri yandırmaqdır...

Bəli, Azərbaycan XİN yaydığı sənəddə diplomatik tonu qoruyaraq ümumi ifadələrlə kifayətlənib. Aydındır ki, qurum adi kriminal səciyyə daşıyan olaya münasibət bildirməzdi. Deməli, məlum məsələlər var və indiki halda başlıca məqam P.Tolstoy və onun kimilərinin bu məsələlər fonunda həyasızlığa baş vurmalarıdır. Görünür, beləlləri özlərini Dövlət Dumasının təmsilçisi yox, çar İvan Qroznunun Opritçinasının üzvləri qiyafəsində təsəvvürə gətirirlər. Opritçinadan söz düşmüşkən, əminliklə söyləyə bilərik ki, XVI əsr Rusiyasında insanlara qarşı terrorun və qəddarlığın rəmzinə çevrilmiş sözügedən təşkilatın yerini hazırda Rusiya polisinin "OMON" adlandırılan xüsusi təyinatlı dəstəsi tutur.

Əlqərəz, P.Tolstoy iddia edib ki, Yekaterinburqda qətlə yetirilmiş Səfərov qardaşlarından biri, guya, ürək tutmasından vəfat edib. Yəni, polis evə daxil olanda, qorxudan stres keçirib və dünyasını dəyişib. Tolstoy digər qardaşın ölüm səbəbinin araşdırıldığını da diqqətə çatdırıb. Necə deyərlər, utanmayasan, oynamağa nə var ki? Bu sərsəm fikrinə görə, Dövlət Duması təmsilçisinin insan yox, əsl zombi olduğu ortadadır. Bəs məhkəməsi gedən azərbaycanlıların sifətlərindəki fiziki xəsarət, zorakılıq izlərinin, onların tanınmaz hala düşdüklərinin əksini tapmış və sosial şəbəkərlərdə yayımlanmış görüntüləri nə edək? Əlbəttə, Tolstoy zərərçəkənlərin ayaqlarının sürüşüb yıxıldığını iddia edə bilər və onda bu "fikri" dilə gətirəcək "potensialın" mövcudluğu şübhə doğurmur...




Beləliklə, Pyotr Tolstoy kimi ksenefobun Rusiyanın ali qanunverici orqanında təmsilçiliyi misli görünməmiş eybəcərlik, ölkənin dövlət idarəçiliyi və ictimai fikri adına böyük utancdır. Hərçənd, inanmırıq ki, hazırda Rusiyada bu məqamı düşünənlərin sayı zombiləşmişlərin sayından çoxdur. Əks halda, hansısa nüfuzlu şəxs meydana çıxar və azərbaycanlılara qarşı terrorun dayandırılmasını, bunun heç bir insani normalara sığmadığını bildirərdi. Bəlkə də bu barədə söz açanlar var, ancaq səsləri çıxmır, yaxud çox zəif çıxır.

Tolstoy kimilər anlamalıdırlar: Azərbaycan XİN-in mövqeyi budur ki, hansısa cinayət əməlini araşdırmaq adı altında daha böyük cinayətlər törədilməsin. Yəni, dövlət qurumumuz diplomatik etiketi pozmur, tam mahiyyət üzrə davranır. Hərçənd, azərbaycanlılara qarşı total təzyiqlər üçün uydurulmuş bəhanə əsl mahiyyət sayıla bilməz və bunu hər kəs bilir. Elə Tolstoyun özü də. Onun anlamadığı bir vacib məqam var. Söhbət insan hüquqlarından gedir. XXI əsrdə heç kəs deyə bilməz ki, bir dövlətin öz vətəndaşına, vətəndaşlığı olmayan şəxslərə qarşı törətdiyi qanunsuzluq, qəddarlıq və şiddət həmin dövlətin daxili işidir. Çünki bəşəri dəyərlərin mühafizəsi ümumən insanlığın ümdə vəzifəsi qismində qəbul olunur və bu, beynəlxalq hüquq prizmasından dəyərləndirilir. Əlbəttə, beynəlxalq hüququ ayaqlar altına almış Rusiya və onun Tolstoy kimi zəncantroplarını mövcud məqam düşündürməyə bilər...

Amma Rusiyada bəzi suallara cavab tapılmalıdır. Məsələn, rus qoşunları nə üçün, hansı məqsədlə Krıma daxil olmuşdular? Əlbəttə, Kremlin strateji hədəfləri var idi. Ancaq rəsmi Moskva, o cümlədən Prezident Vladimir Putin nəinki Krımda, habelə Donetsk və Luqanskda rusların qorunmasının, onların hüquqlarına hörmətlə yanaşılmasının vacibliyini dəfələrlə vurğulayıb, "Ukrayna hakimiyyətinin məsələyə etinasız münasibətini" qabardıb. Tolstoyların məntiqini əsas tutsaq, Putinin mövqeyi Ukraynanın daxili işlərinə qarışmaq idi. Deməli, rus milləti mənsublarının qeydinə qalmaq Rusiyaya olarsa, Azərbaycana da azərbaycanlılar üçün narahatlıq keçirmək tam məqbuldur. O zaman Tolstoy nə üçün ölkəmizin XİN-nin bəyanatından "incik düşüb"?

Cavab sadədir. Tolstoy kimi şovinist neonasistlər ölkələri üçün sonsuz "səlahiyyətlər" və "imtiyazlar" müəyyənləşdiriblər. Onların hərbə-zorba ritorikalarının bütün sərhədləri və mənəvi normaları aşdığı məlumdur. Ancaq reallıqlar var. Ukrayna ilə müharibəyə cəlb edilmiş Rusiya hazırda ağır durumdadır. Hakimiyyətin müharibənin müqəddəsliyi ilə bağlı uydurduğu bütün saxta tezislərin geniş ictimai rəyə təsiri yoxdur. Ona görə döyüşmək üçün əsgər tapılmır. Bütün bunlar öz yerində. Daha bir mühüm məqam Rusiyanın nə üçün Ukrayna müstəvisində Qərbin "tələsinə" düşməsidir. Hesab edirik ki, məsələ ətrafında təkcə ölkənin hakimiyyəti yox, bütövlükdə rus cəmiyyəti düşünməlidir. Özü də təkcə düşünməli yox, dərs çıxarmalıdır. Bu gün Tolstoy kimi gerizəkalılar, qəddar və qorxunc təfəkkür sahibləri, insan hüquqlarına həqarət çarçıları Rusiya Dövlət Dumasında kürsü zəbt edə bilirlərsə, deməli, ölkəni gələcəkdə daha ağır durum, strateji məğlubiyyətlər gözləyir. Çünki bu kimi məxluqlar XXI əsr Rusiyasını çürük imperiya klişelərindəki kimi təsəvvürə gətirirlər. Beləlləri üçün başqa xalqların nümayəndələri ikinci növ insanlardır və çox təəssüf ki, onların təhlükəli tezisləri, loru dildə desək, yuxarıdan aşağı baxışları çoxmillətli federativ quruluşa malik Rusiyanın idarəçilik fəlsəfəsində də başlıca yer tutur. Saxta beynəlmiləlçiliyi əlində bayrağa çevirmiş keçmiş SSRİ də məhz tolstoyların xələflərinin sərsəmlikləri səbəbindən dağıldı.

Sonda yenidən dahi Lev Tolstoydan soz açaq. Ədibin yaradıcılığının müəyyən dövründə dini və fəlsəfi motivlər güclənmiş, o, kilsəni və onun ikili standartlarını tənqid etmiş, paralel olaraq, öz dini-fəlsəfi sistemini qurmağa çalışmışdı. L.Tolstoyun sistemində əsas ideya insanlara sevgi, zora qarşı mənəvi dirənişlə cavab vermək və vicdanla yaşamaq üzərində qurulmuşdu. Bu yerdə yazımızın əvvəlindəki suala cavab olaraq bildirək ki, lev tolstoylar olmasaydı, Rusiya indikindən daha acınacaqlı duruma düşərdi. Ən mühüm, müəyyən mənada, ritorik mahiyyətli sual isə budur: Görəsən, nə oldu ki, Lev Tolstoy mənəvi zənginlik dövrünün üzərindən bir əsrdən çox zaman keçdikdən sonra Rusiyada onun soyadını daşıyan Pyotr adlı ksenefob peyda oldu? Ortada son dərəcə böyük ziddiyyət var. Görəsən, represiya ilhamvericilərinə çevrilmiş pyotrları, Aleksandr Soljenitsinin təbirincə desək, hansı analar doğdu? Nəzərə alaq ki, indiki halda Pyotr Tolstoy ölkədəki sərsəm təxəyyül sahiblərinin ümumiləşdirilmiş obrazıdır. Rusiyanı sabiq SSRİ kimi uçuruma və məhvə aparan, mütərəqqilikdən, insani yaşantıdan tam uzaq bir obraz. Dünyaya isə ikinci Lev Tolstoy gəlməyəcək. Deməli, Rusiyada düşünməlidirlər ki, ədibin "İvan İliçin ölümü" əsərində təsvir olunmuş əzab və peşmanlıqla dolu daxili inqilab sonrası yaşanmış xilas anı da yaşanmayacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Makronun telefon zəngi sülhə yox, Paşinyana "sərmayə"dir

**Ermənistan baş naziri Nikol Paşinyanla Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub. Hayastan baş nazirinin ofisindən "Armenpress"ə verilən məlumata görə, görüşdə Ermənistan–Fransa ikitərəfli münasibətlərinə, regional və beynəlxalq gündəliyə aid məsələlər müzakirə olunub.**

Paşinyan Makrona iki ölkə arasında münasibətlərin inkişafına verdiyi şəxsi töhfələrə görə təşəkkür edib. Tərəflər müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı daha da canlandırmaq barədə razılığa gəliblər. Fransa Prezidenti Ermənistanda həyata keçirilən islahatlar proqramını və Paşinyan hökumətinin qəbul etdiyi sülh strategiyasını dəstəklədiyini bildirib.

Bundan sonra həm E.Makron, həm də N.Paşinyan "X" mikrobloqlarında telefon danışığını qiymətləndirən paylaşımlarla çıxış ediblər. Makron telefon danışığını müsbət dəyərləndirdiyini bildirib. O, Ermənistan baş naziri ilə çox yaxşı telefon danışığı apardığını qeyd edib: "Mən Ermənistan demokratiyasını pozmaq cəhdlərinə qarşı mübarizədə Fransanın həmrəyliyini ifadə etdim. Həmçinin onun Azərbaycanla sülhün bərqərar olması və Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində göstərdiyi cəsarətli səylərə dəstəyimizi bir daha təsdiqlədim. Sülh və açıq sərhədlər bütün region üçün mühüm hadisə olacaq".

Telefon danışığının təfərrüatlarını təqdim edən Paşinyan isə bildirib ki, E. Makronla söhbət zamanı ikitərəfli, regional və beynəlxalq gündəliyin əsas məsələləri, o cümlədən sülh strategiyası müzakirə olunub: "Mən ona əlaqələrin möhkəmləndirilməsində şəxsi töhfəsinə görə təşəkkür etdim".

***

İki ölkə lideri arasında baş tutmuş telefon danışığında bir neçə mühüm nüans diqqəti cəlb edir. Hesab etmək olar ki, bu, təkcə diplomatik protokol qaydasının tələbi olan ikitərəfli münasibətlərin müzakirəsi deyil, həm də Fransanın regiondakı yeni mövqelərinin konturlarının növbəti dəfə cızılmasına cəhddir. Makronun açıqlamasında "Ermənistan demokratiyasını pozmaq cəhdlərinə qarşı Fransanın həmrəyliyi" ifadəsi, əslində, Ermənistandakı daxili qarşıdurmalara və Paşinyanın revanşist müxalifətlə mübarizəsinə birbaşa



dəstək kimi səslənir. Bu, Fransanın, faktiki olaraq, Ermənistanın daxili siyasətinə açıq müdaxilə səviyyəsində çıxış etdiyini göstərir. Halbuki əsl demokratiya yalnız hakimiyyətə dəstək verməklə deyil, həm də müxalif fikirlərin sərbəst ifadəsinə şərait yaratmaqla ölçülür.

Telefon danışığında Makronun Azərbaycanla sülh istiqamətində aparılan danışıqlara "dəstək verdiklərini" bildirməsi isə təzadlı görünür. Çünki Fransa Senatının və Milli Assambleyasının bir neçə dəfə Azərbaycana qarşı qəbul etdiyi qərəzli qətnamələr, eləcə də Fransanın Avropa İttifaqında və BMT-də Bakıya qarşı göstərdiyi açıq təzyiqlər bu "dəstəyin" formal diplomatik cümlədən ibarət olduğunu göstərir. Əgər Fransa həqiqətən də Cənubi Qafqazda sülh istəyirsə, o zaman Ermənistanı destruktiv ritorikadan çəkindirməli və Zəngəzur dəhlizi, sərhədlərin delimitasiyası kimi proseslərdə obyektiv mövqe tutmalıdır.

Paşinyanın "Makronun şəxsi töhfəsi" ifadəsi, əslində, Ermənistan–Fransa münasibətlərinin rəsmi formatdan çıxaraq şəxsi münasibətlər səviyyəsində qurulduğunu göstərir. Bu da onu göstərir ki, bir ölkənin siyasi xəttini başqa ölkə liderinin şəxsi iradəsinə bağlamaq ciddi risklər yarada bilər.

Telefon danışığını həm də Fransanın regionda itirdiyi nüfuzunu Ermənistan vasitəsilə kompensasiya etmək cəhdi adlandırmaq mümkündür. Azərbaycan və Türkiyə ilə münasibətləri pozulmuş, Gürcüstanla əlaqələri məhdud olan Makron hökuməti Cənubi Qafqazda "demokratiya qalası" kimi yalnız Paşinyanı görməkdədir. Lakin Fransa bu yolla regionda real sülhə deyil, daha çox Paşinyanın hakimiyyətini qoruma strategiyasına xidmət edir.

Fransa Prezidentinin Paşinyanın "sülh strategiyasına" dəstək verdiyini bəyan etməsi ilk baxışda pozitiv görünsə də, əslində ziddiyyətli yanaşmadır. Çünki bu "sülh strategiyası" hələ də real nəticələr verməyib və Ermənistan tərəfi konkret öhdəliklərdən yayınmaqda davam edir. Makronun bu dəstəyi daha çox Paşinyanın hakimiyyətini gücləndirməyə yönəlmiş siyasi jest kimi görünür. Əgər Fransa həqiqətən islahat və sülh prosesinə töhfə vermək istəyirsə, Ermənistanı öhdəliklərini yerinə yetirməyə təşviq etməlidir. Hazırkı vəziyyətdə isə Makronun bəyanatı Paşinyanın daxili və xarici legitimliyini artırmaq məqsədi daşıyır. Bu, sülhdən çox siyasi manevr və təsir uğrunda mübarizəyə bənzəyir.

***

Paşinyan və Makron bir-birinin ünvanına təriflər yağdırarkən Rusiya–Ermənistan münasibətlərində mövcud böhranın daha da dərinləşdiyi diqqətdən yayınmır. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov dünən Erməni Apostol Kilsəsi ətrafındakı vəziyyəti şərh edərkən "bu münaqişə həll olunmalıdır" - deyib. Qırğızıstanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edən Lavrov jurnalistlərə deyib: "Rusiya kilsənin əsassız hücumların hədəfinə çevrilməməsində maraqlıdır. Biz Ermənistanda baş verənlərin hər biri ilə bağlı ciddi narahatlığımızı ifadə etmişik. Təbii ki, bu, qonşularımızın daxili işidir, lakin min illər tarixi olan apostol kilsəsinə qarşı hücumlar ciddi narahatlıq yaradır. Kilsə ənənəvi olaraq erməni cəmiyyətinin əsas sütunlarından biri olub və biz onun faktiki olaraq, heç bir ciddi səbəb olmadan əsassız hücumlara məruz qalmasını istəməzdik".

Ermənistan xarici işlər naziri Ararat Mirzoyan isə rusiyalı həmkarına sərt cavab verib. İrəvanda Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasla birgə mətbuat konfransında Mirzoyan deyib: "Hörmətli həmkarım Sergey Lavrovun şərhi ilə qısaca tanış oldum. Cənab Lavrovun məlumatları düzgün və dolğun deyil. Səhv etmirəmsə, o, "hakimiyyətin kilsəyə qarşı mübarizəsi" ifadəsini işlədib. Cənab Lavrovun məlumatları həqiqətə uyğun deyil. Ermənistanda hakimiyyətin kilsəyə qarşı hər hansı mübarizəsi yoxdur. Lavrovun nəzərdə tutduqları çox güman ki, bir neçə kilsə xadiminin siyasətə müdaxiləsi və onların qanunsuz çevriliş cəhdlərində iştirakı və ya təşəbbüsü ilə bağlıdır. Bu, hüquqi prosesdir və Ermənistanın daxili işidir. Yaxşı olardı ki, Rusiya XİN Ermənistanın daxili işlərinə və daxili siyasətinə qarışmasın. Rusiyanın rəsmi şəxsləri, parlamentariləri və media ekspertləri Ermənistanın suverenliyinə hörmətlə yanaşmalı və özlərinə bir daha bizim daxili işlərimizə qarışmaq imkanı tanımamalıdırlar".

Beləliklə, Paşinyan və Makronun qarşılıqlı tərifləri fonunda Rusiya–Ermənistan münasibətlərindəki böhranın dərinləşməsi açıq şəkildə hiss olunur. S.Lavrovun Erməni Apostol Kilsəsi ilə bağlı aparılan istintaqa dair narahatlığı Moskvanın bu institut vasitəsilə Ermənistandakı təsir imkanlarını qorumağa çalışdığını göstərir. Lavrov kilsəni "erməni cəmiyyətinin sütunu" kimi təqdim etməklə, faktiki olaraq, revanşist dairələrin müdafiəsinə qalxır. A.Mirzoyanın sərt reaksiyası isə Kremlin Ermənistanın daxili işlərinə təsir etməsinə qarşı rəsmi İrəvanın getdikcə artan narazılığını əks etdirir. Mirzoyan ilk dəfədir ki, bu qədər açıq və kəskin şəkildə "daxili işlərə qarışmayın!" mesajını verir. Onun kilsə xadimlərini "çevriliş təşəbbüskarları" kimi təqdim etməsi daxildə siyasi qarşıdurmanın nə qədər dərinləşdiyini nümayiş etdirir. Ermənistan rəhbərliyi artıq Rusiyadan gələn təhdidləri "suverenliyə müdaxilə" kimi dəyərləndirməyə başlayıb. Bu, Ermənistanın Qərbə inteqrasiyasının sürətləndiyini və Moskvanın regiondakı təsirini itirdiyini göstərən daha bir bariz nümunədir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Fərhad MƏMMƏDOV, politoloq**

– Ermənistanda siyasi proseslər sürətlə inkişaf edir. Paşinyan iqtidarı qəti hərəkətləri ilə müxalifətin istənilən təzahürlərini neytrallaşdırır: Parlament müxalifətinin liderlərinə qarşı cinayət işi başlanıb, kilsə xadimləri saxlanılıb, katolikosa qarşı kampaniya aparılır, Rusiyanın zəngin ermənisi həbs edilib. Rusiyadan gələn xarici təsir prosesin seçkiyə getməsinin qarşısını almağa yönəlib. Paşinyanın sərt reaksiyası da məhz bundan qaynaqlanır.

Əgər Ermənistandakı siyasi proseslərə kənar təsir, yəni Rusiyanın revanşistlərə "stavka" etməsi olmasaydı bu məsələ Azərbaycanda reaksiya doğurmazdı. Bakıda çox yaxşı başa düşürlər ki, "müxalifətçilər" və "ictimai fəallar" adı altında gizlənənlər Moskvanın peşəkar marionetləridir. Ona görə də Azərbaycanın mövqeyi aydındır: Biz hər şeyi görürük, hamını tanıyırıq və hər şeyə hazırıq.

# Azərbaycanın “qırmızı xətti”: müstəqilliyimiz əbədidir!



**Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək.**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

**I MƏQALƏ**

## Dost olmaq istəməyənlərə...

Ulu öndər Heydər Əliyevin yuxarıda gətirdiyimiz tarixi fikir nümunəsinin mahiyyəti, məzmunu, siyasi hədəfləri və strateji məqsədini Azərbaycana dost olmaq istəməyənlərin də dərk etdiyinə qətiyyən şübhə etmirik. Bunu həmin dairələrin indi uğurlu, müstəqil və suveren Azərbaycan Respublikası dövlətinə olan münasibətlərindən aydın hiss edirik. Ancaq həmin dairələrin məsələnin başqa bir tərəfini anlamaqda hələ də çətinlik çəkdiyinə çox təəccüblənirik. O çətinlik Ümummilli Liderin müstəqilliklə bağlı irəli sürdüyü bu tarixi tezisinin Azərbaycan xalqı üçün nə demək olduğunu ya anlamamaları, ya da anlamaq istəməmələri ilə bağlıdır. Buna görə də bir sıra məqamların üzərində yenidən dayanmaq lazım gəlir.

## Qısa tarixi ekskurs

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikasının Milli Məclisində həmin tezisi sadəcə ifadə etmədi. Bu, Ulu öndərin Azərbaycanın müstəqil Azərbaycan dövləti və böyük ölkə, güclü məmləkət uğrunda mübarizəsi proqramının təməl prinsipinin bəyanı idi. Həmin fikirdən öncəki fikir belə idi: “ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm”.

Az-çox Azərbaycan dövlətçilik ənənəsini bilən, çox xalqları özündə birləşdirən Azərbaycan xalqının siyasi, tarixi, mədəni və mənəvi-əxlaqi kodlarını dərk edən hər kəs bu iki tezisi şüurunda sintez edib, onun “semantik sahəsi”nə fikrən yüklənə bilsə, özünün psixoloji vəziyyətini sağlamlaşdıra bilər. Bunun üçün onlara çoxlu sayda faktlar təqdim edə bilərik.

1994-1995-ci illərdə Heydər Əliyev dalbadal iki böyük sui-qəsdi xalqın ciddi dəstəyi ilə qətiyyəti, mərdliyi, siyasi iradəsiylə dəf edə bildi. Siyasət və geosiyasət meydanında isə məhz həmin dönəmdə bütün dünya üçün sürpriz olan addımı atdı: “Əsrin müqaviləsi”ni imzaladı! Ermənistanın havadarları ilə atəşkəs haqqında razılığa gələ bildi! Bu proseslərdə ən çətin situasiyalarda belə, Heydər Əliyev bunkerə getmədi – həmişə xalqının gözü qarşısında oldu!

Həmin illərin sui-qəsd planlarında hansı kənar dövlətlərin əli olduğu barədə kifayət qədər informasiyalar KİV-də verilmişdir. Türkiyədə “Qərb konsepsiyası” tərəfdarları və Rusiyada “Üçüncü Roma” aşiqlərinin Azərbaycana gerçək münasibəti haqqında da məlumatlıyıq. Bunların fonunda Heydər Əliyevin iki təhlükəli dövlət çevrilişi cəhdinin qarşısını fədakarlıqla alması böyük qələbə idi!

2020-ci ilin sentyabr-noyabr ayları! Azərbaycan Respublikası tarixi Vətən savaşını verdi. Nəinki Azərbaycan Respublikasının vətəndaşları olan azərbaycanlılar, həm də dünyanın ən uzaq guşələrində yaşayan soydaşlarımız Azərbaycan Prezidentinə, dövlətinə və xalqa görünməmiş dəstək verdi. Milyonlarla azərbaycanlı İlham Əliyevə onları müharibəyə göndərməsi xahişini etdilər. Bir nəfər də olsun fərarisi olmadı Azərbaycan ordusunun. Ana və bacılarımız gözü yaşlı-yaşlı “Vətən sağ olsun!”, dedilər!

Azərbaycan Prezidenti İlham Əliyev 44 gündən əvvəl, müharibənin gedişində və ondan sonrakı dönəmlərdə bir gün də olsun bunkerə getmədi. Əksinə, İlham Əliyevin həm hərb meydanında, həm də informasiya müharibəsində verdiyi mücadiləni “cəngavər döyüşü” adlandırdılar. Asan deyildi, hər tərəfdən təzyiqlər, hədələr, sui-qəsd xəbərdarlıqları alırdı dövlət başçısı. Ancaq azərbaycanlıların öz ənənəsi var: “kişi düşmənin qabağından qaçmaz”! Bunun da kökü etnik mənsubluğundan asılı olmayaraq Azərbaycan xalqının hər bir tərkib hissəsinin tarixi-mənəvi kimliyindədir: “ailə, yurd, Vətən müqəddəsdir, imandandır, dindəndir, tarixdəndir, əcdadlarımızın əmanətidir”!

Bunlar nə təntənədir, nə də pafosdur – azərbaycanlıları bilən və tanıyanlar üçün adi, təbii və sadə həqiqətlərdir. Ancaq burada mövzu kontekstində çox mühüm bir məqam da mövcuddur.

## Azərbaycanlıların siyasi mentaliteti

İndi Ulu öndərin yuxarıda vurğulanan tezisləri işığında müasir dövlətçilik tariximizdən gətirdiyimiz iki nümunənin siyasi şüura təsiri məsələsinə baxaq.

Beləliklə, Heydər Əliyev öyrədirdi və şəxsi fəaliyyəti ilə nümunə göstərirdi ki, birincisi, Azərbaycan xalqı üçün ömür sərf etməyə dəyər, ikincisi, bu əsasda Azərbaycan bütün hallarda yalnız və yalnız müstəqil olmalıdır! Heydər Əliyev dalbadal bu iki məqamın doğruluğunu sübut edən addımlar atdı. Həyatını risklərə atdı, çoxlu sayda böyük dövlətlərlə siyasi-diplomatik savaş apardı, təcavüzkarın ram edilməsi üçün böyük mücadilə verdi. Diplomatiyada elə hünər göstərdi ki, enerji strategiyamızın qarşısını almağı bacaran olmadı!

Bütün bunlar xalqa təsirsizmi ötüşdü? Belə düşünən varsa, zavallı və zəif məxluqdur. Heydər Əliyev və İlham Əliyevin dövlət başçısı və lider kimi fəaliyyət nümunələri azərbaycanlıların siyasi mentalitetinə çox ciddi təsirlər göstərmişdir. Konkret olaraq, xalq müstəqilliyi siyasi kimliyinin mərkəzində mövcud olmanın əsas şərti kimi yerləşdirmişdir!

Azərbaycanlılar üçün bu, çətin deyildir, çünki tarixi ənənədə yurdsevərlik və vətənsevərlik bir tərəfdən ailə bağlılığıyla, digər tərəfdən isə dövlət qurmaq missiyası ilə vəhdətdə mövcuddur. Azərbaycanlıların tarixi ənənəni müasir dövrün şərtləri daxilində bir daha yaddaşlarında canlandırması prosesi tam baş tutmuşdur! Bu o deməkdir ki, müstəqillik, yurdsevərlik və vətənsevərlik indi bir-birindən ayrılmaz mənəvi, ideoloji və mədəni bütövdür!

Bizə dost olmaq və obyektiv yanaşmaq istəməyən, haqqımızı-hüququmuzu tanımağı özlərinə ar bilən imperiya qafalıların anlaya bilmədiyi əsas həqiqət bundan ibarətdir! Onlar tarixi əsası olmayan və yalnız qafalarında xülya kimi qalan müxtəlif “qırmızı cizgilər” çəkə bilərlər. Lakin əsl cizgini Azərbaycan xalqı çəkir və bu zaman vaz keçməyəcəyi bir şərti ön sıraya çıxarır: Azərbaycanın müstəqilliyi əbədidir! Azərbaycanlılar vətənsevərliklə müstəqilliyi siyasi mentalitetlərinin baş tacına çevirmişlər! Azərbaycanlıların bu yolu seçmələri üçün son 200 ildə həyat çoxlu sayda faktları qarşımıza qoymuşdur.

## XVIII–XIX əsrlərdə dövlətçiliyə vurulan zərbələr

Bu gün özlərindən “qırmızı cizgilər” uyduranlar üçün bir sıra tarixi faktları yenidən xatırlatmağa dəyər. XVIII əsrin başlanğıcında Rusiya imperiyası Cənubi Qafqaza can atmalarına yeni intensivlik və siyasi hiyləgərlik verdi. XVIII əsrin ortalarından onlar Nadir şahdan aldıqları zərbələr nəticəsində müvəqqəti olaraq bir qədər geir çəkildilər. Ancaq böyük dövlət başçısı və yenilməz sərkərdə olan Nadir şaha qarşı sui-qəsd (qaynağı haradan idi?) vəziyyəti dəyişdi.

Rusiya imperiyası təzyiqlərini artırmağa başladı. Artıq XIX əsrin üçüncü onilliyində (1828-ci il) Rusiya Qacarlardan Azərbaycanın şimal hissəsini rəsmən qopara bilmişdi. Bundan sonra Azərbaycan dövlətçiliyinin tamamilə sonuna çıxmaq mərhələsi başlamışdır. XIX əsr boyu ermənilərə Qərb və Rusiyadan verilən dəstək sayəsində Azərbaycan dövlətçiliyinə və azərbaycanlılara qarşı “parçala, hökm sür” prinsipi tam gücü ilə işləmişdir. 1920-ci ildə Azərbaycan torpaqları üzərində erməni dövləti yaratmaqla həmin prosesin bir mərhələsini yekunlaşdırmışlar.

Əgər məsələyə XVIII əsrdən deyil, XVI əsrin başlanğıcından baxsaq, 1920-ci ilə qədər Cənubi Qafqazda erməni dövləti olmamışdır. Ermənilər hər bir xalq kimi müxtəlif yerlərdə yaşaya bilərlər. Lakin 1500-cü ildən 1920-ci ilə qədər (400 ildən bir qədər artıq) “Ermənistan” deyilən bir qurum olmamışdır (bu da şərtidir, çünki son min ildə belə bir dövlət mövcud deyildi).

Bundan başqa, mənbələrə baxsaq, görərik ki, son bir neçə yüzildə “Ermənistan” adlı dövlət siyasi xəritədə yalnız 1920-ci ildə peyda olmuşdur. Ən azından 1501-ci ildən 1920-ci ilə qədər hər hansı adda erməni dövlətinin olduğu haqqında fakt yoxdur. “İran” dövlət adı kimi 1925-ci ildə Pəhləvilər sayəsində xəritədə mövcud olmağa başlamışdır. Ona qədər Səfəvi dövləti, Əfşar İmperiyası və Qacar İmperiyası adları altında indiki İran ərazisində dövlətlər olmuşdur (təbii ki, bu, həmin ərazinin bütün tarixini deyil, yalnız 1500-cü ildən 1925-ci ilə qədər olan müddəti əhatə edir).

Ayrıca, Azərbaycan torpaqlarının hesabına yaradılmış qondarma “Ermənistanı”ı az qala bəşəriyyət qədər qədim olan və mütləq gerçəklik kimi qələmə verməyin müsbət siyasi anlamı yoxdur. Bu, son 100 ildə regionun aborigen xalqlarının iradəsinin əksinə olaraq dünyanın imperialist dairələrinin yaratdıqları süni geosiyasi mənzərəni əbədiləşdirmək cəhdindən başqa bir şey deyildir.

Maraqlıdır ki, bu mənzərəni İran yaratmamışdır, əskinə o da Osmanlı kimi Qərb və Rusiya imperiyalarının təcavüzlərinin qurbanıdır. Səfəvi dövləti məhz onların siyasəti, ideoloji və hərbi zərbələri nəticəsində süqut etdi. Ancaq buna baxmayaraq, İranda bir sıra dairələr indi uca səslə düşmən adlandırdıqları Qərbin imperialist dairələrinin və İran torpaqlarının bir qismini işğal edən Rusiyanın maraqlarına uyğun davranmağa çalışırlar.

Təbii ki, bizə görə, istənilən dövlət özünə strateji tərəfdaş seçməkdə tam sərbəstdir. Lakin bunu tarixi gerçəklikləri təhrif etməklə reallaşdırmaq bizcə, perspektivli deyildir. Eyni zamanda, bizlər din məsələsində eyni düşərgədəyik. Əsrlərdir ki, İslamı qaralamağa yönəlmiş siyasətlə üz-üzəyik. İslamofobiyanın getdikcə daha geniş yer aldığı bir dönəmdəyik. Bu prosdeslərə qarşı ədalət və hüquqla mübarizə aparmaq zamanıdır.

Bütün bunların fonunda ayrıca Ermənistanın necə yaradıldığını unutmamalıyıq. Bu dövlətin necə yaradıldığı prosesinə qısa da olsa nəzər salsaq, gerçəkliyi anlamış olarıq. Bir neçə imperialsit dairələrin sırf ermənipərəst mövqeyi sayəsində qədim Azərbaycan torpaqları üzərində erməni dövləti yaradılmışdır. Bu bağlılıqda Ulu öndər Heydər Əliyevin 1998-ci ilin dekabr ayında “İslam sivilizasiyası Qafqazda” mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxışı zamanı ifadə etdiyi aşağıdakı fikirlər gerçəkliyi dolğun əks etdirir. Heydər Əliyev demişdir: “İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda islam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır”.

Beləliklə, Qərbi Azərbaycan haradır?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# *Rusiya:* miqrasiya siyasəti, yoxsa siyasiləşmiş miqrasiya?

**Rusiya Federasiyasının miqrasiya qanunvericiliyinə dəyişikliklər qüvvəyə minib. Dəyişikliyə əsasən, ölkəyə xarici vətəndaşların girişi və qalma müddəti sərtləşdirlib. Yeniliklər arasında dövlət rüsumlarının artırılması, miqrantların işəgötürülməsi və ölkədən çıxarılması ilə bağlı prosedurların təkmilləşdirilməsi və elektron izləmə mexanizmlərinin tətbiqi yer alıb. Məqsəd miqrasiya axınını və əcnəbi vətəndaşların fəaliyyətini daha effektiv şəkildə nəzarət altında saxlamaqdır.**



Qeyd edək ki, dövlət rüsumlarının artırılması ilə bağlı yeni tənzimləmə, xüsusilə, əcnəbi vətəndaşların Rusiyada qalma və işləmə imkanlarını məhdudlaşdırır. Bu, miqrasiya prosesini iqtisadi baxımdan çətinləşdirir. Çünki yüksək rüsumlar mühacirlərin öz ölkələrinə qayıtmağa və ya başqa dövlətlərə getməyə məcbur edir.

Bundan başqa, yeni qanunvericilikdə vizalı xarici vətəndaşların qalma müddətinin yalnız vizanın etibarlılıq müddəti ilə, vizasız xarici vətəndaşlar üçün qalma müddətinin 90 günlə məhdudlaşdırılması yer alıb. Bu, daha sərt miqrasiya siyasətinin tərkib hissəsidir. Onların daha yaxşı izlənməsi və ölkədəki mövcudluqlarının nəzarət altında saxlanmasına xidmət edir və miqrantların hüquqlarını məhdudlaşdırır.

Miqrantların Rusiyada az müddət qalması ölkədəki işçi qüvvəsi bazarına mənfi təsir göstərəcək. Üstəlik, bu qaydaların tətbiqi Rusiya iqtisadiyyatına töhfə verən miqrantları bürokratik maneələrlə üzləşdirəcək.

Onu da qeyd edək ki, qanuna dəyişikliklər işəgötürənlərə vizasız miqrantların işə götürülməsi və işdən çıxarılması barədə Daxili İşlər Nazirliyinə məlumat verməyi məcburi edir. Bu tədbir işəgötürənlər üzərində əlavə yük yaradır, bəzi hallarda həddindən artıq bürokratik prosedurların yaranmasına səbəb olur. Həmçinin işəgötürənlər üçün daha çox vəzifə yaradır, iqtisadi fəaliyyətin sərbəstliyinə mənfi təsir göstərir.

“QR kodu”nun tətbiqi isə əcnəbilərin ölkəyə girişini və ölkədə qalma müddətini izləmək məqsədini güdür. Bəzən bu cür elektron izləmə sistemləri, şəxsi məlumatların gizliliyi və təhlükəsizliyi ilə bağlı suallar doğurur. Miqrantların şəxsi məlumatlarının toplanması və bu məlumatların mərkəzləşdirilmiş sistemdə saxlanması həm hüquqi, həm də etik baxımından doğru deyil. Üstəlik, texnologiyanın hər zaman mükəmməl işləməməsi nəzərə alındıqda, məlumatların səhv idarə edilməsi və səhv qərarların qəbul edilməsi risklərini artırır. Bu, bir tərəfdən ölkəyə girişin izlənməsi və nəzarət altına alınması məqsədini güdürsə, digər tərəfdən, əlavə vaxt və maliyyə sərfiyatına səbəb olur. Bu cür tələblər, əlavə xərclər miqrantların Rusiyaya gəlişini çətinləşdirəcək. Nəticədə ölkəyə xeyirdən çox ziyan vuracaq.

Qeyd edək ki, yeni qaydalara əsasən, fövqəladə vəziyyətlərdə (qohumun xəstəliyi və ya ölümü kimi) təcili giriş üçün ərizə təqdim etmək imkanı da verilir. Bu qayda müəyyən hallarda miqrantlara daha humanitar yanaşmanı təmin edir. Amma, bu, yalnız fövqəladə vəziyyətlərin düzgün təyin olunmasından asılıdır və belə vəziyyətlərdə sui-istifadə və ya saxta ərizələrin təqdim olunması ehtimalını artırır.

Miqrantların ölkədən çıxarılmasına dair səlahiyyətlərin polislərə verilməsi hüquqi sistemin balansını pozacağı ehtimalını yaradır. Çünki məhkəmə əvəzinə polisin verdiyi qərar insan hüquqları baxımından risklər yaradacaq və bu, xüsusilə qanunsuz miqrantlarla bağlı düzgün və ədalətli qərarların qəbul edilməməsi riskini artıracaq.

Bunların hamısı Rusiyada son illərdə millətçi və ekstremist qüvvələrin fəallaşması fonunda baş verir. Bu, xüsusilə islamafobiya və etnik ayrı-seçkiliklə bağlı riskləri artırır. Rusiyada artan millətçi təmayüllər, qeyri-rus və xüsusilə, müsəlmanlara qarşı bir neçə dəfə zorakılığa səbəb olub. Real vəziyyət müsəlmanların, o cümlədən azərbaycanlıların Rusiyada daha çox risklə üzləşməsinə, həmçinin psixoloji amillərin artmasına yol açır. Belə bir şəraitdə polisin səlahiyyətlərinin artırılması, cəmiyyətdəki müxtəlif etnik və dini qrupların, xüsusən də Qafqaz və Mərkəzi Asiyadan gələn miqrantların hüquqlarının pozulmasına səbəb olacaq.

Beləliklə, Rusiya Federasiyasının miqrasiya qanunvericiliyində edilən dəyişikliklər miqrasiya nəzarətini gücləndirməyi və miqrasiya axınını daha sərt şəkildə idarə etməyi məqsəd qoyur. Bununla belə, bu dəyişikliklərin praktikada necə tətbiq ediləcəyi, xüsusilə əcnəbi vətəndaşların hüquqları və iqtisadi fəaliyyətləri baxımından ciddi problemlər yarada bilər. Dövlətin bu siyasəti iqtisadi çətinliklərə səbəb olmaqla yanaşı, sosial ədalət məsələlərini gündəmə gətirəcək. Həmçinin, şəxsi məlumatların qorunması çətinləşəcək və insan hüquqlarına hörmət prinsipi pozulacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## Ekspert rəyi

**Cəsarət HÜSEYNZADƏ,**
**İnformasiya və Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri**



– İyunun 30-dan etibarən Rusiyaya səfər etmək istəyən əcnəbilər yeni və olduqca sərt prosedurlarla qarşılaşacaqlar. Rusiya Federasiyasının tətbiq etdiyi yeni qaydalara əsasən, ölkəyə gəlmək istəyən şəxs səfərindən azı 72 saat əvvəl müvafiq qurumlara elektron şəkildə məlumat verməlidir. Əgər səfərə icazə verilsə, ona xüsusi kod təqdim olunur və yalnız bu kod vasitəsilə ölkəyə girişə icazə verilir. Ümumilikdə, Rusiyanın son illər miqrasiya ilə bağlı ardıcıl şəkildə yeni və sərt qaydalar tətbiq etməsi onu göstərir ki, ölkə miqrasiya siyasətini yalnız dövlət təhlükəsizliyi ilə deyil, həm də siyasi və ideoloji məqsədlərlə əlaqələndirir. Qanunvericiliyə il ərzində bir neçə dəfə dəyişikliklər edilir, qaydalar daha da sərtləşdirilir, nəticədə miqrantların hüquqları məhdudlaşdırılır. Bu isə beynəlxalq hüququn prinsiplərinə ziddir.

Narahatedici məqamlardan biri budur ki, yeni qaydaların tətbiqi zamanı sistemsizlik və özbaşınalıq halları müşahidə olunur. Maraq doğuran digər məsələ isə viza almış şəxslərin 72 saatlıq əvvəlcədən xəbərdarlıq sisteminə tabe olmalarıdır. Əgər həmin kodu əldə etməsələr, sərhəddən geri qaytarıla bilərlər. Bu isə viza institutunun hüquqi etibarlılığına ciddi zərbədir.

Hazırda Rusiyanın aidiyyəti qurumlarında miqrasiya ilə bağlı daha sərt təkliflər müzakirə olunur. Bəzi mexanizmlər isə artıq absurda çevrilib. Rusiya dövlət universitetlərində təhsil alan əcnəbi tələbələr belə əlavə sənəd təqdim etməyə məcbur edilirlər. Eyni zamanda, xüsusi reyestr anlayışı tətbiq olunur. Bu reyestrlər isə çox zaman qərəzli və şəffaflıqdan uzaq şəkildə formalaşdırılır. Daha təhlükəli məqam odur ki, bəzən bir şəxsin, sadəcə, sosial şəbəkələrdə və ya vebsaytlarda Rusiya ilə bağlı kiçik bir fikir bildirməsi ölkəyə girişinə qadağa qoyulması üçün yetərli sayılır. Bu cür senzura xarakterli yanaşmalar ifadə azadlığını pozur, insan hüquqlarına açıq təhdid yaradır.

Yeni qaydalar fonunda, xüsusilə Azərbaycan vətəndaşlarına qarşı ayrı-seçkilik halları daha qabarıq şəkildə özünü göstərir. Son dövrlər Rusiyanın Azərbaycanla bağlı yürütdüyü qərəzli siyasət göz önündədir. Buna bariz nümunə kimi Yekaterinburq şəhərində Rusiya Federal Təhlükəsizlik Xidməti əməkdaşlarının azərbaycanlıların yaşadığı evlərə qəfil basqın təşkil etməsi bu siyasətin davamlı və ideoloji xarakter aldığını açıq şəkildə nümayiş etdirir. Həyata keçirilən əməliyyatlar zamanı bir neçə həmvətənimiz həlak olub, bir çoxu ağır bədən xəsarətləri alıb, digərləri isə zorakılıqla saxlanılıblar. Bu tədbirlər heç bir məhkəmə qərarı və hüquqi əsas olmadan, tamamilə qanunsuz şəkildə həyata keçirilib.

Bütün bu proseslər Rusiyanın qeyri-rus xalqlara, xüsusilə türk-müsəlman mənşəli icmalara qarşı sistemli və ideoloji əsaslara söykənən repressiv siyasət apardığını nümayiş etdirir. Rusiyada miqrasiya siyasəti artıq təhlükəsizlik məsələsi deyil, siyasi və sosial təzyiq alətinə çevrilib. Azərbaycan vətəndaşları ilə yanaşı, Mərkəzi Asiya respublikalarından olan miqrantlara qarşı da oxşar diskriminasiya halları geniş yayılıb. Bir çox hallarda insanların, sadəcə, Rusiya siyasətini tənqid etməsi, internetdə bir cümlə yazması onların “qara siyahıya” düşməsi və ölkəyə buraxılmaması ilə nəticələnir.

Bu hallar beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilməli və müvafiq hüquqi və siyasi cavab tədbirləri görülməlidir. Azərbaycan ictimaiyyəti, vətəndaş cəmiyyəti və diaspor təşkilatları bu məsələdə daha fəal mövqe tutmalı, həmvətənlərimizin hüquqlarının qorunması üçün beynəlxalq instansiyalar qarşısında məsələ qaldırmalıdırlar.

# Ankarada AMEA-nın yubiley təntənəsi

**Ankarada Türkiyə Elmlər Akademiyasının (TÜBA) təşəbbüsü və Ankara Universitetinin dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi münasibəti ilə təntənəli tədbir keçirilib.**






Açılış mərasimində Ankara Universitetinin rektoru, professor Necdet Univar rəhbərlik etdiyi təhsil qurumunda vaxtı ilə Ümummilli lider Heydər Əliyevə fəxri doktor adının verildiyini xatırladıb. “Elm və təhsil sahələrində əməkdaşlığımız “Bir millət, iki dövlət” kəlamı prizmasından uğurla davam edir. Liderlərimiz İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın uğurlu siyasətləri yolumuza işıq tutur”, - deyən N.Univar, Azərbaycanla uğurlu əməkdaşlığın bir nümunəsi kimi ikili diplom proqramını da göstərib.

Sonra AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli “Azərbaycan Milli Elmlər Akademiyası: 80 il elmin keşiyində” mövzusunda məruzə ilə şıxış edib. AMEA rəhbəri çıxışında bildirib ki, akademiya yarandığı vaxtdan etibarən mühüm elmi nailiyyətlərlə zəngin yol keçərək, respublikamızın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınıb. “AMEA-nın tarixində ilk dəfədir ki, akademiyanın yubileyi ölkədən kənarda, qardaş Türkiyədə qeyd olunur”, – deyə akademik vurğulayıb.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminə diqqət və qayğısından danışan akademik İsa Həbibbəyli, “Azərbaycan elminin intibahı dövrü məhz Ulu öndərin adı və fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Heydər Əliyevin siyasəti həm də Azərbaycan-Türkiyə qardaşlığına xidmət edib”, - deyə bildirib. O, tədbirin Türkiyənin elm və ali təhsil qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsinə, yeni birgə layihələrin formalaşmasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Türkiyə Elmlər Akademiyasının prezidenti, professor Müzəffər Şəkər çıxışında Türkiyə-Azərbaycanın sarsılmaz birliyinə diqqət çəkərək son illərdə TÜBA ilə AMEA arasında elmi əməkdaşlığın daha da genişləndirildiyini bildirib.

TÜRKSOY-un Baş katibi Sultan Raev və başqaları çıxış edərək iki ölkə arasında bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də əməkdaşlığın əhəmiyyətindən danışıblar.

Tədbirdə AMEA-nın prezidentinin “TÜBA-nın fəxri üzvü” seçildiyi elan olunub. Fəxri üzvlük diplomunu akademik İsa Həbibbəyliyə TÜBA-nın prezidenti, professor Müzəffər Şəkər təqdim edib.

Sonra tədbir panel müzakirələri ilə davam edib.

*XQ*

# Parlament nümayəndə heyəti Moskvada keçiriləcək iclasda iştirak etməyəcək

**Milli Məclis sədrinin birinci müavini Əli Əhmədovun başçılığı ilə parlament nümayəndə heyəti Rusiyanın Moskva şəhərində keçirilməsi nəzərdə tutulan Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası əməkdaşlıq komissiyasının 23-cü iclasında iştirak etməyəcək.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Buna səbəb Rusiya Federasiyasının Yekaterinburq şəhərində bu ölkənin hüquq-mühafizə orqanları tərəfindən azərbaycanlılara qarşı etnik zəmində nümayişkaranə, məqsədli və mühakiməsiz şəkildə qətl və zorakılıq əməllərinin həyata keçirilməsi və son dövrdə bu kimi halların mütəmadi xarakter daşımasıdır.

Yuxarıda deyilənləri nəzərə alaraq, Azərbaycan parlament nümayəndə heyətinin adıçəkilən səfəri ləğv olunub.

*XQ*

# Fövqəladə hallar nazirinin Şamaxıda vətəndaş qəbulu



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov iyunun 30-da Şamaxı Olimpiya Mərkəzinin inzibati binasında Şamaxı və Qobustan rayonları sakinlərinin müraciətlərini dinləyib.**

Fövqəladə Hallar Nazirliyinin İctimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, nazir əvvəlcə xalqımızın Ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Şamaxı və Qobustan rayonları sakinlərinin nazirə ünvanlanan müraciətlərinin əksəriyyəti yerindəcə həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə minnətdarlıq ediblər.

*XQ*

## Qanuna dəyişiklik qüvvəyə minir

# “Qohum evliliyi” tarixdə qaldı

*Belə “ailə calağı”nın barı sağalmaz xəstəliklər olub*

**Ötən ilin iyun ayında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclasında komitə sədri Hicran Hüseynova gündəlikdə olan 4 məsələyə 2 qanun layihəsinin də daxil edildiyini bildirimişdi. Qeyd edilmişdi ki, Ailə, eləcə də Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihəsi yetkinlik yaşına çatmayanların erkən evliliyi və qohum nikahlarla bağlı ölkədə mövcud olan ciddi problemlərin qarşısının alınması məqsədilə hazırlanıb.**

Müzakirələrdə bildirilmişdi ki, qanun layihəsində aralarında nikahın bağlanması yol verilməyən subyektlər dairəsinin genişləndirilməsinə dair təkliflər yer alıb. Ailə Məcəlləsinin 12-ci maddəsində (Nikahın bağlanmasına mane olan hallar) yaxın qohumlarla yanaşı, qardaşların və bacıların ümumi bioloji baba və nənəsi olan uşaqlar, o cümlədən bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, eləcə də bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahın bağlanmasına yol verilməyən yeni normanın təsbit edilməsi müzakirəyə çıxarılmışdı. Çıxış edənlər təklif olunan dəyişikliklərin zəruri olduğunu bildirmişdilər.

Bu gündən qanuna edilən dəyişiklik qüvvəyə minir. Artıq “yaxşını yada vermə – heyifdir, pisi də yada vermə – ayıbdır” köhnəlmiş əxlaqı tarixə gömülür. Azərbaycanda əmi, xala, bibi və dayı uşaqlarının evliliyinə qoyulan qadağa həyata vəsiqə alıb. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Ailə Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb. Dəyişikliklə nikahın bağlanmasına mane olan halların sayı artırılıb. Belə ki, artıq qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları, eyni zamanda, bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu nikaha daxil ola bilməz.

**Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun baş həkimi, tibb üzrə fəlsəfə doktoru Nurlana Əliyeva qanuna edilən dəyişikliyin təsdiqinə münasibətini belə ifadə etdi:**



– Bu vacib məsələ çoxdan qoyulmalı və həyata keçirilməli idi. Siz görəsiniz ki, bu müalicə müəssisəsinə nə qədər məhz qohum nikah qurbanları olan uşaqlar gətirirlər. O körpələrin nə günahı var ki, dünyaya göz açandan həkimlərin ümidinə yaşayırlar. Müvafiq qanun dəyişikliyinin təsdiq olunması, qohum nikahlara qoyulan qadağa gələcəyin sağlam nəsli deməkdir.

Bu məsələdə valideynlərin səhlənkarlığını da qeyd etmək lazımdır. Uşaq 2 yaşına çatır, hələ ayaqları üstündə dura bilmir.



Ata-ana evdəki yaşlıların sözü ilə həkimə aparmağı artıq hesab edirlər. “Filankəsin uşağı 4 yaşında yeriyib”– fikrinə söykənirlər. Uşaq 4–5–6 yaşında olanda anlayırlar ki, onlar müalicəyə 5–6 il gecikiblər.

Qohum evliliklər zamanı yaranan bəzi genetik xəstəlikləri uşaq ana bətnində olarkən aşkarlamaq mümkündür. Bunu ginekoloqlar və genetiklər daha yaxşı bilirlər. Məsələn, akondoplazia (cırtdan boyluluq) xəstəliyi autosomal dominant xəstəlikdir. Hamiləliyin bəlli bir həftəsində perinatoloq ultrasəs müayinəsi ilə sümüklərin qısalığından şübhələnib xəstəliyi genetik diaqnozla təsdiqləyə bilər.

Skrininq testi ilə hamiləliyin 11–14-cü həftəsi arasında hər hansı patologiya aşkarlanırsa, ya da ananın yaşı 35-dən çoxdursa, bu zaman Daun, Edwards, Patau sindromu üçün risklər olur. Perinatal diaqnostikada dölün xəstə olduğu aşkarlananda tibbi əsas və valideynlərin razılığı ilə hamiləlik yarımçıq dayandırılır.

Azərbaycanda genetiklər tərəfindən diaqnozu qoyula bilməyən irsi xəstəlik yoxdur. Müayinələrlə növündən, mutasiyanın şəklindən asılı olmayaraq, patologiyanın səbəbi aydınlaşdırılır. Amma hər zaman klinik genetik araşdırma üçün ortada səbəb, patologiya və ya xəstə uşaq olmalıdır. İnsanda hər hansı problem yoxdursa, genetikasını araşdırmaq doğru deyil. Dünyanın hər yerində belədir ki, genetikası yoxlanılacaq insanların əvvəldən yazılı razılığı alınır. Nəticələr bəlli olandan sonra genetiklər həmin şəxslərə nəticəni izah edirlər.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova bildirdi:**

– Qohum və erkən evlilikdə narahatedici məqam Azərbaycanda xəstə doğulan uşaqların artan statistikasıdır. Əlilliyi rəsmiləşdirilənlərin sayı 70 minə yaxındır. Qohum evliliyinin ən ağır fəsadlarından biri belə nikahlardan doğulan uşaqların sağlamlıq vəziyyətidir. Mütəxəssislər bildirirlər ki, əgər yad insanların evliliyi zamanı onların uşaqlarının qüsurlu olması riski 2–4 faizdirsə, qohum evliliklərdə bu göstərici 4–8 faizdir. Yəni, bu risk 2 dəfə artır.

Genetik xəstəliklərlə doğulan uşaqların 8,4 faizi bu ailələrin payına düşür. Əgər dünyada əngəlli doğulan uşaqlar 1 faizdirsə, qohum evlilklərində 9 faizdir. Bu ailələrdə ölü və yarımçıq doğuşların sayı da digər evliliklərə nisbətən 2 dəfə çoxdur. Qohum evliliklərində ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ-sinir, ürək-damar və şəkər xəstəlikləri, ağıldankəmlik kimi anormallıqlardır. Buna görə də qanuna edilən dəyişiklikləri zəruri hesab edirəm.

**Tibb elmləri doktoru, professor Hicran Bağırova isə dedi:**



– Qanuna dəyişikliyin təsdiqi gələcəyimiz olan uşaqların sağlam həyatına vəsilədir. Hər insanın DNK-nı formalaşdıran 23 cüt xromosom və funksiyalarını müəyyənləşdirən, kodlaşdıran genlər var. Həmin genlər bizim bütün həyat tərzimizin divarlarını hörür. Qohumla evlənəndə zərərli genlərin qarşılaşma ehtimalı yüksək olduğundan doğulan uşaqların müəyyən xəstəliklərə tutulması riski yüksək olur. Çoxillik təcrübəmə əsasən əminliklə deyə bilərəm ki, qohum evliliklər zamanı yaranan bəzi genetik xəstəlikləri uşaq ana bətnində olarkən aşkarlamaq mümkündür.

Genetik xəstəliklərin bəziləri isə uşaqlıq, yaxud daha gec, gənclik dövründə aşkarlanır. Hətta 40 yaşlarında da özünü büruzə verən genetik xəstəlik mövcuddur. Qanuna dəyişiklik edilməsi gələcəkdə doğulan uşaqların sağlam olmasına zəmanət verir. Sağlam uşaq şansları normal olanda problem yaranmır. Bütün bunlardan sonra gənclər, eləcə də valideynlər bir şeyi bilməlidirlər ki, ailəyə, cəmiyyətə sağlam uşaq bəxş etməyin ən düzgün yolu qohumlarla, eyni zamanda, erkən nikaha girməməkdir.

**“Leyla” Klinikasının aparıcı mütəxəssisi, pediatr Sahib Cəfərov da qanuna edilən dəyişikliyin problemin həllinə kömək edəcəyini söylədi:**



– Statistikaya görə, respublikamızda qeydə alınan nikahların təxminən 60 faizi qohumlar arasındadır. İrsi xəstəliklərin yayılması 15 faizdir. Bunlar arasında ən çox yayılanı talassemiyadır. Bu xəstəliyin daşıyıcıları arasında qohumla evlənmə faizi yüksəkdir. Onların isə dünyaya xəstə uşaq gətirmə ehtimalı 25 faizdir. Uşaqların ana bətnində ölməsi, hamiləliyin erkən bitməsi, ölü doğulma, ürək qüsuru, uşaqların aşağı çəki ilə dünyaya gəlməsi faktlarına ən çox qohum evliliklərində rast gəlinir. İnsan bu zaman bəlli bir genetik yüklə, mutasiya ilə doğulur. Xəstəliyin irsiyyət tipinə görə uşaq mütləq ya xəstə, ya da daşıyıcı olur. Bəzən elə xəstə gətirirlər ki, uşağın yalvarış dolu, imdad diləyən baxışlarının qarşısında utanırsan. Bilirsən ki, artıq müalicənin köməyi olmayacaq.

Uzun illərin təcrübəsinə əsaslanıb valideynlərə demək istəyirəm ki, qohumluq bağlarını möhkəmlətmək və ya nəyinsə naminə balalarınızı oda atmayın. Qohum və erkən evliliyi unudun. Xəstəliklə uzunmüddətli mübarizə insanın ömrünü həm mənəvi, həm də fiziki cəhətdən qısaldır. Əminəm ki, qanuna edilən dəyişikliyin təsdiqi gələcəkdə sağlam nəsil yaranmasına təkan olacaq.

**Həkim-genetik Mircavid Müslümov da qanuna dəyişikliyin günün tələbindən irəli gəldiyini vurğuladı:**



– Hazırda dünyada 8 mindən çox genetik xəstəlik müəyyən edilib. Statistikaya əsasən yeni doğulanların təxminən 2 faizi irsi xəstəliklər və ciddi inkişaf qüsurları ilə dünyaya gəlir. Genetik xəstəliklər, ya ana bətnində döldə öz-özünə və ya irsi olaraq valideynlərdən genetik kodlarda baş verən dəyişikliyin bizlərə ötürülməsi ilə əmələ gəlir. Normal halda hər kəs düşünür ki, nəslimizdə genetik xəstəlik yoxdur, buna görə də uşağımızda problem olmaz. Amma bu, tamamilə yanlış fikirdir. İstər qohum, istərsə də yad evliliklərdə genetik xəstə uşaq doğulması ehtimalı var.

Qohumla qurulan ailələrdə yad evliliklərə nisbətən qüsurlu uşağın doğulma ehtimalı iki dəfə çoxdur. Təbii ki, yadlarla qurulan evliliklərin daha çox olması arzuolunandır ki, gizli keçən xəstəliklər özünü büruzə verməsin və xəstə uşaqlar doğulmasın. Dünyada ailə quranların 20 faizi qohumlardır. Xəstə doğulan uşaqların 8,4 faizi bu ailələrin payına düşür. Qohum evliliklərində ən çox rast gəldiyimiz qan, sümük-əzələ, ürək-damar sistemi və metobolik xəstəliklərdir. Araşdırmalara görə, daun sindromu hər 800 doğuşdan bir olursa, tək gen xəstəlikləri hər 100 doğulanın birində üzə çıxır.

Qohum evliliklərə hüquqi baxımdan son qoyulması cəmiyyətə sağlam uşaq verməyin düzgün yoludur.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# KOB-lar özəl bölmənin özəyidir

## *Sahibkarlığın ÜDM-də payı 80, məşğulluqda isə 70 faizi keçib*

**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına görə, Azərbaycanda fəaliyyətdə olan sahibkarların 99,7 faizini mikro, kiçik və orta biznes (KOB) subyektləri təşkil edir. KOB subyektləri əsasən ticarət, nəqliyyat və anbar təsərrüfatı, turizm, ictimai iaşə, sənaye, daşınmaz əmlak, təhsil və digər sahələrdə fəaliyyət göstərirlər.**



Məlumatda daha sonra deyilir ki, ölkə sahibkarları, o cümlədən KOB subyektləri dövlətin geniş dəstək tədbirləri ilə əhatə olunub. KOB-ların inkişafına yönəlmiş ünvanlı dəstək vasitələri iqtisadiyyatın müxtəlif sahələrində yeni KOB subyektlərinin yaranmasını və mövcud KOB-ların fəaliyyətinin genişlənməsini, mikro sahibkarların kiçik, kiçik sahibkarların orta və iri biznes subyektlərinə çevrilməsini stimullaşdırır.

Xatırladaq ki, Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli qərarı ilə təsdiqlənən "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin yeni bölgüsü meyarları"na əsasən, ölkəmizdə mikro sahibkar işçilərinin sayı 10-dək, illik gəliri 200 min manatadək olan biznes subyektləridir. İşçilərinin sayı 11– 50 arasında, illik gəliri 200 min – 3 milyon manat arasında olan sahibkar kiçik sahibkar hesab olunur. Orta sahibkar işçilərinin sayı 51– 250 arasında, illik gəliri isə 3 – 30 milyon manat arasında olan sahibkardır.

Qeyd edək ki, son illərdə ölkədə həyata keçirilən genişmiqyaslı islahatlar çərçivəsində sahibkarlığın inkişafı milli iqtisadi siyasətin əsas prioritet istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada biznes mühitinin təkmilləşdirilməsi, investisiya cəlbediciliyinin artırılması və özəl sektorun stimullaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilib. Bu proses həm iqtisadiyyatın dayanıqlığının təmin olunmasını, həm də məşğulluğun və sosial rifahın yüksəldilməsini şərtləndirib.

Azərbaycanda sahibkarlıq subyektlərinin rolu son illərdə nəzərəçarpacaq dərəcədə yüksəlib. Xüsusilə, qeyri-neft sektorunun inkişaf etdirilməsi strategiyasının bir hissəsi kimi KOB subyektlərinə dəstək ön plana çəkilib. Dövlətin reallaşdırdığı islahatlar nəticəsində sahibkarlıq fəaliyyəti daha da əlçatan və səmərəli olub.

Sahibkarlığın hüquqi bazasının gücləndirilməsi istiqamətində də mühüm addımlar atılıb. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun, vergi inzibatçılığının sadələşdirilməsi, lisenziyaların sayının azaldılması və elektron icazə mexanizmlərinin tətbiqi ilə biznes mühitinin liberallaşdırılması sürətlənib. Eyni zamanda, KOBİA vasitəsilə sahibkarlara bir pəncərə prinsipi əsasında xidmətlər təqdim olunur. Bu qurum KOB-ların hüquqlarını müdafiə edir, təlim və məsləhət dəstəyi verir, yerli və beynəlxalq bazarlara çıxış imkanlarını artırır.

Sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondu vasitəsilə güzəştli kreditlər ayrılır. Fond 3 faizlə uzunmüddətli kreditlər təqdim edərək kənd təsərrüfatı, sənaye və xidmət sahələrində fəaliyyət göstərən sahibkarlara mühüm maliyyə dəstəyi göstərir. Bundan başqa, "İnvestisiya təşviqi sənədi" almış sahibkarlar bir çox vergi və gömrük güzəştlərindən istifadə edirlər. Bu təşviq mexanizmi həm yerli, həm də xarici investorların Azərbaycanda fəaliyyət göstərməsinə marağı artırır.

Sahibkarlıq fəaliyyətinin regionlarda genişləndirilməsi sosial-iqtisadi bərabərliyin təmin olunmasına və bölgələrin potensialından daha səmərəli istifadə olunmasına xidmət edir. Bu məqsədlə aqroparklar, sənaye zonaları və biznes inkubatorları yaradılmışdır. Regionlarda fəaliyyət göstərən sahibkarlara isə daha yüksək güzəştlər və texniki dəstək imkanları təqdim olunur. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə sahibkarlığın təşviqi istiqamətində dövlət tərəfindən böyük layihələr həyata keçirilir. "Böyük Qayıdış" proqramı çərçivəsində biznes qurmaq istəyənlər üçün xüsusi dəstək mexanizmləri və investisiya imkanları yaradılır.

Azərbaycanda sahibkarlığın inkişafı yalnız iqtisadi artımın deyil, həm də sosial rifahın, dayanıqlı məşğulluğun və regional inkişafın təminatçısıdır. Dövlətin bu sahəyə verdiyi strateji önəm və göstərdiyi davamlı dəstək nəticəsində ölkədə sağlam və rəqabətqabiliyyətli biznes mühiti formalaşır. Gələcəkdə sahibkarların təşəbbüslərinin daha da stimullaşdırılması, innovasiyaların təşviqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi sayəsində Azərbaycan iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına əhəmiyyətli töhfələr veriləcək.

Bütün bunlarla yanaşı, sahibkarlığın inkişafını şərtləndirən vergi qanunvericiliyi müasirləşdirilib. Özəl sektorun fəaliyyətini daha da gücləndirilmək məqsədilə şəffaflıq və hesabatlılığın artırılması, rəqəmsallaşmanın geniş vüsət alması, rəqabət mühitinin inkişafının təmin olunması, əlverişli biznes mühitinin inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən vergi və gömrük islahatları kimi məsələlər də hər zaman diqqətdə saxlanılıb.

Beləliklə, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ÜDM-də payı 81 faizi, məşğulluqda payı isə 70 faizi keçib. Özəl bölməyə dövlət dəstəyinin daim diqqətdə saxlanılması qeyri-neft sektorunda müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradıb.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyat şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

**Mediatur**

# Jurnalistlər dağ-mədən sənayesi müəssisələrində

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı və Medianın İnkişafı Agentliyinin dəstəyi ilə "Media nümayəndələrinin dağ-mədən sahəsində məlumatlılığının artırılması" layihəsi çərçivəsində jurnalistlər üçün növbəti təlim və mediatur təşkil olunub.**

Səhmdar cəmiyyətin 2024–2026-cı illər üzrə Kommunikasiya Strategiyasına uyğun olaraq, Azərbaycan milli mətbuatının 150 illiyinə həsr olunmuş mediaturda televiziya, qəzet və onlayn mediada çalışan 30-dan çox jurnalist iştirak edib.



İlk gün Gəncə şəhərində dövlət şirkətinin mütəxəssisləri tərəfindən geoloji kəşfiyyat, hasilat, emal, qiymətli metalın satışının təşkili, əməyin mühafizəsi, eləcə də ətraf mühit, kommunikasiya, korporativ sosial məsuliyyət mövzularında nəzəri təlimlər keçirilib. İnteraktiv formatda təşkil edilən təlimlər zamanı qeyd edilən istiqamətlər ətrafında müzakirələr aparılıb, media nümayəndələrinin sualları cavablandırılıb.

Növbəti gün isə iştirakçılar əvvəlcə Gəncə şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü, "AzerGold" QSC-nin dəstəyi, "Birgə və Sağlam" İctimai Birliyinin təşkilatçılığı ilə fəaliyyət göstərən Gəncə Autizm Mərkəzində yaradılan şəraitlə tanış olublar. Jurnalistlər autizm spektr pozuntulu uşaqların fərdi inkişafı üçün göstərilən reabilitasiya prosesini əyani şəkildə izləyiblər. Daha sonra Daşkəsən rayonu, Quşçu qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü, "AzerGold" QSC-nin dəstəyi ilə inşa olunmuş Səlmixan İsgəndərov adına tam orta məktəbin modul tipli binası, həmçinin Quşçu kənd mərkəzində istifadəyə verilmiş kitab köşkü ilə tanış olublar.

Səfər "AzerGold" QSC-nin Daşkəsən rayonu, Çovdar kəndində yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi (ÇİRES) və "Çovdar" qızıl mədəninə təşkil olunmuş mediaturla davam edib. Jurnalistlər "Çovdar" qızıl mədənində ekoloji norma və tələblər, müasir texnologiyalar əsasında aparılan istismar işləri, ÇİRES-də qiymətli metalların emalı, tullantıların idarəolunması prosesi ilə yerində tanış olublar. Həmçinin layihə çərçivəsində jurnalistlərin dağ-mədən sahəsinə dair məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə təlimdən öncə və sonra test tapşırıqları icra edilib.

Sonda media nümayəndələrinə sertifikat və xatirə hədiyyələri təqdim olunub.

# Sığorta bazarı 12 faiz böyüyüb

**Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2025-ci ilin ilk 5 ayında ölkədə fəaliyyət göstərən 16 sığorta şirkəti tərəfindən, ümumilikdə, 719 milyon 353 min manat sığorta haqqı (ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz və ya 75 milyon 599 min manat çox) yığılıb.**



Sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 15 faiz çoxalaraq 314 milyon 788 min manata yüksəlib. Ötən ilin eyni dövründə sığorta yığımlarının həcmi 643 milyon 754 min manat, sığorta ödənişlərinin həcmi isə 274 milyon 241 min manat olub.

# Azərbaycan – FAO əməkdaşlığı ərzaq təhlükəsizliyi tərəfdaşlığına çevrilir

**İtaliyada işgüzar səfərdə olan kənd təsərrüfatı naziri Məcnun Məmmədovun BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyu ilə görüşü keçirilib. FAO-nun Romadakı mənzil-qərargahında reallaşan görüşdə təşkilatla birgə tərəfdaşlıq çərçivəsində gerçəkləşdirilən layihələrin əhəmiyyəti vurğulanıb, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.**



M.Məmmədov COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunaraq iqlim dəyişikliyinin kənd təsərrüfatı sahəsinə təsirinin minimuma endirilməsi məqsədilə həyata keçirilən layihələrdən söz açıb, eyni zamanda, respublikada aqrar sahənin inkişafının prioritet olduğunu vurğulayıb, kənd təsərrüfatının inkişafına dövlət dəstəyi və bu istiqamətdə aparılan islahatları diqqətə çatdırıb.

Qu Donqyu Azərbaycanın FAO-nun önəmli tərəfdaşlarından biri kimi diqqətdə saxlandığını, ölkəmizlə təşkilat arasında yüksək səviyyəli əlaqələrin qurulmasından məmnunluğunu ifadə edib. FAO-nun Baş direktoru Azərbaycanda kənd yerlərinin rəqəmsal inkişafı üçün böyük potensialın olduğunu deyib, əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər FAO – Azərbaycan Tərəfdaşlıq Proqramı çərçivəsində həyata keçirilən layihələr və əldə olunan nəticələr ətrafında fikir mübadiləsi aparıb, Azərbaycanın FAO-da yüksək səviyyədə təmsil olunduğunu, yüksək seçkili orqanların işində fəal iştirak etdiyini bildirib, çoxtərəfli tərəfdaşlıq platformalarında bir sıra beynəlxalq tədbirlərin keçirilməsi perspektivlərini müzakirə ediblər.

Yeri gəlmişkən, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq təşkilatlarla qurduğu əməkdaşlıq çərçivəsində FAO ilə də sıx tərəfdaşlıq əlaqələri formalaşdırıb. FAO-nun əsas missiyası dünyada aclığın aradan qaldırılması, davamlı kənd təsərrüfatı siyasətlərinin təşviqi və ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsidir. Bu baxımdan, Azərbaycan və FAO arasında əlaqələr həm milli prioritetlərə, həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) töhfə verir.

## Əməkdaşlığın əsas istiqamətləri

Azərbaycan ilə FAO arasındakı əməkdaşlıq çoxşaxəlidir və bir neçə əsas istiqaməti – kənd təsərrüfatının modernləşdirilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, torpaq və su ehtiyatlarının səmərəli istifadəsi, iqlim dəyişikliyinə qarşı dayanıqlığın artırılması və aqrar sahədə institusional potensialın inkişafını əhatə edir. Bu istiqamətlər üzrə həyata keçirilən layihələr kənd təsərrüfatında bilik və texnologiyaların tətbiqinə, rəqəmsallaşmaya və innovasiyalara təkan verir.

Azərbaycan 1995-ci ildə FAO-ya üzv olub. Əməkdaşlıq uzun illər ərzində təkcə texniki dəstək formatında deyil, həm də birgə layihələrin həyata keçirilməsi ilə diqqət çəkib. 2015-ci ildə FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin açılması isə bu əməkdaşlığı yeni mərhələyə yüksəldib. Həmin ofis Qafqaz və Mərkəzi Asiya regionu üçün bir növ regional mərkəz funksiyası rolunu oynayıb.

Azərbaycan və FAO arasında ötən illər ərzində müxtəlif sahələri əhatə edən bir sıra layihələr həyata keçirilib. Onların sırasında "Dayanıqlı torpaq idarəçiliyi", "Heyvandarlığın inkişafı və xəstəliklərin idarə olunması", "Meyvəçilik və bağçılıq sektorunun gücləndirilməsi", "Aqroekoloji sistemlərin inkişafı", "Qadınların kənd təsərrüfatında rolu" kimi proqramlar ekspertlər tərəfindən yüksək dəyərləndirilib.

Bununla yanaşı, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı dayanıqlılığın artırılması üzrə FAO ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın kənd təsərrüfatı sektorunda risklərin qiymətləndirilməsi və qabaqlayıcı tədbirlərin planlaşdırılması sahəsində də mühüm addımlar atılıb.

## Tərəfdaşlığın hədəfləri

2016-cı ildə FAO – Azərbaycan Tərəfdaşlıq Proqramı imzalanıb. Bu proqram vasitəsilə Azərbaycan yalnız texniki yardım alıcı ölkə deyil, eyni zamanda, donor ölkə statusu da qazanıb. Adıçəkilən tərəfdaşlıq proqramı çərçivəsində respublikamız digər inkişaf etməkdə olan ölkələrin aqrar sektoruna texniki və maliyyə dəstəyi göstərib. Bu, beynəlxalq miqyasda Azərbaycanın artan nüfuzunun göstəricisi kimi yüksək qiymətləndirilib. Proqram çərçivəsində Tacikistan, Qırğızıstan, Özbəkistan, Sudan və digər ölkələrdə bir sıra texniki layihələr həyata keçirilib. Bu, həm də Azərbaycanın regional və qlobal ərzaq təhlükəsizliyinə töhfə vermək əzmini və imkanlarını nümayiş etdirib.

Son illərdə FAO-nun baş direktorları və digər yüksək vəzifəli nümayəndələrinin Azərbaycana səfərləri bu əməkdaşlığın strateji xarakter daşıdığını göstərir. 2023-cü ildə FAO-nun baş direktoru Kyu Donqyu Azərbaycanda rəsmi səfərdə olmuş və dövlət başçısı ilə görüşüb. Görüş zamanı Azərbaycanın kənd təsərrüfatının rəqəmsallaşdırılması, su ehtiyatlarının idarə edilməsi və iqlim dəyişikliklərinə uyğunlaşma sahəsində FAO ilə əməkdaşlığın daha da genişləndirilməsi müzakirə olunub.

Azərbaycan və FAO arasında qurulmuş əməkdaşlıq modeli uğurlu tərəfdaşlığın bariz nümunəsidir. Bu münasibətlər sayəsində ölkəmiz kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi, ərzaq təhlükəsizliyinin təmin olunması, beynəlxalq texniki dəstək və ekspertizadan yararlanmaqla daha dayanıqlı və məhsuldar aqrar sektor qurmağa çalışır.

Gələcəkdə bu əməkdaşlığın rəqəmsal kənd təsərrüfatı, süni intellektin tətbiqi, bioloji müxtəlifliyin qorunması və aqroturizmin inkişafı sahələrində də genişlənəcəyi gözlənilir. Bu isə Azərbaycanın kənd təsərrüfatı siyasətinin beynəlxalq trendlərlə uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# AYİB-in Azərbaycanda su layihəsi

## *Qurum sahənin səmərəli fəaliyyət proqramını hazırlayır*

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və onun tabeliyindəki təşkilatlar üçün Maliyyə və Əməliyyat Səmərəliliyinin Artırılması Proqramının başladıldığını elan edib.**




AYİB-in yaydığı məlumata görə, bu, Avropa İttifaqı (Aİ) tərəfindən birgə maliyyələşdirilən və "Aqwadem Consulting" şirkətinin dəstəyi ilə həyata keçirilən texniki yardım layihəsidir. Təşəbbüsün koordinatoru, AYİB-in infrastruktur sektoru və iqtisadi idarəetmə islahatları üzrə II səviyyəli baş məsləhətçisi Yelena Çirkoviç qeyd edib ki, proqramın məqsədi ölkənin su sektorunda idarəetmənin gücləndirilməsi, əməliyyat və maliyyə dayanıqlığının artırılması, həmçinin satınalma sahəsi də daxil olmaqla ekoloji və iqtisadi cəhətdən səmərəli təcrübələrin tətbiqidir.

AYİB Gəncənin su ehtiyatlarının idarəetmə sistemlərinin modernləşdirilməsinin maliyyələşdirilməsi üçün 35 milyon avro ayırıb, bununla bağlı kredit sazişi 2025-ci ilin yanvarında imzalanıb. Layihə həmçinin Aİ-nin ayırdığı 5 milyon avroya yaxın qrant hesabına da maliyyələşdiriləcək.

Ayrılmış vəsait su kəməri, kanalizasiya kollektorları, su anbarları, yağış sularını idarəetmə sistemləri, həmçinin digər köməkçi infrastrukturun tikintisinə yönəldilib. Bu tədbirlər əhalinin bütün növ su xidmətlərinə çıxışını yaxşılaşdıracaq və eyni zamanda şəhərin iqlim dəyişikliyinin nəticələrinə qarşı dayanıqlığını artıracaq.

Gəncə 2020-ci ildə AYİB-in "Yaşıl şəhərlər" proqramına qoşulub. Su infrastrukturu üzrə cari layihə bankın bu şəhərdə üçüncü böyük investisiya layihəsi olub. 2022-ci ildə AYİB tullantıların idarəetmə sisteminin modernləşdirilməsi üçün maliyyələşdirməni təmin edib, daha sonra isə şəhərin küçə işıqlandırma infrastrukturunun təkmilləşdirilməsini dəstəkləyib.

Bu il aprelin 30-na olan məlumata görə, AYİB-in Azərbaycanda ümumi kredit portfeli 1,004 milyard avroya çatıb. Ümumilikdə bank ölkəyə 3,778 milyard avrodan çox investisiya qoyub və iqtisadiyyatın müxtəlif sektorlarında 197 layihə həyata keçirib. Bu məbləğdən ödənilən vəsait 3,089 milyard avro, ümumi kumulyativ ödənişlər və verilmiş zəmanətlərin həcmi isə 3,41 milyard avro təşkil edib.

Xatırladaq ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq ölkəmizin iqtisadi inkişaf strategiyasının mühüm komponentlərindən birinə çevrildi. Bu qurumlardan biri də AYİB oldu.

1991-ci ildə təsis olunan bu bank keçid iqtisadiyyatları üçün bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan dayanıqlı inkişafı təşviq etməyi qarşıya mühüm məqsəd kimi qoyub. Azərbaycanla AYİB arasında əməkdaşlıq isə 1992-ci ildən başlayaraq tədricən dərinləşib və müxtəlif sektorlarda konkret nəticələrlə öz ifadəsini tapıb.

AYİB respublikamızda fəaliyyətinə 1992-ci ildə ölkənin quruma üzv qəbul olunması ilə başlayıb. Bankın ilk investisiyaları 1990-cı illərin ortalarında enerji sektoru və maliyyə xidmətlərinə yönəlib. Azərbaycanın zəngin enerji ehtiyatlarının Avropa bazarlarına çıxarılmasında AYİB-in rolu xüsusilə önəmli olub. Bu dövrdə bu bank Bakı – Tbilisi – Ceyhan (BTC) əsas ixrac boru kəməri və "Şahdəniz" qaz layihəsi kimi irimiqyaslı enerji layihələrinin maliyyələşdirilməsində iştirak edib. Bu investisiyalar Azərbaycanın enerji ixracatçısı kimi mövqeyini daha da möhkəmləndirib.

2000-ci illərdən etibarən AYİB-in Azərbaycandakı fəaliyyəti təkcə enerji deyil, həm də qeyri-neft sektorunun inkişafına dəstək vermək istiqamətində genişlənməyə başlayıb. Bu mərhələdə bank daha çox özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın (KOB) inkişafına yönəlmiş layihələrə diqqət ayırıb.

Qeyd edək ki, respublikamızın enerji sahəsində əldə etdiyi uğurlarda AYİB-in payı az deyil. Bank Dövlət Neft Şirkətinin bəzi investisiya layihələrinin maliyyələşdirilməsində, o cümlədən emal və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində mühüm rol oynayıb. Son illərdə bank bərpa olunan enerji sektoruna da diqqət yetirməyə başlayıb. 2020-ci illərdə AYİB Azərbaycanda günəş və külək enerjisi layihələrinin inkişafı üçün hüquqi-institusional mühitin yaradılmasına texniki yardım göstərib. Bu, Azərbaycanın "yaşıl" enerji keçidinə dəstək verən vacib addımlardandır.

AYİB-in strateji prioritetlərindən biri də özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın gücləndirilməsidir. Bank Azərbaycan üzrə bir sıra yerli bank və maliyyə institutları ilə əməkdaşlıq edərək KOB-ların maliyyə resurslarına çıxışını asanlaşdırıb. Kredit xətləri, texniki yardım və konsultasiya proqramları vasitəsilə bank yüzlərlə sahibkara öz bizneslərini böyütmək imkanı yaradıb.

Sözügedən maliyyə qurumu Azərbaycan maliyyə sektorunun inkişafı üçün texniki dəstək və sərmayələr ayırmaqla bu sahədə struktur islahatlarına mühüm töhfə verib. Bank qadın sahibkarlığının maliyyələşdirilməsinə xüsusi diqqət ayıraraq inklüziv maliyyə alətlərini təşviq edib.

Son illərdə bank Azərbaycanda nəqliyyat və logistika infrastrukturunun inkişafına da maraq göstərib. Bank regionlararası əlaqəliyin gücləndirilməsi və Orta Dəhliz kimi beynəlxalq təşəbbüslərin dəstəklənməsi baxımından mühüm layihələrdə iştirak edib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və dəmir yolu infrastrukturunun inkişafı kimi layihələr AYİB-in diqqətində saxlanılıb.

# Xəzərin "Qarabağ" yatağı zəngin neft vəd edir



**(əvvəli 1-ci səhifədə)**

BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrell Bakı Enerji Forumu çərçivəsində keçirilən mətbuat konfransında bildirib ki, "Qarabağ"da ilk neft hasilatının 2029-cu ilə planlaşdırılması böyük neft yatağı üçün nisbətən sürətli işlənmə müddətidir. Bununla yanaşı, artıq kəşf olunmuş yataq sayılan "Qarabağ"dan indiyədək neft çıxarılmadığını vurğulayan Q.Birrell qeyd edib ki, indi əsas iş layihə çərçivəsində SOCAR-la birlikdə hasilata başlamaqdır. Onun sözlərinə görə, bu məqsədlə tərəflərin iştirakı ilə yeni konsepsiya işlənib hazırlanacaq ki, bu da "Qarabağ" yatağında neft hasilatına daha asan və tez başlamağa imkan yaradacaq.

BP rəsmisi daha sonra deyib ki, yeni konsepsiya əsasında inşa ediləcək platforma texnoloji qurğulara malik olsa da, hər şey məsafədən idarə olunacaq. "Şelfdə çox az insan olacaq, ümumiyyətlə, heç olmaması da mümkündür. Bu, üst quruluşu (göyərtəsi) və bəzi qurğuları olan yüngül, kompakt platformadır", – deyə o əlavə edib.

Q.Birrellin sözlərinə görə, neft və qaz "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun mövcud infrastrukturuna nəql olunacaq ki, bu da layihəni nisbətən səmərəli və aşağı xərcli edir. Yeni platformanın Azərbaycanda inşa ediləcəyini xatırladan vitse-prezident, həmçinin deyib ki, "Qarabağ"ın mövcud ACG infrastrukturu ilə inteqrasiyası layihəni çox səmərəli edəcək.

Xatırladaq ki, "Qarabağ" perspektivli dəniz strukturu kimi 1959-cu ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilib. 1984-cü ildə strukturun sahəsi dəqiqləşdirilib və 1997-1998-ci illərdə kəşfiyyat qazması nəticəsində neft-qazlılığı təsdiqlənib. Yataq Bakıdan 120 kilometr şərqdə, "Günəşli" yatağından 20-25 kilometr məsafədə, suyun 150-200 metr dərinliyində yerləşir. "Qarabağ" müstəqillik dövründə kəşf edilmiş ilk neft yatağıdır. Yatağın ilkin qiymətləndirilmiş geoloji ehtiyatları 60 milyon ton neftdən artıqdır.

1996-cı il fevralın 13-də xarici şirkətlərlə imzalanmış hasilatın pay bölgüsü sazişinə əsasən buradan 25 il ərzində neft hasil ediləcəyi qərara alınıb. Həmin il iyunun 4-də layihə çərçivəsində nəzərdə tutulmuş işləri yerinə yetirmək məqsədilə Xəzər Beynəlxalq Əməliyyat Şirkəti (SİPCO) yaradılıb. Hasilatın pay bölgüsü sazişinə əsasən burada 3 kəşfiyyat quyusu qazıb. Quyuların 2-si strukturun cənub-şərq hissəsində layların qazla doyumlu olduğunu təsdiqləyib. 1 quyu isə strukturun qərb hissəsində layların neft və qazla doyumlu olduğunu aşkara çıxarıb. Bununla belə, beynəlxalq şirkətlərdən ibarət olan konsorsium sonradan sahənin rentabelli olmadığı qənaətinə gələrək 1999-cu il yanvarın 26-da əməliyyatı dayandırdığını elan edib.

2018-ci ildə isə "SOCAR Qarabağ" və Norveçin "Equinor" şirkəti arasında yatağın işlənməsi üzrə risk xidməti sazişi imzalanıb. Sazişə əsasən şirkətlər layihədə bərabər pay əldə ediblər. Həmin il sənəd Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunub. 2019-cu il dekabrın 23-də yataqda ilk qiymətləndirmə quyusunun qazılmasına başlanılıb. SOCAR-ın CDC qazma şirkəti tərəfindən "Dədə Qorqud" üzən qazma qurğusu vasitəsilə suyun 180 metr dərinliyində qazılmış quyudan əldə olunmuş ilkin nəticələr yataqda kəşf edilmiş neft və qaz həcmlərinin onun iqtisadi cəhətdən səmərəli işlənməsi üçün yetərli olduğunu təsdiqləyib. Bununla da, "Qarabağ" ölkəmizin müstəqilliyi dövründə kəşf edilmiş ilk neft yatağı kimi tarixə düşüb. Bununla belə, 2023-cü ilin sonlarında Norveç şirkətinin ölkəmizi tərk etməsi ilə əlaqədar layihə öz işini dayandırmalı olub.

Heç şübhəsiz, yenidən həyata vəsiqə almış "Qarabağ" neft layihəsi SOCAR və BP-nin birgə səyi nəticəsində uğurlu işlənmə mərhələsinə qədəm qoyacaq ki, bu da Xəzər regionunda yeni bir əməkdaşlıq nümunəsinin əsasını qoyacaq.

# Çinlə "yaşıl" saziş imzalanıb

**Energetika naziri Pərviz Şahbazov Çinin Ningbo şəhərinə səfəri çərçivəsində "China Energy Engineering Corporation Limited" şirkətinin vitse-prezidenti Xu Lu ilə görüşərək rəhbəri olduğu qurum ilə adıçəkilən şirkət arasında enerji sahəsində mövcud fəaliyyət planının icrası vəziyyətini müzakirə edib.**



Xatırladaq ki, şirkətlə əməkdaşlıq gündəliyinə Azərbaycanda elektrik enerjisi planlaşdırılması və şəbəkə araşdırmaları, Birgə Yaşıl Enerji Tədqiqat Mərkəzinin yaradılması, su, günəş və dənizdə külək elektrik stansiyası layihələri, həmçinin "yaşıl" enerji interkonnektorlarının inkişafı üzrə təşəbbüslər daxildir. Görüşdə Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında "Azərbaycanın Elektrik Enerjisi Ötürmə Şəbəkəsinin Tədqiqatına dair Saziş" imzalanıb.

Sənəd Azərbaycanın 2030-cu il və sonrakı dövrlər üçün bərpaolunan enerji hədəflərinə uyğun olaraq ötürücü şəbəkənin inkişaf etdirilməsini və bu məqsədlə adıçəkilən institut tərəfindən texniki məsləhət xidmətlərinin göstərilməsini nəzərdə tutur. Sazişə əsasən, Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu tərəfindən Azərbaycan elektrik enerjisi sisteminin mövcud vəziyyətinə uyğun model və simulyasiya işləri aparılacaq, şəbəkə tədqiqatı təhlil ediləcək, hədəf illər üçün enerji tələbatı proqnozlaşdırılacaq və genişmiqyaslı bərpaolunan enerji mənbələrinin inteqrasiyası üçün tövsiyələr hazırlanacaq.

# Taxıl biçini itkisiz və nizamla davam edir

## *İndiyədək 1,8 milyon tondan çox məhsul yığılıb*



**Ölkəmizdə taxıl biçini davam edir. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, artıq taxıl sahələrinin 58,6 faizi biçilib. Ötən müddətdə biçin aparılmış 546 min 787 hektar sahədən 1 milyon 849 min 872 ton taxıl yığılıb. Məlumata görə, 14 rayonda arpa biçini, 1 rayonda isə buğda biçini tam başa çatdırılıb. Hazırda ölkə üzrə taxıl sahələrinin orta məhsuldarlığı 33,8 sentner/hektar təşkil edir.**

Xatırladaq ki, bu il ölkə üzrə 932 min hektardan artıq sahədə payızlıq taxıl əkilib. Bunun da 505 min 696 hektarı buğda, 426 min 623 hektarı arpa isə sahələridir. İyunun 30-na qədər buğda sahələrinin 38,8 faizində, arpa sahələrinin isə 82,2 faizində biçin tam yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 37,2 sentner/hektar, arpa üzrə isə 32 sentner/hektar təşkil edir. Hazırda ümumi məhsuldarlıq göstəricisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 sentner/hektar çoxdur.

Artıq 14 rayonda arpa biçini tam başa çatıb, 17 rayonda isə biçin 90 faizi keçib. Yevlax rayonunda buğda biçininə yekun vurulub, Saatlı, Göyçay, Ağdaş, Bərdə, Masallı və Ucarda isə buğda biçini tamamlanmaq üzrədir. Bugünədək buğda və arpa üzrə ən yüksək məhsuldarlıq Hacıqabul rayonunda qeydə alınıb – 55 sentner/hektar. Samux rayonunda buğda üzrə orta məhsuldarlıq 49,5 sentner/hektar, Bərdə, İmişli və Sabirabad rayonlarında isə arpa üzrə orta məhsuldarlıq 39,4 sentner/hektar təşkil edib. Taxıl biçininin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

# Türkiyəyə Azərbaycan yatırımı 2,3 dəfə artıb

**Mərkəzi Bankın məlumatına görə, cari ilin I rübündə Azərbaycan Türkiyə iqtisadiyyatına 92,6 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çox) birbaşa investisiya qoyub.**

Hesabat dövründə respublikamızın qardaş ölkə iqtisadiyyatına investisiya qoyuluşunun ümumi investisiyalarda payı 12,1 faizdən 29,4 faizə çatıb. Rüb ərzində Türkiyə isə Azərbaycan iqtisadiyyatına 300,9 milyon ABŞ dolları (1 il əvvələ nisbətən 15 faiz çox) birbaşa investisiya yatırıb. Türkiyənin Azərbaycanın iqtisadiyyatına investisiya qoyuluşunun ümumi investisiyalarda payı 17,3 faizdən 19,8 faizə çatıb.



Xatırladaq ki, bu ilin yanvar – mart aylarında Azərbaycandan xaricə yönəldilən birbaşa investisiyalar 315,1 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz az), ölkəyə xaricdən cəlb edilən birbaşa investisiyalar isə 1 milyard 519 milyon ABŞ dolları (0,7 faiz çox) təşkil edib.

# İqtisadi kreditlər ilk dəfə 30 milyard manatı ötüb

**Mərkəzi Bankın məlumatına görə, bu il iyunun 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 30 milyard 189 milyon manat (aylıq müqayisədə 1 faiz, ilin əvvəlinə nisbətən 3,1 faiz, 2024-cü ilin eyni dövrü ilə müqayisədə isə 13,9 faiz çox) təşkil edib.**

Kredit qoyuluşunun 20 milyard 980 milyon manatı və yaxud 69,5 faizi (bir il əvvələ nisbətən 12,1 faiz çox) özəl bankların payına düşüb.

Hesabat tarixinə dövlət banklarının kredit qoyuluşu 7 milyard 406 milyon manat (illik müqayisədə 14,8 faiz çox) təşkil edib. İl ərzində dövlət banklarının ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 24,3 faizdən 24,5 faizə yüksəlib.

İyunun 1-nə bank olmayan kredit təşkilatlarının (BOKT-ların) kredit qoyuluşu 1 milyard 802 milyon manat (illik müqayisədə 34,5 faiz çox) olub. İl ərzində BOKT-ların ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 5,2 faizdən 6 faizə çatıb.

Azərbaycanda 22 bank fəaliyyət göstərir, onlardan 2-si dövlət payına malikdir. BOKT-ların sayı isə 56-dır.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvan Qərbi Azərbaycana Qayıdış hərəkatının ön cəbhəsində

## Muxtar diyarda səslənən həqiqətlər Ermənistanda tez və gur əks-səda verir



**Azərbaycan Prezidenti, Qarabağın fatehi İlham Əliyevin uzaqgörən siyasəti, uğurlu diplomatiyası və müdrik addımları nəticəsində Ermənistanın Azərbaycana 30 il davam edən hərbi təcavüzünə, misilsiz soyqırımı və vandallıqla müşayiət olunmuş işğala son qolmuş ölkəmizin ərazi bütölüyü və suverenliyi tam bərpa edilmişdir.**

Ümummilli lider Heydər Əliyevin ideya və əməllərini, yarımçıq qalmış arzu və istəklərini inamla davam etdirən ölkə rəhbəri Ulu öndərin erməni millətçilərinin 1905–1906, 1918–1920, 1948–1953 və 1988–1991-ci illərdə xalqımıza qarşı həyata keçirdikləri soyqırımı və deportasiya siyasətinin ifşa edilməsi, Qərbi Azərbaycan həqiqətlərinin təbliği, bu əzəli torpaqlarımızdan vəhşiliklə qovulmuş soydaşlarımızın hüquqlarının beynəlxalq müstəvidə müdafiə olunması ilə bağlı siyasətini də iri miqyasda, qətiyyətlə davam etdirir. Prezident İlham Əliyev müzəffər komandanı olduğu Qarabağ zəfərindən sonrakı dövrdə bu mübarizəni ümummilli hərəkat səviyyəsinə yüksəldərək, Qərbi Azərbaycana Qayıdış missiyasının dövlət səviyyəsində dəstəklənməsini təmin edir.

Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın tarixi yurdlarına ləyaqətli və təminatlı qayıdışı üçün önəmli meydan açdı. Prezident İlham Əliyevin 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasına gəlişi, burada prinsipial mövqeyə əsaslanan, proqram xarakterli çıxış etməsi xalqımızda Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunmasına və onların öz doğma torpaqlarına qayıtmasına əminlik və böyük ruh yüksəkliyi yaratdı.

Bundan sonra Qərbi Azərbaycan İcmasının fəaliyyətinin konseptual xarakterli çərçivə sənədi – Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlandı. Ötən müddətdə bu tarixi sənədin icrası istiqamətində çoxşaxəli məqsədyönlü addımlar atılmışdır.

Bəhs etdiyimiz tarixi sənədin icrası istiqamətində İcmanın Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış elmi-tədqiqat strukturu ilə əlaqəli şəkildə fəaliyyəti hərəkatda önəmli bir istiqamət açdı.

Xatırladaq ki, həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü əsasında AMEA Rəyasət Heyətinin 16 yanvar 2023-cü il tarixli qərarı ilə Qərbi Azərbaycan tədqiqatları üzrə Əlaqələndirmə şurası yaradılıb. Bundan əlavə, "AMEA-nın Qərbi Azərbaycanın tədqiqi və təbliği ilə bağlı Tədbirlər planı" təsdiq edilərək mərhələli şəkildə həyata keçirilir. AMEA-nın Tarix və etnologiya İnstitutunda Qərbi Azərbaycan tarixi, Folklor İnstitutunda Qərbi Azərbaycan folkloru, Nəsimi adına Dilçilik İnstitutunda isə Qərbi Azərbaycan toponimikası şöbələri yaradılıb. Bu qurumlarda Qərbi Azərbaycanla əlaqədar çoxsahəli tədqiqatlar aparılmaqda, elmi nəşrldə hazırlanır.

2023-cü ilin 23–24 noyabrında Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə muxtar respublikada "Qərbi Azərbaycana qayıdış" adlı festival və "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres keçirilməsi də Qərbi Azərbaycana qayıdış strtaegiyasının reallaşdırılması istiqamətində mühüm tarixi addım oldu. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı, Türkiyədən olan 20-dən çox qurumun tərəfdaşlığı ilə keçirilən festival-konqres mühüm tarixi məqamları ilə yadda qaldı.

Qeyd edək ki, Prezident İlham Əliyev Qərbi Azərbaycan ziyalı qrupu ilə görüşü zamanı bu bölgənin tarixi, mədəni irsi, qayıdış hüququ mövzularında sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməsi ilə bağlı tapşırıq vermişdi. Qərbi Azərbaycana coğrafi-etnik baxımdan, tarix etibarilə daha doğma və yaxın olan Naxçıvan bu çağırışa ilk cavab verərək möhtəşəm bir tədbir reallaşdırdı. Bununla Qərbi Azərbaycanla bağlı yeni elmi-tədqiqat mərhələsinin rəmzi təməli qoyuldu, bu festival-konqresin ənənəvi olaraq keçirilməsi qərara alındı.

Ölkəmizin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıların bir araya gəldiyi bölmə iclaslarında ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsi kimi aktual məsələlər ortaya qoyuldu. Azərbaycanın elm, təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi-tarixi, nəzəri əsərlərin yazılması zərurəti qeyd edildi.

Konqres beynəlxalq təşkilatlara Azərbaycana qarşı ədalətli mövqe nümayiş etdirməyə, Qərbi azərbaycanlıların ləyaqətli və tam təhlükəsiz qayıdışına səssiz qalmamağa çağırış etməklə həm də siyasi əhəmiyyət daşıdı. Festival-konqres çərçivəsində keçirilən kitab təqdimatları, ustad dərsləri, film nümayişləri, xalq oyunları, kompozisiyalar, konsert proqramları, müxtəlif sərgilər, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, tanınmış modelyer-rəssam Fəxriyyə Xələfovanın ilk dəfə Naxçıvanda təşkil olunan "Milli ornamentlərin harmoniyası" adlı kolleksiyası və yeni elmi-tarixi faktlarla zəngin məruzələr tarixi həqiqətin sarsılmazlığına, doğma yurda qayıdışa əminlik yaratdı.

Festival-konqres çərçivəsində qonaqlar Ordubad rayonunun Parağa, Kəngərli rayonunun Çalxanqala kəndlərində yaşayan Qərbi azərbaycanlılarla görüşdülər. Bu, deportasiyaya məruz qalmış müxtəlif nəslin nümayəndələri olan soydaşlarımızla əslən Qərbi Azərbaycandan olan bugünkü nəslin bölgələrdə, bəlkə də, ilk belə tarixi kütləvi görüşü idi ki, festival-konqres nəsillərarası əlaqəni daha da möhkəmləndirmək, milli yaddaşı təzələmək, düşüncələrdə yurda dönüşə birgə güclü inam yaratmaq baxımından da çox mühüm əhəmiyyət kəsb etdi.



2024-cü il iyunun 21–22-də keçirilən ikinci "Qərbi Azərbaycana qayıdış" festival-konqresi də Qərbi Azərbaycanda xalqımızın uzun illər ərzində yaratdığı mədəni irsin, tarixi keçmişimizin təbliği, həmçinin doğma torpaqlara qayıdış hüququnun beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımndan çox böyük əhəmiyyətə malik oldu. Vurğulayaq ki, bəhs etdiyimiz festival-konqreslərin plenar iclaslarında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Qərbi Azərbaycan Araşdırma Mərkəzinin təssisçisi, professor Mahirə Hüseynovanın çıxışları, söylədiklərimülahizələr bu irimiqyaslı aksiyaya siyasi dəyər, elmi məzmun verdi, hərəkata geniş ictimai dəstək qazandırdı.

İkinci festival-konqresin Azərbaycanın dilbər guşələrindən biri olan Batabat yaylağında təşkil olunması xüsusi rəmzi məna daşıyırdı. Bu festivalın mənfur düşmənlərimizin işğal arzusunu əbədilik gözündə qoyan qədim Naxçıvan diyarının füsunkar məkanında – vaxtilə həmvətənlərimizin yaşadıqları Qərbi Azərbaycan kəndlərindən cəmi bir neçə kilometr məsafədə yerləşən ərazidə keçirilməsi ermənilərə gözgörəsi ibrət dərsi idi. Biz "həm ruhən, həm də məsafə etibarilə Qərbi Azərbaycana addım-addım yaxınlaşırıq!" deməklə öz mənəvi haqqımıza qovuşmamıza, tarixi ədalətin bərpasına çox az qaldığını bəyan etdik.

Batabat yaylağında Qərbi Azərbaycanın 11 mahalını rəmzi olan çadırların qurulması, müstəqillik rəmzi Dövlət Himnimizin səsləndirilməsi, el ağsaqqalı, müdrik Dədə Qorqudun müqəddəs qopuz sədaları altında xeyir-dua verməsi, üçrəngli Dövlət Bayrağımızı vüqarla dalğalandıran çaparların dağlara səs salan qələbə müjdəsi, zəfər simvolu olan üç tonqal, NDU-nun Tələbə Teatr Studiyasının hazırladığı "Zəfər" və "Dərələyəz" kompozisiyaları tədbirə millilik, həmrəylik məzmunu bəxş etdi. Qərbi Azərbaycandan olan iki gəncin toy mərasimi əzəli yurd yerimizin folklor və etnoqrafiyasını, milli mədəni irsini sərgiləməklə yanaşı çox yaxında Qərbi Azərbaycana qayıdacağımızla bağlı bayram şadyanalığının zirvəsi oldu, insanlara qələbə ovqatı, qayıdış inamı bəxş etdi. NDU-nun texnologiya mərkəzinin hazırladığı Qərbi Azərbaycan mətbəxi sərgisi isə iştirakçılar üçün bayram süfrəsinə çevrildi.

Festival-konqresin bölmə məruzələrdə indiki Ermənistanın qədim Oğuz-türk yurdunun tarixi bir bölgəsi olması tarixi, arxeoloji, toponimik və dil faktorları əsasında bir daha elmi təsdiqini tapdı. Naxçıvan Dövlət Universiteti Elmi kitabxanasında Qərbi Azərbaycanla bağlı çap olunmuş kitabların təqdimatı erməni məkri və saxtakarlıqlarının ifşası baxımından əhəmiyyət kəsb etdi.

Bu il iyunun 13-ü və 14-də Naxçıvanda keçirilən "Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış" mövzusunda respublika elmi konfransı mövcud ənənənin uğurlu davamı olmaqla yanaşı elmi ağırlığı, elmi yenilik zənginliyi və mahiyyət dərinliyi ilə xüsusilə seçildi. Konfrans Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, AMEA Tarix və Etnologiya İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, AMEA Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə reallaşdırıldı. Bu faktın özü Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası istiqamətində qarşıya qyulmuş hədəflərə çatmaqda vahid təşkilatlanmadan, konkret məqsəd və ideya birliyi formalaşmasından xəbər verir.

AMEA Naxçıvan Bölməsi AMEA-nın 80 illik yubileyini qeyd etdiyimiz ərəfədə bəhs etdiyimiz konfransa öz elmi-yaradıcı potensialının çoxsaylı uğurları ilə gəlmişdi. "Xalqımızın qədim yurd yeri: Qərbi Azərbaycan" mövzusunda və digər elmi konfransların keçirilməsi, akademik İsmayıl Hacıyevin "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovanın "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" ikicildliyi və digər elmi və elmi-kütlıvi nəşrlərin hazırlanması, movzu ilə bağlı elmi tədqiqatların müxtəlif dillərdə beynəlxalq impakt faktorlu junalda da yer alması bunu bir daha təsdiq edir. Tədbir çərçivəsində öz mövzu rəngarəngliyi və aktuallığı ilə seçilən belə elmi nəşrlərdən ibarət kitab sərgisi festival-konqres iştirakçıları tərəfindən maraqla qarşılandı.

Plenar iclasda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin çıxışı ilə erməni şovinizminin dünya imperializminin havadarlığına arxalanaraq Azərbaycan xalqına qarşı törətdikləri soyqırım və deportasiya faciələri bir daha yaddaşlarda yeniləndi. Nə qədər ağır və faciəvi olsa da tarixə qısa ekskurs zamanı məlum oldu ki, XX əsr boyu həyata keçirilmiş və XXI əsrdə də davam etmiş soyqırımı, deportasiya və təcavüzlər on minlərlə həmvətənimizin qətliamına, yüz minlərlə azərbaycanlının öz doğma yurdundan didərgin düşməsinə səbəb olub. Ermənilər yuzilliklər boyu törətdikləri bu vandalizmə görə tarix qarşısında, beynəlxalq hüquq çərçivəsində cavab verməlidir. Məhz Azərbaycanın dövlət siyasəti, iqtidar-xalq birliyi buna nail olmağa zəmanət verir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov vurğuladı ki, ölkəmizin hərtərəfli inkişafı, Azərbaycanın beynəlxalq müstəvidə yetərli nüfuz və söz sahibinə çevrilməsi, milli həmrəyliyimiz, Azərbaycanın dövlət suverenliyini və ərazi bütövlüyünü qalibiyyətlə bərpa etməsi, müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradə və qətiyyəti Qərbi Azərbaycana sülh yolu ilə qayıdışı günbəgün reallaşdırır. Bu proseslərdə Qərbi Azərbaycana məxsus toponimləri, dil faktlarını, dini-tarixi abidələri və digər mədəniyyət nümunələrini araşdıraraq tutarlı elmi sübut və dəlillər ortaya qoyan alim və ziyalılarımızın müstəsna xidmətləri danılmazdır, eyni zamanda onların üzərinə mühüm tarixi vəzifələr düşür.

AMEA prezidenti, akademik İsa Həbibbəyli dövlət başçısı İlham Əliyevin uzaqgörən sülhsevər siyasətinə əsaslanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını tarixi zəfərdən sonra ölkəmizdə ikinci Böyük Qayıdış Proqramı kimi təhlil etdi. Akademik bildirdi ki, AMEA-da Qərbi Azərbaycan mövzuunda araşdırmalar aparılması, konfranslar keçirilməsi, "Xalq qəzeti" ilə birgə ictimai müzakirələrin təşkil edilməsi, "Qərbi Azərbaycan toponimlərinin leksik-semantik xüsusiyyətləri", "Qərbi Azərbaycan dialektoloji atlası", "Qərbi Azərbaycan folklor örnəkləri" toplusu, "Qərbi Azərbaycan Ensiklopediyası" kimi dəyərli nəşrlərin hazırlanması istər Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının elmi-ictimai müstəvidə uğurlu icrasına xidmət edir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Qərbi Azərbaycana həsr olunmuş fundamental tədqiqatlardan bəhs etdi, bu araşdırmaların gənc tədqiqatçılar üçün yeni elmi üfüqlər açdığını bildirdi. Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, QAİ-nin Amasiya rayonu üzrə sədri Abel Məhərrəmov Naxçıvan və Qərbi Azərbaycanın tarixindəki oxşarlıqlarla və Qərbi Azərbaycan İcmasının fəaliyyəti ilə bağlı maraqlı faktları diqqətə çatdırdı. QAİ İdarə Heyətinin üzvü, Keşkənd rayon icmasının sədri, professor Mahirə Hüseynovanın Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsi – ermənilərin heç bir tarixi ədalətə və məntiqə sığmayan etnik cinayəti ilə bağlı səsləndirdiyi ittihamlar, AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, professor Cəbi Bəhramovun Qərbi Azərbaycanın tarixi və mədəniyyətinin tədqiqi istiqamətində aparılan elmi-kütləvi təbliğat işləri haqqında verdiyi məlumatlar konfransda maraqla qarşılandı.

İğdır Universitetinin ədəbiyyat fakültəsinin dosenti Oğuz Şimşək Qərbi Azərbaycanın oğuz türklərinin ata-baba yurdu olması, soydaşlarımıza qarşı törədilən erməni vəhşilikləri, kəndlərimizin saxtakarlıqla erməniləşdirilməsi ilə bağlı yeni zəngin tarixi faktlara əsalnaraq çıxış etdi. Bu tarixi çıxış, türkiyəli alim-ziyalının jurnalistlərə müsahibəsi Qərbi Azərbaycana – əzəli oğuz-türk yurduna qaydışın, o torpaqları, dini-tarixi abidələri birgə ziyarətin artıq bir ümumtürk məramına, türkçülük ideyasına çevrildiyini təsdiq etdi.

Konfransın bölmə iclaslarındakı məruzələrdə səsləndirlən yeni elmi-tarixi faktlar, aktual müzakirə və diskussiyalar Qərbi Azərbaycana Qayıdış hərəkatının zəruriliyini elmi, tarixi və mədəni əsaslandırmaq baxımından əhəmiyyətli oldu. Konfransda Qərbi Azərbaycanın tarixi, Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış Qayıdış Konsepsiyasının reallaşdırılması ilə bağlı qarşıda duran vəzifələr və başlıca hədəflər müəyyənləşdirildi. Qərbi Azərbaycana həsr olunmuş son respublika elmi konfransı həm beynəlxalq, həm də respublika səviyyəli ictimai-siyasi tədbirlərin geniş vüsət alması bu əbədi və əzəli torpaqlarımız uğrunda mübarizənin dövlətçilik strategiyası ilə yanaşı ümummilli ideyaya, ümumxalq hərakatına çevrildiyini sübut etdi.

Yeri gəlmişkən qeyd edək ki, Qərbi Azərbaycana qayıdış uğrunda məqsədyönlü elmi-ictimai fəaliyyətin ilk səmərəli addımları dünya erməniliyini ciddi narahat etmişdir. Erməni mərlkəzlərinin təşvişə düşməsi, bununla bağlı kütləvi dezinformasiya işləri aparması bunu göstərir. Ermənistan Elmlər Akademiyasının rəhbəri Aşot Saqyan Qərbi Azərbaycana Qayıdış hərəkatının addımları iləbağlı ölkənin Təhlükəsizlik Şurasına müraciət etməsi qarşı tərəfin müdafiə mövqeyinə keçməsindən xəbər verir.

Bu yaxınlarda amerikalı jurnalist Lindsi Snel və ona istinad edən Ermənistan mətbuatı Qərbi Azərbaycan İcmasının 2023-cü ilin noyabrında Naxçıvanda Qərbi Azərbaycanla bağlı festival keçirməsini və bunu müasir Ermənistan ərazisinə qayıtmaq yolunda addım adlandırmasına anti-Azərbaycan münasibəti bldirdi. Materialda qeyd olunurdu ki, Azərbaycan Prezidenti İlham Əliyev ATƏT PA-nın sədri Pia Qauma ilə görüşündə İrəvan rəhbərliyini azərbaycanlı qaçqınların öz yurdlarına qayıtmaq hüququnu rədd etməkdə ittiham edib.

Həmin kampaniyada Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi də hədəfə alınmışdı. Xatırladaq ki, bu Mərkəz tarixi saxtalaşdırmaqla, ermənilərə qarşı əks-təbliğat aparmaqla məşğul olan ideoloji baza kimi təqdim edilir. ADPU-nun prorektoru, professor Mahirə Hüseynova bu yanlış və manipulyativ yanaşmanı kəsərli və əsaslandırılmış şəkildə təkzib edərək bildirdi ki, onun rəhbərlik etdiyi mərkəz elmi araşdırmalara söykənən həqiqətləri üzə çıxarır. Qərbi Azərbaycan həqiqətlərini müəllimlərə öyrətmək iddiasına gəlincə, təbii ki, burada müəllimlərə müəyyən istiqamət verilir. Ancaq bu istiqamət bir təbliğat deyil, tarixi həqiqətlərin düzgün təqdimidir və gələcək nəsillərə öz tariximizi doğru çatdırmaq məqsədi daşıyır.

Bütün bunlar Qərbi Azərbaycanla bağlı keçirilən festival-konqreslərin, elmi konfransların mühüm tarixi, elmi-mədəni əhəmiyyət kəsb etdiyini bir daha sübüut edir. Bu tədbirlərdəki çıxışların, məruzələrin toplu halında nəşri, burada yer alan tarixi, ədəbi-mədəni faktlar Qərbi azərbaycanlıların layiqli və ədalətli şəkildə öz yurdlarına qovuşmasını təmin edəcək, Qərbi Azərbaycana Qayıdış dövlət siyasətinə və ümummilli hərakatına mühüm töhfə olacaq. Naxçıvanda keçirilən "Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış" mövzusunda respublika elmi konfransı bu qaydışa ilk olaraq elmi-siyasi şüur və təfəkkürdə nail olmaq, bu hüququ beynəlxalq prizmada, fundamental əsaslandırılmış şəkildə təsdiq etdirmək istiqamətində mühüm addım oldu.

***Mehriban SULTAN,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, fəlsəfə doktoru, Naxçıvan MR Əməkdar jurnalisti***

# "Sərhəd yürüşü"nün qəhrəmanı



**2020-ci il Vətən müharibəsində qazandığımız Zəfərin 5 ili tamam olur. 5 ildir ki, Azərbaycanın tam bərpa olunmuş sərhədlərində Dövlət bayrağımız dalğalanır.**

Böyük Qələbəmizdə Dövlət Sərhəd Xidmətinin rolu müstəsna əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan sərhədçisi əzəli torpaqlarımız olan Qarabağda və Şərqi Zəngəzurda fəxarətlə xidmət edirlər. Müsahibimiz Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələrinin Komandanı, Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Babək Ələkbərovdur.

**– Cənab general, layihəmizin məramına uyğun olaraq Vətən Müharibəsi Qəhrəmanları haqqında oxuculara ətraflı məlumat veririk. Gəlin ömür yolunuza nəzər salaq.**

– 1987-ci il dekabrın 24-də Abşeron rayonunun Ceyranbatan qəsəbəsində doğulmuşam.Valideynlərim əslən Qərbi Azərbaycandandırlar. Ermənilərin törətdiyi qanlı qırğınlar bizim ailəmizi, el-obamızı yaşadığımız torpaqlardan didərgin salıb. Atam Mürsəl Ələkbərov Ermənistanın Hamamlı rayonunun Saral, anam isə Kalinino rayonunun Molla Eyyublu kəndindəndirlər. Uşaqlığım Vətən həsrətli valideynlərimin, qohumlarımın yurd nisgilli söhbətlərini dinləməklə, bir gün qisas gününün olacağına inamımı yaşatmaqla keçib.

Zaman öz işini gördü və o gün yetişdi. Qəti qərarımı verdim ki, mən peşəkar hərbçi olmalıyam. Beləliklə, 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi liseydə təhsil aldım. Bu hərbi məktəbin bünövrəsini ümummilli lider Heydər Əliyev qoyub. Azərbayan Ordusunun peşəkar zabit heyətinin formalaşmasında bu liseyin əvəzsiz rolu var. Mən fəxr edirəm ki, hərbçi peşəsinə yiyələnməyim bu müqəddəs təhsil ocağından başlanıb.

2006-2010-cu illərdə isə MTN-nin Heydər Əliyev adına Akademiyasının Sərhəd Qoşunları fakültəsində təhsil aldım, "leytenant" rütbəsi ilə Sərhəd Qoşunlarının Çevik Hərəkət Qüvvələrində xidmət etməyə başladım. Təlimlərdə hərb sənətinin incəliklərini öyrəndim. Peşəkar döyüş qabiliyyətinə yiyələndim, istehkamçı vəzifəsində tam olaraq mütəxəssis kimi yetişdim, snayperçi kimi bütün bilikləri və təcrübəni qazandım. Bilirdim ki, bu Vətən, bu Torpaq qarşısında bir gün böyük imtahan verməliyik və belə də oldu.

**– 2020-ci ilin 27 sentyabr səhərini necə açdınız?**

– Həmin gün düşmənin irimiqyaslı hücumuna cavab olaraq Ali Baş Komandan İlham Əliyevin əmri ilə biz də döyüşlərə qatıldıq. O zaman Daşkəsən istiqamətində təlimlərdə idik. İşğaldan azad olunmuş Lələtəpə istiqamətindən döyüşə atıldıq və 2 hissəyə böldük. Bölmələrimiz Azərbaycanın Xüsusi Təyinatlıları ilə birgə Hadrut- Şuşa istiqamətində irəliləyirdi. Digər bölmələrimiz isə Arazboyu istiqamətində döyüş tapşırığını yerinə yetirirdi.

**Siz Arazboyu istiqamətlərdə: Xudafərində, Zəngilanda və Laçında Həkəri çayı üzərindəki körpüdə ərazilərimizin azad olunması ilə əlaqədar Ali Baş Komandana 3 dəfə məruzə etmisiniz.**

Xudafərin istiqamətində qarşımıza qoyulan əsas vəzifə həmin istiqamətdəki yüksəkliyi götürmək idi. Həmin əməliyyatı 11 kilometr yarım yolu düşmən arxasına sızaraq həyata keçirdik.Təxminən, 8-9 saat ərzində yüksəkliyi ələ keçirdik. Düşmənin canlı qüvvəsini məhv etdik. Hər addımımız dəqiqliklə hesablanmışdı. Sərhədçilərimiz uğurlu əməliyyatlardan ruhlanaraq irəliyə gedirdilər. Belə bir məqamda yuxarı rəhbərlikdən əmr aldım ki, Xudafərin körpüsünün azad olunması ilə bağlı məruzə etməliyəm. Çox həyəcanlı idim, Qələbə sevincini yaşayırdım. Həm də Xudafərində Qələbə xəbərini Ali Baş Komandana məruzə etmək mənə qismət olmuşdu.

Zəfər yollarında məğlubedilməzliklə irəli gedirdik. Hamımız Azərbaycan Bayrağını ürəyimiz üstündə gəzdirirdik. 105 km Zəngilan istiqamətində sürətlə irəli getdik və rayonu işğaldan azad etdik. Qələbə xəbərini məruzə etmək bu dəfə də mənə nəsib oldu.

Bəli, döyüşlər uğurla keçdi. Canımızı ağrıdan isə səngər yoldaşlarımızın bu müqəddəs yolda həlak olması idi. Müharibə qan- qadasız mümkün deyil.

**Siz komandir kimi hər bir döyüşçü üçün məsuliyyət daşıyırsınız, şəhid vermək isə dəhşətdir.**

– Komandir ən soyuqqanlı insan olmalıdır. Bütün döyüşçülər mənim üçün ən əziz, qiymətli insan idilər, bircə anlıq zəiflik göstərmyimiz, hissə qapanmağımız düşmənə fürsət verərdi. Yaralıların döyüş mövqeyindən çıxarılmasında səhvə yol verə bilməzdik. Savaş ağrılarına, itkilərə psixoloji cəhətdən hazır idik. Torpaqları azad etdikcə, sanki, yaralarımıza məlhəm qoyurduq. Döyüşə girərkən demişdik: Biz ölmək üçün yox, öldürmək üçün döyüşürük. Sözümüzə qanımızla, canımızla imza qoyduq. İmzamız şərəfimizdir!

Əməliyyatların birində susuz qaldıq, hətta ölümcül vəziyyətə düşdük. Fikirləşdim ki, mən artıq ölə bilərəm. O andaca ürəyimdə özümlə danışmağa başladım ki, kaş mən burada yox, döyüş meydanında şəhid olaydım.

Müharibə meydanının imtahanları qarşısında tablaşmaq hər ordunun gücü deyil. Elə buna görə də Azərbaycan Ordusu məğlubedilməzlik zirvəsini fəth etdi.

Zəngilanın işğaldan azad olunmasında itkilərimiz ağır oldu. Azğınlaşmış düşmən yenidən iki əks istiqamətdən hücuma keçdi. Xüsusilə, Bartaz yüksəkliyinin azad edilməsi zamanı düşmənin "SU-25" hərbi təyyarəsi məhv edildi. Bu döyüşlər zamanı "Harop" və "Bayraktar-TB2" PUA-larının birgə döyüşü üzrə nadir təcrübə formalaşdı. Döyüşçülərimiz qəhrəmanlıqla döyüşərək bütün təyin olunmuş mövqelərimizi əllərində saxladılar. Ermənistanla dövlət sərhədində Bartaz və Şükürataz strateji yüksəkliklərinin azad edilməsi sərhədçilərimizin qəhrəmanlıq və igidlik nümunəsidir. Əlbəttə ki, canları bahasına...

**Müsahibim kövrəldiyinə görə susdu, qəhərləndi. Sonra sükuta özü nöqtə qoydu.**

– Müharibənin yazılmamış qanunları var, şəhidlərimiz üçün yansaq da, düşməndən qisasımızı aldıq, bayrağımızı doğma torpaqlarımıza sancdıq. Hər birimiz 30 ilə yaxın həsrətini çəkdiyimiz nisgilli yurdlarımıza dedik: Biz qayıtmışıq, Vətən!

**– Həkəri körpüsündə Azərbaycan Bayrağını siz qaldırmısınız...**

Həkəri çayının üstündəki körpüdə sərhədin tam bağlanması əməliyyatını da böyük ruh yüksəkliyi ilə yerinə yetirdik. Bir güllə atılmadan belə cəsur sərhədçilərimiz bu planı həyata keçirdilər. Bu əməliyyat Qarabağın açarı idi. Artıq arxa tərəfdən qapı bağlandı.

**– Ermənistanla sərhədə çıxmağınız ikiqat önəmli qələbə idi.**

– Bəli, artıq Qarabağın açar-kilidi əlimizdə idi. Bununla da "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması ölkəmizin suverenliyini, sərhəd bütövlüyünü təsdiq etdi. Ermənistanın Qarabağ ərazisində olan qeyri-qanuni hərbi birləşmələrinin mina, hərbi texnika və silah-sursatla təmin edilməsinə son qoyuldu. Bu tarixi hadisəyə ən layiqli dəyəri Müzəffər Ali Baş Komandan İlham Əliyev verdi. 2023-cü il avqust ayının 26-da "Laçın Şəhəri Günü" bayram tədbirində Prezident İlham Əliyev bəyan etdi: "Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq."

Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb. Döyüş əməliyyatları zamanı sonsuz rəşadət və şəxsi igidlik nümunələri göstərmiş 12 Azərbaycan sərhədçisi (onlardan 4 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 176 nəfər müxtəlif ordenlərlə, 5203 nəfər isə digər döyüş medalları ilə təltif olunub.

**– 5 ildən sonra Zəfər yolumuz sizə necə görünür?**

Gücümüz birə-beş artıb. Komandanlıq etdiyim Çevik Hərəkət Qüvvələrində zabit-gizir heyətini demirəm, əsgərlərimiz "Zəfər əsgəri" adı altında yetişdirilir. Müddətli hərbi xidmət etmələrinə baxmayaraq onlar bir döyüşçü kimi hazırlanırlar. Mənim nəzərimdə komandirin hər bir addımı onların baxışları zəminində tənzimlənməlidir ki, sən ədalətli qərarlar qəbul edəsən. Vətənpərvər, intizamlı heyətin formalaşdırılması, yetişdirilməsi üçün bu çox vacibdir. Əsgərimizin gözü ilə baxmaq üçün onu ali səviyyədə dəyərləndirməlisən.

**– Müharibənin bitməsini necə xatırlayırsınız?**

– Noyabrın 8-də Azərbaycan-Ermənistan-İran sərhədində yüksəkliyi azad edirdik. Döyüş gedə-gedə telefon xəttində Şuşanın azad olunmasını eşitdim. Biz isə Arazboyu istiqamətindəki yüksəklikdə Zəfərə imza atırdıq. Bartaz, Şükürataz, Qızıldaş yüksəklikləri Vətən müharibəsində döyüşərək götürdüyümüz ərazilərdir. Allah Şəhidlərimizə rəhmət eləsin!

Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyümə görə Ali Baş Komandana dərin təşəkkürümü bildirirəm. Biz bu Vətənin, Torpağın əsgərləriyik.

*Söhbəti qələmə aldı:*
***Kəmalə ABDİNOVA***
***XQ***

**Mayor Ramazan Hudulov Xocavəndin, Füzulinin azad edilməsindən başlayıb, Şuşa şəhərinin alınmasınadək böyük bir rəşadət yolu keçib. Daşaltı uğrunda gedən döyüşdə tabor komandiri ağır yaralandıqdan sonra ekstremal vəziyyətdə bu çətin və məsuliyyətli vəzifəni öz üzərinə götürərək döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinə nail olub.**

# Zəfər ünvanlı tabor komandirinin döyüş yolu

1994-cü ildə, Balakən rayonunun Qaysa kəndində avar ailəsində dünyaya göz açıb. Orada orta məktəbi bitirdikdən sonra 2012–2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbində təhsil alıb. Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə taqım komandiri kimi xidmət etməyə başlayıb. Daha sonra Xocavənddə bölük komandiri, Füzulidə tabor komandirinin müavini, Şuşada tabor komandiri kimi döyüşlərdə iştirak edib. "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şişanın azad olunmasına görə" və başqa medallarla təltif olunub.



Onun qəhrəmanlığı xalqımıza, Vətənimizə sonsuz məhəbbətindən yaranıb. İkinci Qarabağ müharibəsinin odu-alovu içərisindən sağ-salamat çıxıb, demək azdır. O, doğma el-obasına "Vətən Müharibəsinin Qəhrəmanı" kimi qayıdıb.

...Ramazanın dəvəti ilə, onunla birlikdə gözəl Qarabağımıza səfər etdim. Onun keçdiyi döyüş səngərlərinin atışləməz çeşidli yerlərini gəzmək və görmək imkanı qazandım. Ramazan düşmənə qarşı vuruşduğu, qaynar döyüş nöqtələrinin getdiyi yerlərlə məni tanış etdi. Həm də ilk dəfə onun sayəsində Şuşamızı, Xankəndimizi, ümumiyyətlə, gözəl Qarabağımızı görmək bəxtiyarlığına qovuşdum. Bu yerlərin bulaq tamı, dağ havası könül sözü, ürək səsi kimi ruhumu oxşadı.

Gərək igid əsgərlərimizin keçdiyi döyüş yollarını öz gözlərinlə görəsən ki, hər çətinliyi anlaya biləsən. Mən heyranlıqla, baxdıqca baxırdım dağ yollarımıza. Ürəyimdə şükranlıqla qibtə edirdim igid oğullarımıza. Dağ yollarının yoxuşunda, maili çəhlimlərin enişində çiynində ağır əsgər çantası, nəfəs dərmədən irəliləmək, düşməni əzəli-əbədi torpaqlarımızdan qovub çıxartmaq, məhv etmək hər oğulun işi deyil. İgid oğullarımız daşlı, qayalı döngələrin üstündən uçub Şuşaya çatmışdılar. Şuşanın hər tərəfdən sıralanmış başı dumanlı dağları durna qatarı kimi səf-səf düzülən igid əsgərlərimizə qucaq açdı. Onların xoş gəlişindən sevindi, ana balasını bağrına basan kimi qoynuna aldı.

Mən Cənnət Qarabağımıza gedən yolda təbiətin qənirsiz gözəlliyinə heyranlıqla tamaşa edirdim. Bir zamanlar ürəyimizi dağlayan sıra dağları ötüb keçdikcə, dağların yaşıl nərdivanlı yollarını qalxdıqca adamın ürəyi zirvədən-zirvəyə atlanır. Yol kənarından bizə əl eləyən, "xoş gəldiniz" deyən hər yalı-yamacı, hər kolu, hər ağacı Ramazan əlini ürəyinin üstünə qoyub salamlayır. Deyir ki, hər dəfə bu yerlərdən ayrılanda elə bilirəm ki, ürəyimi burda qoyub gedirəm. Bu yerlər bizim üçün müqəddəsdir. Burada şəhidlərimizin qanı torpağa qarışıb. Gözlərimin önündə neçə-neçə qardaşlarımız bu torpaqlara canını qurban edib. Qollarımız arasında can verən igid oğullarımızın nurlu çöhrələrini heç unuda bilmirəm. Bir ömür boyunca da unudan deyiləm. Bizim sağ qalmağımız isə Allahın qismətidir.

Qəhrəmanımız səfər zamanı həm şəxsi maşınını sürür, həm də keçdiyi döyüş yollarından söz açaraq özünəməxsus qürurla hər şeyi yerli-yataqlı anlatmağa çalışırdı:

– Döyüşə hazır olsaq da, müharibənin nə vaxt başlayacağından xəbərsiz idik. Sentyabrın 27-də düşmən növbəti hərbi təxribat törətdi. Buna cavab olaraq, həmin gün səhər saatlarında aviasiya qüvvələrimiz havaya qalxdı. Təmas xəttini keçib düşmən mövqelərinə zərbələr endirməyə başladı.

Artıq müharibənin başladığı gün kimi aydın idi. Mənim ilk döyüşlərim Xocavənd istiqamətindən başladı. Elə ilk həmlələrdən düşmənin bir neçə postunu ələ keçirdik. Döyüşlər Füzuli istiqamətində gedirdi. Rayonun Dövlətyarlı kəndində yaralandım. Düşmənin atdığı minamyotla aramda iki metrlik məsafə vardı. O zaman kürək nayihəmdən 4 qəlpə yarası aldım. Həkimlərin təkidinə baxmayaraq, xəstəxanaya getməkdən imtina etdim. Əsgərlərimin yanında olmağı hər şeydən üstün tutdum. Yaralarımı sarıdıqdan sonra döyüş əməliyyatımızı davam etdirdik. Əlli nəfərlik bölüklə dağ, dərə və sıx meşəliklərlə 20 kilometrlik yolu payipiyada qət etdik. Daşaltı kəndinin yaxınlığında qərar tutduq. Sonra Şuşa istiqamətində irəliləmək əmri verildi. Hücum zamanı tabor komandirimiz qol nahiyəsindən ağır yaralandı və xəstəxanaya yerləşdirildi. Mən tabor komandirini əvəz etdim.

Bildiyiniz kimi, Daşaltı çətin ərazidir. Orada ağır döyüş əməliyyatları getdi. İlk olaraq plana əsasən, dövrələmə üsulu ilə ətraf yüksəklikləri ələ keçirdik. Piyada getdiyimiz üçün ağır silahlarımız yox idi, yalnız qumbaraatan və artilleriyanın dəstəyi var idi. Bir müddət döyüşəndən sonra düşmən çox sayda itki verdi, qalanları isə canını qurtarmaq üçün qaçmağa üz tutdu.

... Ucsuz-bucaqsız çöllərdə dərin səssizlik hökm sürürdü. Təkcə Ramazan danışırdı, mən onun söhbətinə qulaq kəsilmişdim. Danışdıqca uzaq üfüqlərə baxırdı. O, döyüşdə keçən günlərini kitab kimi vərəqləyirdi. Onun söhbəti, keçdiyi döyüş səhnələri gözlərim önündən silinməyəcək kino lenti kimi gəlib keçirdi. Ölümsüzlük qazanmış şəhidlərimizin nurlu siması ən uca zirvədə – şəhidlik zirvəsində qərarlaşan bayraq kimi dalğalanırdı.

Şuşada olanda ana təbiətin yaşıl vadisindəki gül-çiçəyin yağışında islandıq. Hər arzu etdiyimiz anlarda gəlmək mümkün olmadığı üçün, insan az qalır ki, burada keçən hər anını əlləri ilə tutub saxlasın.

Cıdır düzünü qollarımı açıb qucaqlaşırmış kimi seyr edəndə, İsa bulağının təşnə ürəkləri sərinlədən suyundan içəndə muğamımızın beşiyi, Xarıbülbülün keşiyi sayılan Şuşamızda böyük şəxsiyyətlərin yetişməsinin səbəbini anlayıram. Şuşa xalqımızın tarixinin və memarlığının iftixarıdır.

O yerlərdən ayrılanda dönüb gəldiyim yollara baxdım. Sanki könlümün sultanı, anamın laylasının təsirindən burda şirin yuxu tapmışdım. Yuxudan ayılanda Şuşanın dumanlı dağlarının əzəməti, Qarabağın qənirsiz təbiəti arxada qalsa da, ürəyimdəki duyğular xəzinəsini özümlə gətirdim:

**Yuxuma girdin yenə,**
**Yuxuda gördüm yenə.**
**Gördüm Xarıbülbülü,**
**Qoxlayıb dərdim yenə...**

Səmimi düşüncələrimi yazmağa, aldığım duyğusal təəssüratlara görə, "Vətən Müharibəsi Qəhrəmanı" Ramazan Hudulova şükranlarımı bildirirəm.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

**Oturub-durduğu dostları ilə birgə ona da çağırış vərəqi gəlmişdi. Hərbi komissarlığa da dostları ilə yollandı. Çağırışçıları tibbi komissiyadan çıxarandan sonra məlum oldu ki, onun çəkisi normadan bir neçə kiloqram az gəldiyindən həlalik hərbi xidmətə yararsızdır.**

# Su yanğısını torpaq söndürdü...

## Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü şərəfinə



Səfərbərlik müddətinin başa çatmasına hələ 15–20 gün qalırdı. Elə bil, oğlan iştaha gəlib qarın açmışdı. Az qala, bütün günü ağzı işləyirdi. Əvvəllər gün ərzində yediklərini indi az qala bir oturuma həzm-rabedən keçirən oğullarının bu iştahına ata-ana ürəklərində sevinir, şadlanırdılar.

Oğlan da gözgörəsi, elə bil, hər gün kökəlir, ətə-qana dolurdu. Eşidib bilirdi ki, gün ərzində normadan artıq maye qəbul etmək də çəkini artırır. Çayla bir elə arası olmasa da, evdəkiləri şübhələndirməmək üçün arada çay da içirdi.

Çağırış müddətinin qurtarmasına 2-3 gün qalmış oğlan bir səhər təzədən hərbi komissarlığa yollandı. Yol boyu rast gəldiyi su köşklərinə keçir, dolu stəkanları dalbadal başına çəkib boşaldırdı. Soyuq aylar idi. Satıcılar gözaltı ona baxa-baxa başlarını bulayırdılar. Komissarlığa çathaçatda da tindəki su köşkünə keçdi. Bu dəfə üç stəkanı birbaşa başına çəkdi.

Köşkdən çıxanda arxasınca danışan satıcının acıqlı səsini eşitdi: "Elə bil, içi yanır! Boyuna-buxununa bir bax, zalım oğlu gör axşam nə qədər zəqqumlanıb ki, yanğısı hələ də sönmür". Geri çevrilib satıcıya baxa-baxa gülməkdən uğunub getdi...

Oğlan yerə-göyə sığmırdı. Evlərinə də sanki uça-uça qayıdırdı. Tibbi komissiyanın qərarı bu dəfə müsbət olmuşdu. Çəkisi normaya uyğun gəlmişdi. Oğlan evlərinə çatıb doyunca su içdi. Elə bil bu dəfə, doğrudan da, susamışdı.

...Səngərdə düşmənlə üz-üzə durmuşdular. Neçə saat idi ki, amansız döyüş gedirdi. Qarşı tərəf sayca onlardan qat-qat çox olsa da, mövqelərini tərk edib geri çəkilmirdilər.

Bir ara atəş səsləri kəsildi. Aralarında şəhid olan da vardı. O isə yaralanmışdı. Döyüşçü yoldaşları başının üstünü kəsdirmişdilər. Elə bil, yuxulu idi. Birdən gözlərini açıb: – Su, su, su, – deyə-deyə qurumuş dodaqlarını yaladı. Səngər yoldaşları çaşqın halda bir-birinin üzünə baxa-baxa qaldılar. Hamısının su qumqumaları boş idi. Elə bil, o da birdən bunu başa düşüb susdu. Ancaq qurumuş dodaqlarını yaladı.

Döyüş dostlarından biri qəflətən: – Yox, mən bu saat, mən bu saat... – deyərək səngərdən qalxmaq istədi. Ordan azca aralıda bir bulaq vardı. Səngər qazanda görmüşdülər.

Yenidən qarşı tərəfdən güllələr açıldı. Səngərdən baş qaldırıb aralanmaq açıq-açığına ölümə sarı getmək idi. Elə bil, yaralı əsgər dostunun niyyətini başa düşüb birdən dirçəldi. Təlaş qarışıq səslə: – Yox, yox, – dedi, – yanğım keçib getdi... Dirsəklənərək gülümsəməyə çalışdı.

– Bilirsinizmi, bəs mən elə bəlkə də bu suyun hesabına indi sizin aranızdayam, – deyib, onların lal-dinməz sual dolu baxışlarına baxa-baxa gülümsəyə bildi, sonra da onları çox intizarda saxlamadı. Kəsik-kəsik nəfəs ala-ala həmin çəki azlığı tarixçəsini danışıb, axır ki, tamamlaya bildi. Dərindən köks ötürüb dodaqlarını yaladı.

Düşmən gülləleri başları üstündən vıyıltı ilə uçub keçirdi. Səngərdən qalxmaq ölümlə üzbəüz qalmaq idi. Birdən-birə göy guruldadı. Toqquşan buludlar şaqqıldadı. Səngərdən ehtiyatla boylanan əsgərlər əvvəlcə bunu qarşı tərəfin qəfil həmləsi zənn etdi. Yox... İldırım çaxdı, leysan tökdü. Ancaq əlbəəl də kəsdi.

Yaralı əsgər üzü üstdə torpağa çökdü.

Bilmək olmurdu ki, o, nəmli torpağa dodaqlarını sürtməklə susuzluğunu söndürmək istəyirdi, yoxsa uğrunda qurban getdiyi torpağı son nəfəsində öpüb onunla vidalaşırdı...

Əsgər yoldaşları için -için göz yaşları axıdırdı.

***Aydın TAĞIYEV***

Təqvim yada salır

# Böyük alim və ictimai-siyasi xadim



**Adı dünyanın tanınmış elm korifeyləri ilə bir sırada dayanan görkəmli akademik Cəlal Əliyev Azərbaycanın biologiya və aqrar elmlərinin inkişafında nəzəri və tətbiqi elmi nəticələri ilə tarixə düşmüşdür.**

Sözügedən sahələrdə əldə edilmiş nailiyyətlərdə müstəsna rolu olan Cəlal Əliyev əsl elm fədaisi idi. 1970-ci illərdən başlayaraq onun bilavasitə rəhbərliyi və yaxından köməyi sayəsində Azərbaycanda həyata keçirilən "yaşıl inqilab" dalğası region ölkələrini də əhatə etmişdir. Hətta "Qaraqılçıq-2", "Mirbəşir-50", "Vüqar", "Şiraslan-23", "Tərtər", "Bərəkətli-95", "Əlincə-84", "Ruzi-84" və başqa buğda sortları Özbəkistan, Türkmənistan, Gürcüstan və s. respublikalarda tətbiq olunmuş və hər hektardan 60–95 sentner məhsul götürülməsi təmin edilmişdir. Bu sahədə akademikin CIMMYT və ICARDA ilə birgə apardığı tədqiqatlar xüsusi diqqətə layiqdir.

Cəlal Əlirza oğlu Əliyev 30 iyun 1928-ci ildə Naxçıvanda anadan olub. Naxçıvan Dövlət Müəllimlər İnstitutunda təbiət-coğrafiya, Azərbaycan Dövlət Universitetində (ADU, indiki BDU) biologiya üzrə təhsil alıb. 1948-ci ildən ADU-nun Bitki fiziologiyası kafedrasında laborant işləyib. Sonra Azərbaycan EA-nın Elmi Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışıb. Botanika İnstitutunda fotosintezin fiziologiyası yaradıcı qrupunun rəhbəri, laboratoriya müdiri, şöbə müdiri kimi məhsuldar fəaliyyət göstərib. Baş direktor kimi sanballı elmi tədqiqatlara və onların tətbiqinə misilsiz xidmətlər göstərib. 1980-ci ildə EA-nın həqiqi üzvü seçilib, biologiya elmləri bölməsinin akademik-katibi olub. YAP Siyasi Şurasının üzvü, 4 çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi ictimai-siyasi fəaliyyəti də nümunə idi.

Akademik Cəlal Əliyevin yaratdığı sortların kənd təsərrüfatında tətbiqi onların diversifikasiyasına, əhali, fermerlər və kənd təsərrüfatı müəssisələri tərəfindən becərilən bitkilərin və onların sortlarının qorunmasına və müxtəlifliyinin artırılmasına çox böyük dəstək olub. Onun bitki genetik ehtiyatlarının milli və dünya genefondunun səmərəli istifadəsi sahəsində apardığı genişmiqyaslı fundamental tədqiqatları milli genefondun zənginləşdirilməsində, ərzaq təhlükəsizliyinin təmin edilməsi və xalqın rifah halının yüksəldilməsi ilə davamlı inkişafa nail olunmasında, eləcə də bioloji ehtiyatların etibarlı mühafizə edilməsində əvəzsiz rol oynayıb. Cəlal Əliyevin seleksiya proqramı da çoxcəhətli və hərtərəfli idi. Bu proqram daim fəaliyyətdə və inkişafda olan, təkrarolunmaz, hissələri bir-birini tamamlayan, dayandırılması və ya zəiflədilməsi mümkün olmayan bir mexanizm, bir sistem xarakteri daşıyırdı.

İctimai-siyasi formasiyanın dəyişdiyi, elmi tədqiqatlar sistemində tənəzzülün yarandığı 80-ci illərin sonu–90-cı illərin əvvəllərində akademik Cəlal Əliyev hər cür təqib və təzyiqlərə rəğmən, seleksiya proqramını həyata keçirmək üçün alim kollektivini qoruya bilib. Özü kimi fədailəri, ardıcıllarını ruhdan düşməyə qoymayıb. Çətinliklərə baxmayaraq, həmin illər milli genefondun istifadəsi ilə aparılan seleksiya işləri nəticəsində yüksək məhsuldar buğda sortları yaradılıb və rayonlaşdırılıb.

Nəhayət, xalqın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın dirçəlməsi ilə elm də layiqli qayğı və diqqətlə əhatə olundu, qarşıya ciddi tələblər qoyuldu. Ölkədə torpaq islahatları vüsət aldı, elmi nailiyyətlərə yeni nəfəs verildi. Cəlal müəllimin məsləhətləri əsasında 2007–2011-ci illərdə həyata keçirilən aqrar Tədqiqat Sisteminin modernləşdirilməsi proqramı çərçivəsində kənd təsərrüfatında məhsuldarlığın və məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün fermerlərin tətbiqi texnologiyalara və yeni sortların toxumlarına çıxış imkanlarını gücləndirmək mümkün oldu. O dövrdən Elmi-Tədqiqat Əkinçilik İnstitutunda yaradılan 10 yeni sort (6 yumşaq buğda, 1 bərk buğda, 1 arpa, qarğıdalı, 1 mərcimək və 1 yerfındığı sortu) Seleksiya Nailiyyətlərin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasında rəsmi qeydiyyatdan keçərək rayonlaşdırıldı. Fermerlərin əvvəllər geniş sahələrdə əkdikləri sortlar yeniləri ilə sürətlə əvəzlənməyə başladı. Bunlara elm patriarxı Cəlal Əliyevin rəhbərliyi ilə yaradılmış və qeydiyyatdan keçmiş "Qobustan", "Tale-38", "Əzəmətli 95", "Ruzi 84", "Aran", "Qırmızı gül", "Zirvə-85", "Qızıl" buğda sortları daxildir. Qeyd edilən sortlar bölgə təcrübə stansiyalarında və bir çox fermer təsərrüfatlarında hər hektardan 5 tondan artıq məhsul verirdi.

"2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair "Dövlət Proqramı"nın əsas hədəf göstəricilərində ölkə üzrə dənli bitkilərin əkin sahələrini 900 min hektara, məhsuldarlığı hektardan 3,2 tona, ümumi istehsalı 2,8 milyon tona çatdırmaq nəzərdə tutulurdu. Bu məqsədlə yeni məhsuldar sortların yaradılması, sınaqdan keçirilməsi və rayonlaşdırılması, həmçinin yeni istehsal texnologiyalarının tətbiqinə xüsusi önəm verilirdi. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə xarici ölkələrin alimləri, FAO-nun və İCARDA-nın dəstəyi ilə ilk dəfə olaraq ölkədə bir ildə 2 dəfə məhsul alınması texnologiyası tətbiq edilmiş, minlərlə fermer bu texnologiyalar barədə məlumatlandırılmışdı.

Görkəmli akademik yarım əsrdən çox bir müddətdə bitkilərin genetik müxtəlifliyinin keşiyində durub. 1995-ci ildə C.Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə respublikanın müstəqillikdən sonrakı vəziyyəti əks etdirmək üçün bitki genetik ehtiyatlarının ətraflı təhlili əsasında I ölkə məruzəsi hazırlanıb, FAO-ya təqdim edilərək beynəlxalq ekspertlər tərəfindən təhlillərin dərinliyi və irəli sürülən müddəaların istifadəsi baxımından çox yüksək qiymətləndirilib. Onun təşəbbüsü ilə Bioloji Müxtəlifliyə dair Beynəlxalq Konvensiyanı Milli Məclis 2000-ci ildə ratifikasiya edib. Milli Proqramın hazırlanmasında və ölkədə BGE üzrə strateji xəttin müəyyənləşdirilməsində göstərdiyi iradə və elmi uzaqgörənlik sonrakı 10 il ərzində öz bəhrəsini verib, genetik ehtiyatların toplanması, artırılması və saxlanılması sahəsində böyük işlər görülüb. Bütün bunları mötəbər beynəlxalq ekspertlər yüksək qiymətləndiriblər və Azərbaycan FAO-ya qəbul olunub.

Ümummilli lider Heydər Əliyev 21 dekabr 2001-ci il tarixli sərəncamla Genetik ehtiyatlarla bağlı kompleks tədbirlərin reallaşdırılması üzrə Dövlət Komissiyası yaradıb. Akademik Cəlal Əliyevin rəhbərliyi ilə 2004-cü ildə Biomüxtəlifliyə dair I ölkə məruzəsi, Bioloji Müxtəlifliyin Mühafizəsi və Səmərəli İstifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı hazırlanıb, 2006-cı ildə Azərbaycan Respublikasının Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı olan Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilib.

Böyük islahatçı, novator alim və təşkilatçı olan Cəlal müəllim genetik ehtiyatlarla bağlı hərtərəfli elmi fəaliyyətləri və koordinasiya işlərini gücləndirməyi, Azərbaycanda ilk dəfə olaraq genetik bank yaratmağı, genetik ehtiyatların toplanması, inventarlaşdırılması, mühafizəsi və səmərəli istifadəsinin elmi əsaslarının hazırlanmasını və tətbiqini həyata keçirməyi qarşıya bir məqsəd kimi qoymuşdu. Məhz onun təşəbbüsü və uzaqgörənliyi sayəsində 2003-cü ildə AMEA Genetika və Seleksiya İnstitutunun bazasında bu məqsədlərin həyata keçirilməsində həlledici rol oynaya biləcək bir mərkəz – Genetik Ehtiyatlar İnstitutu və daha sonralar onun strukturunda Milli Genbank yaradılıb.

Əlamətdar haldır ki, 2011-ci ildə Milli Məclis Cəlal müəllimin neçə illər uğrunda çalışdığı və istiqamətverici tövsiyələri nəzərə alınmaqla hazırlanmış "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Qanunu qəbul edib.



Böyük akademikin daim önəm verdiyi ən vacib məsələlərdən biri yüksək ixtisaslı kadrların hazırlanması idi. Multidissiplinar istiqamətdə innovativ tədqiqatların aparılması məqsədilə 70-ci illərdən başlayaraq müxtəlif ixtisaslar: biologiya, kimya, fizika, riyaziyyat, aqronomiya və b. üzrə ali məktəb məzunlarından ibarət elmi kollektivin hazırlanmasına başlanmışdır.

Cəlal Əliyevin elmi və ictimai xidmətləri qədirbilən Azərbaycan xalqı və dövləti tərəfindən də yüksək qiymətləndirilib. O, Azərbaycanın Əməkdar elm xadimi adını almış, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni (1972, 1986), Azərbaycan Respublikasının ali mükafatı – "İstiqlal" ordeni (2003), Gürcüstan Respublikasının "Şərəf" ordeni (2003), Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu (2008) və Azərbaycan Respublikasının "Şərəf" ordeni (2013) ilə təltif olunub.

Akademik C.Əliyev Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının, Ukrayna Aqrar Elmləri Akademiyasının, Belarus Respublikası Aqrar Elmləri Akademiyasının xarici üzvü; Bitkilərin Molekulyar Biologiyası Beynəlxalq Cəmiyyətinin; Fotosintez Tədqiqatları üzrə Beynəlxalq Cəmiyyətin, Yaponiya Bitki Fizioloqları Cəmiyyətinin, Hüceyrə stresi üzrə Beynəlxalq Cəmiyyətin üzvü idi. Cəlal Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü; UNESCO yanında bioetika, elm və texnologiyanın etikası üzrə Milli Komitənin rəhbəri; Yeni Bitki Sortlarının Qorunması üzrə Beynəlxalq Cəmiyyətin (UPOV) səlahiyyətli nümayəndəsi; Azərbaycan Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin sədri; Biologiya Elminin Yeni Sahələrinin İnkişafı Fondunun (BEYSİF) prezidenti kimi titulları da onun tərcümeyi-halının parlaq səhifələrini təşkil edib.

Akademik Cəlal Əliyev biologiya və aqrar elmləri sahəsində elə "ilk"lərə imza atıb ki, onların davamlı olduğu göz qabağındadır. Görkəmli alim və müəllim tərəfindən qoyulmuş bu irs bizim üçün ən böyük töhfədir və indi də inamla davam etdirilir.

***Zeynal ƏKPƏROV,***
***Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi***

Xəlil İsmayılov – 80

# Mənəvi xəzinəmizin xiridarı

**Müdriklər insan ömrünü daşlı-kəsəkli, mübarizələrdən keçən bir yola bənzədiblər. Onilliklər, yubileylər bu yolda hesabat məqamları kimi əlamətdardır. Azərbaycan təhsilinə, kibabşünaslıq elminə dəyərli töhfələr vermiş Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Xəlil İsmayıl oğlu İsmayılovun 80 yaşının tamam olması bu baxımdan zəngin və öyünclü bir ömür zirvəsidir.**



Lev Tolstoy "Bəyaz gecələr" əsərinin əvvəlində oxucuyla belə bir sual ünvanlayır: "Doğrudanmı belə bir səma altında müxtəlif xasiyyətli insanlar yaşayır?" Bəli, insanların xasiyyətləri kimi, ömür yolları da fərqli və bənzəsizdir. Kiminin həyatı bir vərəqi belə doldura bilməyəcək qədər bəsit və kasad, kimlərinsə keçdiyi yol romanlar qədər çoxsəhifəli, zəngin və mənalıdır. Pprofessor Xəlil İsmayılovun xalqa xidmətlə mənalanmış bioqrafiyası ictimai dəyəri ilə seçilir, nəsillərə örnək olan bir məzmun daşıyır.

Xəlil İsmayılov 1 iyul 1945-ci ildə Azərbaycanın dilbər guşələrindən biri olan Gədəbəy rayonunun Düzrəsullu kəndində, zəhmətkeş bir ailədə dünyaya göz açıb. II Dünya savaşının iştirakçısı olmuş İsmayıl kişi ailəsinin çətin şəraitdə yaşamasına baxmayaraq, Xəlilin ali təhsil almaq, elmi fəaliyyətini davam etdirmək arzusuna dayaq olub. Xəlil doğulduğu kəndin yeddiillik, Çay Rəsullu kəndində orta məktəbi bitirib. Hərbi xidmətdən sonra 1967-ci ildə Bakıya gələrək neft emalı zavodunda fəhlə işləyib, Baki Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə daxil olub. 1972-ci ildə ali təhsili bitirib orduya yardım cəmiyyətində müxtəlif vəzifələrdə çalısıb.

1974-cü ilə doğma fakültəyə dəvət alan Xəlil İsmayılov kitabxanaşünaslıq kafedrasının laborant kimi işə qəbul edilib, aspiranturaya daxil olub Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi alıb. Kafedranın müəllimi, baş müəllimi, dosenti olub. 2004-cü ildə isə doktorluq dissertasiyasını müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülüb.

Professor Xəlil İsmayılov 1990–1993-cü illərdə kitabxanaçılıq kafedrasının müdiri, 1993–2012-ci illərdə kitabxanaşünaslıq-informasiya fakültəsinin dekanı, 2007–2019-cu illərdə isə kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri vəzifələrində işləyib. Alim 1997-ci ildən nəşr olunan "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalının təsisçisi və baş redaktorudur. 1999-cu ildən "Azərbaycan Kitabxana İşinin İnkişafı" İctimai Birliyinin idarə heyətinin sədridir.

Tanınmış kitabxanaşünas Xəlil İsmayılov ABŞ (Boston), Fransa (Nitsa, Leon, Kan), Belçika (Brüssel, Namur), Norveç (Oslo), və Koreyada (Seul), Rusiya, Gürcüstan və digər ölkələrdə keçirilmiş forumlarda və İFLA-nın iclaslarında Azərbaycan kitabxana cəmiyyətini təmsil edib, beynəlxalq məclislərdə elmi məruzələrlə çıxış edib. Soydaşımız "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi: (1918–2000-ci illər)" monoqrafiyasının, "Kitabxana işinin təşkili və idarə edilməsi", "Kitabxana menecmentinin əsasları", "Kitabxana-informasiya texnologiyaları", "Kitabxana işinin idarə edilməsinin metodiki təşkilatı məsələləri" kitablarının, 300-dən çox proqram, dərs vəsaiti, məqalə və məruzənin müəllifi, "Sənədlərin biblioqrafik təsnifləşdirilməsi", "Sənədlərin biblioqrafik təsviri" dərsliklərinin, "Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. Biblioqrafik göstərici (1997 - 2018)" kitabının həmmüəllifidir.

Professor Xəlil İsmayılovun rəhbərliyi ilə 10 nəfərdən çox aspirant və doktorant fəlsəfə və elmlər doktoru dissertasiyaları müdafiə edib. O, AMEA Tarix və Etnologiya İnstitutunda Dissertasiya Şurasının nəzdində fəaliyyət göstərən "Kitabxanaşünaslıq, bibliqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisası üzrə Elmi Seminarın sədridir. Azərbaycanlı alim BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilib. Təcrübəli kitabxanaşünas "Kitabxana işi haqqında" Qanunu hazılayan işçi qrupunun üzvü olub.

Xəlil üçün kitabxana milli yaddaşın qoruyucusu, xalqın mənəvi özəyini yaşadan, zamanın dilində danışan ruha sahib canlı bir varlıqdır.

Çoxyönlü ictimai fəaliyyətlər onun cəmiyyətdə onun "vətənə xidmət edən alim" obrazını yaradıb və pedaqoq alimə geniş hörmət qazandırıb. Alimin elmi və ictimai fəaliyyəti dövlət tərəfindən də yüksək qiymətləndirilib. O, 2009-cu ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2019-cu ildə isə "Tərəqqi" medalına layiq görülüb. Səmərəli pedaqoji fəaliyyətinə görə alim "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə, BDU rektorunun "Fəxri fərman"ları ilə təltif olunub.

Professor Xəlil İsmayılov tələbələrə yalnız ixtisaslarını deyil, həm də həyatı öyrədən müəllimlərdəndir. "Alim olmaq üçün əvvəlcə insan olmaq lazımdır" deyimi onun pedaqoji və insani yanaşmasının fəlsəfəsini tam ifadə edir. Xəlil müəllimin xarakterindəki səbr, əzmkarlıq və dürüstlük öyrənmək və öyrətmək kimi digər mənəvi keyfiyyətlərlə də həmahənglik təşkil edir. Onun yazdığı əsərlər kitabxanaların idarə olunması, informasiya xidmətlərinin təşkili, oxucularla işin yeni formatda aparılması üçün konkret üsullar təqdim edir.

Maarifçi obrazı eyni zamanda, kitabla cəmiyyətin münasibətini dəyişmək istəyən bir ziyalı kimi fəaliyyəti ilə də zənginləşir. O, kitabın yalnız bilik mənbəyi deyil, həm də milli kimliyin, mənəvi dəyərlərin, estetik zövqün daşıyıcısı olduğunu dönə-dönə vurğulayır. Məhz bu baxış bucağından yanaşaraq professor Xəlil İsmayılov kitabı "ictimai dəyərlərin səssiz daşıyıcısı" kimi təqdim edir.

Kitabxanaşünas professorun xarakterini səciyyələndirən əsas cəhətlərdən biri də onun təhsildən, tələbədən, cəmiyyətdən uzaq düşməməsi, daim insanlarla xoş ünsiyyətdə olmasıdır. Elmə və insana yanaşmasında Xəlil İsmayılovu fərqləndirən əsas dəyərlərdən biri də səmimiyyəti və xeyirxahlığıdır. O, öz bilik və təcrübəsini paylaşarkən heç vaxt üstün mövqeyi sərgiləmir, əksinə, auditoriyanın mövqeyinə hörmətlə yanaşır.

Xəlil İsmayılov gözəl ailə başçısı kimi övladlarını da yüksək səviyyəli ziyalılar kimi yetişdirib. Onun ailəsi, elmə və mədəniyyətə dərin bağlılığı ilə tanınır. Əsl ziyalı ömrü yaşayan Xəlil İsmayılov akademik fəaliyyətini, müəllimlik missiyasını gənc nəsillərin yetişməsi, inkişaf etməsi üçün fəaliyyət meydanı və xidmət imkanı sayır. Onun tez-tez işlətdiyi bir ifadə də var: "Kitabxanalar susmur – onları danışdıranlar var". Bu yanaşma təkcə poetik deyim deyil, həm də yubilyarın 80 illik ömür yolunun fəlsəfi ifadəsidir.

***İsmayıl ƏLİYEV,***
***BDU-nun kafedra müdiri, professor***

# Ağdama 37 Kəngərli ailəsi də qayıtdı

**İyunun 30-da Ağdam rayonunun Kəngərli kəndinə köçürülən 153 nəfərdən ibarət 37 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib.**



Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 43 mindən çox insan yaşayır.

*XQ*

**Azərbaycan Milli Mətbuatı – 150**

# Milli mətbuatımızın Gürcüstan qaynaqları

**150 illik milli mətbuatımızın bir qanadında da Gürcüstandakı Azərbaycandilli media dayanır. Borçalı ziyalılarının ərsəyə gətirdiyi mətbuat orqanları soydaşlarımızın həyatında mühüm rol oynayıb, dilimizi, mədəniyyətimizi, ictimai fikrimizi, düşüncəmizi, tariximizi canlandırıb, təbliğ edib. Gürcüstanın özünün media həyatında, ictimai mühitində Azərbaycandilli mətbuatın yeri ayrıcadır.**

Müsahibimiz, Gürcüstanın Azərbaycandilli mətbuatının tarixinin yorulmaz araşdırmaçısı, ADPU-nun Ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Razim Məmmədovla bu mövzuda danışdıq.

**– Gürcüstanda Azərbaycandilli mətbuat orqanlarının tarixi nə vaxtdan başlayır?**

– Məlumdur ki, Güney Qafqaz çar Rusiyası tərəfindən işğal olunduqdan sonra yerli əhalinin həyat tərzində müəyyən dəyişikliklər baş verdi, bəzi sahələrin inkişaf etdirilməsi üçün zəruri işlər görüldü. Qafqazda Azərbaycan xalqının özünəməxsus şərəfli tarixi, qiymətli maddi və mənəvi mədəniyyət abidələri ilə mühüm yerlərdən birini tutur. XIX əsrin birinci yarısında Güney Qafqazın mədəniyyət mərkəzi hesab olunan Tiflis şəhərində rus və gürcü dillərində bir sıra qəzetlər nəşr edilirdi. Qafqazda Azərbaycandilli mətbuatın yaranması məsələsi isə xeyli gecikmişdi. Bunun da bir sıra obyektiv və subyektiv səbəbləri mövcuddur. 1928-ci ildə Tiflis şəhərində "Tiflisskiye vedomosti" qəzeti rus dilində nəşrə başladı. Həmin qəzet 1829-cu ildə gürcü, 1830-cu ildə fars (cəmi 1 nömrəsi çıxmışdı), 1832-ci ilin əvvəlində isə Azərbaycan dilində buraxıldı. "Tiflis əxbarı" adı ilə Azərbaycan dilində buraxılan bu qəzet–vərəqənin ömrü uzun olmadı, onun son nömrəsi 1833-cü ilin əvvəllərində çap edildi. 1845-ci ildə isə Tiflisdə "Zakavkazskiy vestnik" qəzetinin əlavəsi kimi Azərbaycan dilində "Qafqazın bu tərəfinin xəbərləri" adlı qəzet–vərəqə buraxılıb. Bu qəzet 1846-cı ildə bağlandı.

**– Bəs orda Azərbaycan müəlliflərinin imzaları necə görünürdü?**

– İstər "Tiflis əxbarı", istərsə də "Qafqazın bu tərəfinin xəbərləri" qəzetlərinin əsas vəzifəsi rəsmi dövlət məlumatlarını, qərar və qanunlarını Azərbaycan dilində yaymaqdan ibarət olsa da, Tiflisdə yaşayan Azərbaycan ziyalılarının xırda yazıları da çap olunurdu. Məsələn, ikinci qəzetdə A.Bakıxanovun nəsihətlərindən nümunələr işıq üzü görmüşdür.

Lakin etiraf etmək lazımdır ki, bu qəzetlərlə Azərbaycan mətbuatı yaranmadı, ancaq olsa-olsa, tədqiqatçıların da qeyd etdiyi kimi, onlar yalnız və yalnız yaranmaqda olan Azərbaycan milli mətbuatının rüşeymi oldular. Bəllidir ki, Azərbaycan mətbuatının yaranması tarixi 1875-ci ilin iyul ayının 22-də nəşrə başlayan "Əkinçi" qəzeti ilə bağlıdır.



Onu da vurğulamaq yerinə düşər ki, 1877-ci ildə "Əkinçi" qəzetinin nəşri dayandırıldıqdan sonra yenə də Tiflis şəhərində Azərbaycan dilində "Ziya" (1879), "Ziyayi-Qafqaziyyə" (1880), "Kəşkül" (1883) kimi mətbuat orqanları nəşr olunmuşdur. XX əsrin əvvəllərində isə Tiflisdə "Şərqi-Rus" (1903), "Molla Nəsirəddin" (1906) kimi məşhur mətbuat orqanları fəaliyyətə başladı.

**– Bu, hansı amillərin, hansı proseslərin təsiri ilə baş verdi?**

– Söylənilənlərdən çıxış edərək bildirmək istəyirəm ki, XIX əsrin istər birinci, istərsə də ikinci yarısında Tiflisdə, eləcə də Gürcüstanın azərbaycanlılar yaşayan bəzi bölgələrindən çıxan ziyalı həmvətənlərimizə çar imperiyası nə qədər qeyri-obyektiv münasibət bəsləsə də, imperiya daxilində onlara həqarətlə baxsalar da, soydaşlarımız sübut etdilər ki, onları savadsızlıqda, avamlıqda suçlamaq əsassızdır. Çünki burada yaşayan azərbaycanlılar ana dilində qəzet nəşr etdirə bilməsələr də, Tiflisdə çap olunan rusdilli mətbuatda müntəzəm çıxış edir, onların müxtəlif mövzularda yazıları bu qəzetlərdə işıq üzü görürdü. Bu mənada Ömər Faiq Nemanzadə, Mirzə Şərif Mirzəyev, Hüseyn Minasazov, Məhəmməd Şahtaxtlı və başqalarının yazıları "Qafqaz", "Zakavkazskiy vestnik", "Novoye obozrenie", "Zakavkaziya" və s. mətbuat orqanlarında işıq üzü görürdü. Hadisələrin gedişatı göstərirdi ki, imperiya nə qədər məhdudiyyət qoysa da, Azərbaycan dilli mətbuatın yaranması artıq qaçılmazdır. Çünki XX əsrin əvvəllərində Tiflisdə yaşayan azərbaycanlı ziyalıların sayı xeyli artmışdı və onlar milli mətbuatın yaranmasını israrla tələb edirdilər.

**– Bu mətbuat orqanlarının sayı, fəaliyyəti haqda nə demək olar?**

– Gürcüstanda Azərbaycan dilli mətbuatın sayı bu ölkə öz müstəqilliyini elan etdikdən sonra daha da artdı. Onu da xatırladım ki, təkcə 1918–1921-ci illərdə Tiflisdə Azərbaycan dilində bir sıra qəzet və jurnallar işıq üzü gördü. Onlardan "Gələcək" (1918), "Albayraq" (1918), "Vətən" (1920), "Yeni dünya" (1918), "Gənclər yurdu" (1919), "Tartan-partan" (1919) və başqa qəzet və jurnallar Azərbaycan xalqının milli azadlıq hərəkatını müdafiə etmiş, demokratik Azərbaycan Respublikasının yaranmasını alqışlamış, ideya istiqamətlərini bu respublikanın mənafeyini qorumağa yönəltmişlər.

**– O nəşrlərdən nümunələr necə qorunub saxlanılıb?**

– Təəssüflə qeyd etməliyəm ki, adlarını çəkdiyimiz mətbuat orqanlarının nüsxələrinin əksəriyyəti sonradan itib-batmış və ya qəsdən məhv edilmiş, qalanlar isə lazımınca qorunub saxlanmamışdı.

Yeri düşmüşkən onu da xatırladaq ki, Acarıstanda da 1920-ci ilə qədər Azərbaycan dilində bir neçə qəzet işıq üzü görüb. Burada nəşr olunan qəzetlərdən "Sədai millət", "İslam Gürcüstanı" yarı Azərbaycan, yarı gürcü dilində nəşr olunub. Adlarını çəkdiyimiz qəzetlərdən birincisi Acarıstan Milli Şurasının orqanı olub, ikincisi isə Abaşidzelərin (xüsusilə Məmməd bəy Abaşidzenin, onun türk təxəllüsü Sancaqbəyzadə olmuşdur) vəsaiti ilə çıxıb.

**– Sovet illərində də xeyli qəzetin nəşr edildiyi məlumdur…**

– Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Tiflisdə əvvəlcə "Kommunist" (1921), sonra isə "Yeni fikir" (1922) nəşrə başladı. Bu qəzetlərin ilk redaktorları Məmmədəli Nasir, Həsən Səbri, Hüseyn Səmih, Ə.Muvandi və b. olub.

N.Nərimanovun 1922-ci ildə Tiflisdə olması "Yeni fikir" qəzetinin nəşrini sürətləndirir. Onun məsləhəti ilə Tiflisdə yaşayan azərbaycanlı ziyalılardan Ələkbər Qərib, Əziz Şərif, Əli Yazıdçı, Rzaqulu Nəcəfov, Ömər Faiq qəzetin nəşrinə cəlb olunurlar. N.Nərimanov qəzet üçün şrift və dəzgahların gətirilməsinə yardım edir. Qəzet 1922-ci ildən Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Şurasının orqanı olaraq gündəlik nəşr edilir. 1926-cı il yanvarın 26-da "Yeni fikir" qəzetinin 1000-ci nömrəsi işıq üzü görmüşdür.

"Yeni fikir" qəzeti 1927-ci il may ayının 31-də nəşrini dayandırmış, bundan 1 ay sonra – 1927-ci il iyun ayının 30-da Tiflisdə "Yeni kənd" adı ilə nəşrini davam etdirmişdi. Qəzet 1939-cu ildə "Sovet Gürcüstanı" adı ilə çap olunmuş, keçən əsrin 90-cı illərinin əvvəllərindən isə "Gürcüstan" adı ilə indi də çap olunmaqdadır.

**– Bildiyimiz qədər, Gürcüstanda Azərbaycan dilində bədii mətbuat vasitələri də olub. Bu haqda nə deyərdiniz?**

– Gürcüstanda nəşr olunan nüfuzlu mətbuat orqanlarından biri də "Dan ulduzu" ədəbi-elmi jurnalı olmuşdur. Gürcüstan və Ermənistan SSR Yeni Türk Əlifbası Komitəsinin orqanı kimi latın əlifbası ilə nəşr olunmuşdur. Jurnalın ilk nömrəsi 1926-ci ilin may ayında çıxmışdır. "Dan ulduzu" jurnalı Gürcüstanda yaşayan azərbaycanlıların ictimai həyatını müvəffəqiyyətlə əks etdirmiş, ədəbiyyat, mədəniyyət və incəsənət məsələlərinə geniş yer ayırmış, xüsusilə Azərbaycan ədəbiyyatının təbliğində böyük rol oynamışdır. Odur ki, jurnal yalnız Qafqazda deyil, Orta Asiya respublikalarında da sevilə-sevilə oxunmuş, onun sorağı keçmiş SSRİ-nin müxtəlif guşələrindən gəlmişdir. Çəkinmədən qeyd etmək mümkündür ki, "Dan ulduzu" jurnalı, sözün əsl mənasında, ədəbi məcmuə olmuşdur. Buna görə də onu Azərbaycan mətbuatı tarixinə ədəbi jurnal kimi daxil etmək yerinə düşərdi.

Milli mətbuat tariximizdə şərəfli yerlərdən birini tutan "Dan ulduzu" jurnalının son 54–55-ci birləşdirilmiş nömrəsi 1931-ci ilin avqust ayında buraxılmışdı. Jurnal bağlandıqdan sonra Gürcüstan Yeni Türk Əlifbası Komitəsi onun əvəzinə "Şərq kolxozçusu" adı ilə yeni bir məcmuə buraxmışdır. Bu jurnalın 6 nömrəsi çıxdıqdan sonra 1931-ci ilin dekabr ayında bağlanmışdır. Bu jurnalları müxtəlif illərdə Ələkbər Qərib, Saleh Zəki, Əlisəttar İbrahimov kimi istedadlı mühərrirlər redaktə etmişlər.

Gürcüstanda nəşr olunan uzunömürlü mətbuat orqanlarından biri də "Qızıl şəfəq" adlı uşaq jurnalı olmuşdur. 1926-cı ilin sentyabrında nəşrə başlayan jurnal 1930-cu ilin yanvar ayından "Yeni qüvvə", 1939-cu ildən isə "Gənc nəsil" adı ilə fəaliyyətini davam etdirmişdir. Jurnalın səhifələrində təlim-tərbiyə məsələlərindən bəhs edən çoxlu şeir, hekayə, povest, kiçik həcmli pyeslər çap edilmişdir. Səhifələrində çoxlu folklor nümunələrinə – tapmaca, atalar sözü, lətifə və nağıllara da təsadüf olunur. Müxtəlif dövrlərdə bu jurnalların məsul redaktorları Sirac Məmmədov, Əbil Əhmədov, Mirzə Mirzəyev, Əbil Ucarlı, Cəfər Mürşüdlü, Abidə Nəsibli, İbrahim Babayev kimi istedadlı mühərrirlər olmuşlar.

**– Azərbaycandilli mətbuatın inkişaf dövrü də olub, yəqin ki…**

– Keçən əsrin 30-cu illərindən başlayaraq, Gürcüstanda Azərbaycandilli mətbuat orqanlarının sayı xeyli artdı. Belə ki, Tiflisdə nəşr olunan mərkəzi qəzet və jurnallarla yanaşı, azərbaycanlılar yaşayan rayonlarda da bir sıra qəzetlərin nəşrinə icazə verildi. Bu illərdə Sarvanda (indiki Marnueli) "Pambıqçı" (1931), sonra isə "Stalin yolu", Lüksemburqda (indiki Bolnisi) "Al bayraq" (1938), Başkeçiddə (indiki Dmanisi), "Sosializm maldarlığı" (1935), Qarayazıda (indiki Qardabani), "Stalinçi" (1931), Adıgündə "Qızıl rəncbər", sonra isə "Adıgün kolxozçusu" (1936), Axalsixdə "Kommunist" (1930), sonra isə "Sosializm kəndi" (1940) kimi qəzetlər Azərbaycan dilində çap olunmağa başladı.

Haqqında söhbət açdığımız rayon qəzetlərinin üçü – "Adıgün kolxozçusu" (Adıgün rayonu), "Qızıl bayraq" (Axalsixi rayonu), "Sosializm kəndi" (Aspinza rayonu) qəzetlərinin nəşri məlum səbəbdən – Ahısqa türklərinin elliklə bu yerlərdən qanunsuz və əsassız olaraq sürgün edilməsindən sonra 1944-cü ilin axırlarında dayandırıldı. Sarvanda (Marneuli) çıxan "Stalin yolu" qəzeti, "Yeni Marneuli", Luksemburqda (Bolnisi) çıxan "Al bayraq" qəzeti, "Qələbə bayrağı" qəzetləri, Başkeçiddə (Dmanisi) buraxılan "Sosializm maldarlığı" qəzeti "Trialeti" Qarayazıda (Qardabani) nəşr edilən "Stalinçi" qəzeti "Samqori" adları ilə son vaxtlara qədər yarıazərbaycan, yarıgürcü dilində nəşr olunurdu.

**– Keçən əsrin 90-cı illərindən sonra o nəşrlərin vəziyyəti necə oldu?**

– Təəssüflə qeyd etmək lazımdır ki, 1990-cı illərin əvvəllərinə qədər bu qəzetlərin Azərbaycan bölmələri bir sıra ciddi təzyiqlərə məruz qalmış, onların potensial imkanları xeyli məhdudlaşdırılmışdır. 1990-cı ilin ortalarında "Yeni Marneuli" qəzeti "Kvemo Kartli" ("Aşağı Kartli"), "Tələbə bayrağı" qəzeti isə "Bolnisi" adlandırılmışdır. Bundan az sonra isə əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etməsinə baxmayaraq, Bolnisi rayonunda nəşr edilən "Bolnisi", Dmanisi rayonunda çıxan "Trialeti" qəzetlərinin Azərbaycan bölmələri heç bir səbəb olmadan bağlandı.

***İradə SARIYEVA***

---

**Yeni nəşrlər**

# Azərbaycanşünaslığı türkşünaslığa qovuşduran fundamental əsər

**Akademik Nizami Cəfərovun tarixi zamanın geniş arealında Azərbaycanda milli dövlətçilik təfəkkürünün, türk dünyasında isə türkçülük düşüncəsinin formalaşmasına, eyni zamanda, bu iki xəttin paralelləşərək – vəhdətlənməsinə dair irəli sürdüyü qənaətlər, gəldiyi nəticələr elmi-nəzəri ümumiləşdirmə tutarı ilə birgə, mühüm ideoloji-siyasi əhəmiyyət daşıyır .**

Görkəmli azərbaycanşünas türkoloq min səhifəlik "Azərbaycanşünaslıqdan türkşünaslığa" adlı son monumental kitabında "hər bir xalqın ən böyük əsəri onun müstəqil dövlətidir – bu və ya digər dərəcədə müstəqil dövləti (və milli dövlətçilik təfəkkürü!) olmayan xalq özünü – yaradıcılıq potensialını tam gücü ilə, bilavasitə ifadə etmək imkanlarından məhrumdur" – başlıca tezisi ilə Azərbaycanda etnokulturoloji özünüdərkdən milli-siyasi özünütəsdiqə – yəni dövlət yaratmağa doğru gedən tarixi prosesləri araşdırır.

Azərbaycanın, eləcə də türk dünyasının sayılan bilgini Nizami Cəfərov yüksək səviyyəli elmi araşdırmalar aparılmasının bacarıqlı təşkilatçısı olmaqla yanaşı, humanitar elmlərin ortaq metodoloji kompleksini yarada bilən və daha çox bu müstəvidə tədqiqatlar aparan ensiklopedik qabiliyyətə malik bir alim kimi də həm Azərbaycan, həm Türkiyə, həm də digər türk respublikalarında nüfuza, mötəbər saygıya malikdir.

Azərbaycanşünaslıq çağdaş elmimizin ana xətti kimi, təbii ki, belə bir alicənab türkün geniş qəlbindən dərilə bilərdi – akademik Nizami Cəfərovun. "Azərbaycanşünaslıqdan türkşünaslığa" – alimin "epik" fəaliyyətinin ən fundamental bəhrəsi, onun çoxillik gərgin elmi yaradıcılıq axtarışlarının, mənim fikrimcə, birinci mərhələsinin yekun əsəridir. Azərbaycanşünaslıq – bu əsərlə dünya miqyasına tam rasional dəyərində, ölkəmizin simasını tanıdan, onun tarixini və perspektivlərini gerçək anladan ən etibarlı qaynaq statusundan çıxmaq imkanı qazanır.

Akademik azərbaycanşünaslığın konseptual ideyasını belə müəyyən edir: "Azərbaycanşünaslıq yalnız elmi-nəzəri, yaxud akademik bir sistem deyil, həm də get-gedə daha geniş yayılmaqda, Azərbaycan Respublikasının dövlət siyasətinə, dünyanın müxtəlif ölkələrində, təxminən, 500 min kv. km-lik ərazisi olan tarixi Azərbaycanda məskunlaşmış azərbaycanlıların dünyagörüşünə çevrilməkdə olan ideologiyanın elmi-metodoloji əsasıdır". Nizami Cəfərovun azərbaycanşünaslığında Azərbaycan humanitariyasının fakt, nəticə və müddəaları təbii orqanikasında, bu elmin özünün fakt, nəticə və müddəalarının, onların ümumiləşdirilməsinin özülü şəklində meydana çıxır.

Akademik Nizami Cəfərovun "Azərbaycanşünaslıqdan türkşünaslığa" adlı kitabı "Etnos", "Dil", "Epos", "Din", "Ədəbiyyat" kimi bir-birini tamamlayan və ümumtürk–Azərbaycan mədəniyyətinin, demək olar ki, bütün inkişaf tarixini onun ən aktual problemlərini qaldırmaqla təhlildən keçirən 5 böyük bölümdən ibarətdir:

– Kitabda həm qədim, həm də müasir türklərin, eyni zamanda, Azərbaycan türklərinin etnogenezisindən onların yaratdığı mədəniyyətin tipologiyasına qədər zəngin fenomenal hadisələr və ona dürlü yanaşmalar elmi analizdən keçirilir, Azərbaycan ədəbiyyatı tarixinin, Azərbaycan mədəniyyətinin diferensiasiyası və inteqrasiya problemlərinə, milli-tarixi özünüdərketmənin məntiqinə yeni baxış təqdim edilir;

– qədim dövrdən orta əsrlərədək olan bir dövrdə türk dünyasının diferensiasiyası, Azərbaycanın etnokulturoloji coğrafiyasının müəyyənləşməsi – Azərbaycanın türkləşməsi, Azərbaycan xalqının təşəkkülü, Azərbaycan türkcəsinin formalaşması, ümumtürk ədəbi dilinin təşəkkülü, təkamülü və tənəzzülü, qədim (ümumtürk) eposundan orta əsrlər türk-oğuz eposuna, Tanrıçılıqdan İslama keçid mərhələləri, Dədə Qorquddan Nizamiyə, Nizamidən Nəsimi və Füzuliyə doğru ədəbi-bədii, fəlsəfi-estetik düşüncənin gəlişməsi araşdırılır;

– orta əsrlərdən yeni dövrə qədərki çağda Azərbaycan intibahının meydana çıxması, bu prosesdə müştərək Azərbaycan superetnosunun təşəkkülü, türk-oğuz eposundan Azərbaycan eposuna keçidin tipologiyası, Azərbaycan türkcəsinin milliləşməsi, Azərbaycan ədəbi dilində funksional üslubların təşəkkülü süreçləri tədqiq edilir; yeni dövrdən ən yeni dövrə qədərki bir mərhələdə milli mədəniyyətimizin müasirləşməsi, Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşması və onun ideoloji əsasları, çağdaş Azərbaycan mədəniyyətindəki tendensiyalar və onların perspektivləri, Quzey və Güney Azərbaycanda ədəbi, bədii dilin funksional mahiyyəti, milli düşüncə hərəkatı incələnir.

Bütün tədqiqat boyu aparılan analitik araşdırmalar bütövlükdə tarixi varlığımızın, milli düşüncə və mədəniyyətimizin qanunauyğunluqlarını təsbit edib sistemləşdirən ümumiləşdirmələrlə yekunlaşır. Qədim türk kökündən müasir Azərbaycana gəlincə, Vətənimizi tarixi-kulturoloji tamlığında duymaq və dərk etmək, Vətənimizin tarixi həyatının inkişaf dialektikasını duymaq və dərk etmək mümkün olur.

Türkologiyada, mədəniyyətşünaslıqda və digər müvafiq humanitar elmlərdə çoxlu dəyərli səylər olsa da, müəyyən elmi nəticələr əldə edilsə də, tam səmimiyyətlə demək olar ki, türk (Azərbaycan) tarixi-etnokulturoloji prosesləri indiyədək bu qədər mükəmməl elmi əsaslarda və təmiz türk qəlbi, türk zəkası ilə araşdırılmayıb, sistemləşdirilməyib, konseptual şəkildə nəticələndirilməyib.

Xüsusilə Azərbaycandakı etnogenetik və etnokulturoloji proseslərin, Azərbaycanın etnocoğrafiyasının genəlib daralmasının, tarixi Azərbaycanda dövlətlərin mənşəyinin şərh edilməsində iki zidd ifrat meyil bu kardinal problemlərin düzgün elmi əsaslarla öyrənilməsinə mane olub ki, həmin ifrat meyillərin tənqid edilməsi və problemin düzgün qoyuluşu Nizami Cəfərovun metodoloji konsepsiyasında mühüm yer tutur.




Türk dünyasının humanist xarakterinin dünya üçün nə demək olduğunu tədqiqatında yeri gəldikcə qabardan Nizami Cəfərov ümumtürk tarixini, bu tarix içrə Azərbaycan tarixini ənənəvi olaraq müharibələr, dinastiyalar və onların "mexaniki" əvəzlənmələri tarixi kimi yox, mədəniyyət tarixi, canlı dilə söykənən mənəviyyat tarixi, düşüncə, yaşantı və ruhu ilə birlikdə soy tarixi kimi araşdırır.

Türk ruhunun tükənməz potensiyasını çağ-çağ zühur etdirən söykək təməllərə – türk abidələrinə (zərif və möhtəşəm, döyüşkən və sülhsevər, müdrik və körpə kimi saf!) istinad edir. Azərbaycan və onun ətrafında gedən mürəkkəb tarixi prosesləri, mədəniyyət hərəkatlarını, ideologiya və dünyagörüşü dəyişmələrini – Azərbaycanın öz etnik-tarixi coğrafiyası konsepsiyasından çıxış edərək hərtərəfli araşdırmaya çəkir.

Ümumiyyətlə, akademikin çoxspektrli tədqiqat metodologiyasının əsas tədqiqat obyekti tarixi düşüncə və tarixi yaddaşın təməl daşı – dil və eposdur. Özü də alim həndəvəri ilə Azərbaycan tarixinin keçdiyi yolu həm tarixin öz məntiqi, həm də bu günün məntiqi ilə açıqlayır. Bu harmoniyadan da fakt çoxtərəfli sınanışlarında açılır. İdeolojiləşdirilmiş sovet tarixşünaslığında isə məhz bu çatmırdı.

Nizami Cəfərov Azərbaycan kulturologiyasının mühüm bir problemi kimi – İntibah problemini yenidən qaldırır. Ancaq bu dəfə başqa cür. Azərbaycanşünas alim 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində bu problem üzrə aparılan tədqiqatlardakı bütün səmərəli nəticələri qiymətləndirsə də, İntibah üçün seçilən dövrün (XI-XII əsrlər) düzgün müəyyənləşdirilmədiyi qənaətindədir. Ona görə ki, "XI-XII əsrlər Azərbaycan mədəniyyəti tipoloji baxımdan ümumşərq mədəniyyətinin tərkib hissəsi idi". Bu dövrün klassik ruhu ərəb, fars dilləri üzərində, ümumşərq estetikası özülündə köklənmişdi. İntibah isə – bütün tərəflərilə sırf milli mədəniyyət hadisəsi, onun ən yüksək səviyyəyə qalxması deməkdir.

XXI əsrin əvvəllərindən türk dünyasının tarixi taleyində onu labüd birliyə doğru aparan çox əhəmiyyətli dəyişikliklər, gələcəyə perspektiv açan hadisələr baş verib: Türk Dövlətləri Parlament Assambleyası (2008), Türk Dövlətləri Təşkilatı (2009) yaranıb və bu illər boyunca türk birliyi mühüm təsisatlanma proseslərini keçərək, Avrasiyanın türk geopolitik tarixini başladan daha məsuliyyətli və konstruktiv bir mərhələyə qədəm qoyub. Akademik Nizami Cəfərovun elmi yaradıcılığının ən qabarıq cəhəti də bundan ibarətdir ki, ümumtürk siyasəti və mədəniyyətinin bütün bu inkişaf dinamikası həmin yaradıcılıqda özünün dərin elmi təhlillərini tapıb.

Alimin son illər çap etdirdiyi kitab və məqalələrində Azərbaycan və türk dünyasının tarixi (və tarixşünaslığı), ədəbiyyatı (və ədəbiyyatşünaslığı), mədəniyyəti (və mədəniyyətşünaslığı) məhz türk dünyası birliyinin maraqları baxımından, həm də əsasən, "türkşünaslıq orbitində" – müasir humanitar elmlərin zəruri optik konsentrasiyası müstəvisində onların universal metodologiyası nöqteyi-nəzərindən öyrənilir və dəyərləndirilir.

Bu gün öz milli mədəniyyət və dövlətçilik tarixinə dərindən bələd olmaq istəyən hər bir azərbaycanlı Nizami Cəfərovun möhtəşəm türk kökünün elmi-nəzəri, tarixi-kulturoloji epopeyasından yetərincə zəngin bilik əldə edə bilər! Vətənpərvər azərbaycanlı üçün, həqiqətən, bu tədqiqatların misli-bərabəri yoxdur. Bunlar onu qanadlandıracaq, tarixi biliyini möhkəmləndirib, yanıltmalardan təmizləyib, onu daha təməlli, daha güvəncli edəcək. Tərəddüdlərdən arınmış milli təfəkkürün tarixi realizmi məhz belə formalaşır.

***Rahid ULUSEL,***
***fəlsəfə elmləri doktoru, professor, Fəlsəfə Cəmiyyətləri Beynəlxalq Federasiyasının üzvü***

Təqdimat

# Tomiris davamçısı Qəbulə xanım

*Bu cəsur Azərbaycan qızını indiyədək niyə tanımamışıq?*



**“Ədəbiyyat qəzeti”nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Azər Turanın “Qəbulə xanım və I Pyotr” kitabının və Xalq rəssamı Sakit Məmmədovun “Qəbulə xanımın portreti” tablosunun təqdimatı keçirilib. Rəssamın emalatxanasında təşkil olunan mərasimdə Azərbaycan ədəbiyyatı, elmi və mədəniyyətinin tanınmış simaları, xarici qonaqlar iştirak ediblər.**

Müəyyən qisim tarixçilər və ictimaiyyət nümayəndələri 3 əsr əvvəl Rusiya təbəəliyində olan Salyanın müsəlman naibi Həsən bəyin xanımı, qazi Molla Məhəmmədin qızı Qəbulə bəyimi Massaget çarı Tomrisdən sonra ən görkəmli Azərbaycan xanımı kimi tanıyıblar. Ona görə “müəyyən qisim” deyirik ki, Qəbulə fenomeni müəyyən səbəblərdən uzun müddət gizli saxlanılıb və az qala, unudulub. Mahiyyət isə bundan ibarət olub ki, Qəbulə xanım ondan da 50 il əvvəl Stepan Razinin qul kimi əsir götürərək qurbanlıq etdiyi əsilzadə və gözəl azərbaycanlı qızın, Salyan xanının nakam balasının qisasını ruslardan layiqincə almışdı. Bu, eyni zamanda, milli şərəfin təhqir olunmasına, rus işğalına dözə bilməyən bir türk xanımının I Pyotra acıqlı, qanlı cavabı idi.




Dəqiq, etibarlı və təkzibedilməz qaynaqlara əsaslanan Azər Turana görə, o dövrdə Rusiyanı məhvərindən oynadan hadisənin təfərrüatı belə olub: 1723-cü ilin 16 sentyabrında Peterburqda I Pyotr general Matyuşkinlə Salyan barədə söhbət edib. Elə həmin il, Bakının rus ordusu tərəfindən işğalından bir neçə ay sonra Qəbulənin əri, Salyan naibi Həsən bəy tərəfindən rus təbəəliyi qəbul edilib. Salyana böyük bir hərbi dəstə göndərilməsi barədə imperator tərəfindən xüsusi sərəncam verilib. Bir neçə gün sonra podpolkovnik Zambulatovun süvari batalyonu Salyana daxil olub və rus hərbi qüvvələri Kür çayının sahilində Həsən bəyin malikanəsinin qənşərində qərargah qurublar. Bir gün Zambulatov hərbi heyətin 8 nəfər yüksək çinli zabiti ilə Həsən bəyin malikanəsindəki ziyafətə qatılıb. Ziyafət zamanı otağa silahlı adamlar girərək, Zambulatov da daxil olmaqla, oradakı bütün rus zabitləri qətlə yetiriblər. Və rus tarixçilərinin yazdığına görə, bu qətl xüsusi amansızlıqla törədilib.

Razinin əsir götürmüş olduğu holland əsilli İsveç səfiri, hadisənin şahidi Lüdviq Fabritsius kitabında bunu xüsusi xatırladıb. Sonra I Pyotr özünün say-seçmə generallarından olan Mixail Matyuşkinə təlimat verərkən Qəbulə xanım barədə: “Salyan hakiməsi Qəbulə xanım asilərin böyüyüdür. Ondan ehtiyatlı olmaq lazımdır ki, bir bədbəxtlik üz verməsin”, – deyə bildirib. Çünki həmin qanlı hadisənin arxasında naib Həsən bəy deyil, məhz onun hərəmi Qəbulə xanım dayanırdı. Bu barədə Abbasqulu Ağa Bakıxanov “Gülüstani-İrəm” əsərində yazıb. 1869-cu ildə Peterburqda nəşr olunmuş “Qafqazın yeni tarixi üçün materiallar” kitabında isə Pyotr Butkov bu qanlı hadisənin geniş təfsilatını verib (Tarixçi Sara Aşurbəyli də özünün “Bakı şəhərinin tarixi” əsərində cəsur Qəbulə xanımı yada salıb).

Azər Turan haqlı olaraq Qəbulə xanımın gerçəkləşdirdiyi aksiyanı rus işğalına qarşı ilk böyük qiyam kimi dəyərləndirir. Təəccüblüdür ki, “Qəbulə xanım və I Pyotr” kitabını ictimaiyyətə təqdim edən Azər Turana qədər, nədənsə, heç kəs qəhrəman Qəbulə xanımın ömürlüyünü və sonrakı taleyini araşdırıb bədii dillə də olsa, qələmə almayıb. Heç kəs Bakıxanovun bildirdiyi “Salyan nahiyəsinin bütün əmirləri Qəbulənin nəslindən olan adamlar tərəfindən seçilir” hökmünün izinə düşməyib.

Müəllifin işıq saldığı olaylardan görünür ki, Pyotrun əmri ilə Salyan Xəzərin bütün qərb sahilləri üçün istehkam, liman və böyük iqtisadi məkan olacaqdı. Hətta general Matyuşkin 300 nəfərlə birgə gəlib yeni salınacaq şəhərin yerinə də baxmışdı. Mayın 20-də Qəbulə xanımın törətdiyi qanlı hadisədən sonra Pyotr generala verdiyi və icrası Saymonova tapşırılmış əmri ləğv edib. Halbuki, o ərəfədə I Pyotr “üç ermənini katolikos İssaya ilə birlikdə qəbul etmiş, xain haylara əl tutmaq və Xəzəryanı əyalətlərdə yerləşdirmək barədə onların xahişini dinləmişdi. Ermənilər heç bir ödəniş vermədən Gilan, Salyan, Bakı və Dərbənddə yerləşmək üçün çarın icazəsini almaq” istəmişdilər (bu barədə 1996-cı ildə nəşr olunmuş “Azərbaycan tarixi” kitabında sənədlərə istinadən ətraflı yazılıb). Deməli, Qəbulə xanım, eyni zamanda, ermənilərin mənfur planını da pozmuş olub. Salyanla bərabər, daha geniş aspektdə – Bakıda, Gilanda və Dərbənddə haylara hər cür qayğı göstərilməsi barədə verilmiş fərman ona görə reallaşdırılmayıb.

Azər Turan yazır: “Bu, ümumən, Azərbaycan tarixinin ən ciddi məqamlarından biridir. İki il əvvəl Şamaxıda baş vermiş hadisə başqaydı. Qəbulə rus tacirlərini deyil, rus hərbçilərini zərərsizləşdirmişdi. Bu, daha çox çar Rusiyasının istila və işğal hərəkatına qarşı Azərbaycanda ilk açıq və böyük qanlı etirazdır və onu Qəbulə xanım belə sərt bir inadla gerçəkləşdirmişdir. Ancaq əvəzində siyasiləşmiş tarixçilər Salyandakı hərəkəti ilə Peterburqu silkələyən o böyük xanımı tarixin qapısı arxasında saxladı. Abidələşməsinə imkan vermədi. Qəbuləni öz halal ocağına – övladlarının yaddaşına yaxın buraxmadı...

Qəbulə xanımın tarix kitablarımızda nəzərə çarpmayan varlığı dərin və düşündürücü suallar doğurur. Məsələ burasındadır ki, I Pyotr salyanlı bir türk qızını özü və səltənəti üçün bu miqyasda təhlükə mənbəyi olaraq görürsə, çar düşmənlərinin xalq qəhrəmanı kimi ideallaşdırıldığı sonrakı dövrlərdə də Qəbulə xanım qəsdən unudulub və unutdurulubsa, deməli, onun nadir şəxsiyyəti barədə dərindən düşünməyə dəyər...”

“Qəbulə xanım və I Pyotr” kitabında Azər Turan bu və digər suallara tam aydınlıq gətirir. Göstərir və inandırır ki, Qəbulə xanım təkcə Azərbaycan tarixinin deyil, ümumtürk, hətta dünya tarixinin ən önəmli, qəhrəman simalarındandır. Yeri gəlmişkən, onun haqqında rus ədəbiyyatının ən məşhur və önəmli isimlərindən olan Aleksandr Sergeyeviç Puşkin də yazıb. Puşkin I Pyotr haqqında kitabında Qəbulə xanımı “Knyagina” titulu ilə qiyaslandırıb. I Pyotr zamanında yaşayan tarixçilər də, rus tarixşünaslığının sonrakı görkəmli şəxsləri də Qəbulə xanım haqqında yazıblar. Azər Turan öz kitabında həmin müəlliflərdən də yeri gəkdikcə, əsərinin əsas qayəsinə xidmət edən sitatlar gətirir.

Etibar Əbilovun xatırlamasına görə, bu cazibədar qəhrəman xanım haqqında Azər Turan ilk dəfə hələ 2012-ci ildə çap etdirdiyi “Darülmömün” kitabında yazıb: “Bu mövzu daim Azərin diqqət mərkəzində idi. Nəhayət, bu ilin 31 yanvarında Azərin “Əbəbiyyat qəzeti”ndə Qəbulə xanım haqqında yeni bir yazısı çap olundu. Həmin gün Xalq rəssamı Sakit Məmmədov Azərin yazısını oxuyub və maraqlıdır ki, sonra yuxuda Qəbuləni sarı paltarda görərək, portreti də o görkəmdə yaradıb. Sonra məlum olub ki, bir alman səyyahı Qəbulə haqda yazıbmış: ”Qızıl sapdan toxunmuş paltar geyərdi”...

Təqdimat mərasiminin moderatoru Milli Məclisin deputatı, filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və “Ədəbiyyat qəzeti”nin şöbə müdiri Elnarə Akimova idi. O, həm də kitabın ön sözünün müəllifidir. İstər dəyərli əsər, istərsə də Sakit Məmmədovun ərsəyə gətirdiyi rəsm haqqında ətraflı məlumat verib. Digər natiqlər müəlliflərin Azərbaycan tarixinin qaranlığa qərq edilmiş, maraqlı və düşündürücü səhifəsinə işıq salmasını xüsusi qeyd edib, dəyərləndiriblər.

Azər Turanın həm kitab, həm də əsərin üzqabığını bəzəyən portret barədə özəl fikirləri də hər kəsdə maraq doğurub: “Qəbulə xanım haqqında məqaləm qəzetdə çap olunandan sonra, yəni ertəsi gün, günorta saatlarında Xalq rəssamı Sakit Məmmədov mənə eskiz halında bir qadın portreti göndərdi, “Bu qadın kimdir?” – deyə soruşdu. “Qəbulədir, – dedim. – Qəbulənin metafizik bir aləmdən baxan obrazıdır”. Sakit müəllim: “Yazını oxuyandan sonra yatıb bu qadını yuxuda gördüm” – dedi. Qəbulə 300 ildən sonra, bəlkə də ilk dəfə kiminsə yuxusuna gəlmişdi. Yaxşı ki, yuxusuna gəldiyi adam rəssam idi. Özü də, yaxşı ki, o rəssam Qəbulənin eloğlusu idi. Həm də yaratdığı gözəl qadın obrazları ilə dünyada məşhur olan bir rəssam”...

Azər Turanın və Sakit Məmmədovun bu duyğusal işbirliyi, heç şübhəsiz, milli-ictimai fikir tariximizə və təsviri sənətimizə iki möhtəşəm əsər qazandırıb. Əminik ki, bu əsərlər sayəsində oxucular uzun illər dövrünün siyasi həyatına fövqəladə təsir göstərmiş salyanlı bəyimi yaxından tanıyıb sevəcəklər.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Naxçıvanın Baş planı hazırlanır

*Layihənin icrası Britaniya şirkətinə həvalə olunub*

**“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın əsas istiqamətlərindən biri Naxçıvan şəhərinin Baş planının hazırlanmasıdır. Bu mühüm layihənin icrası Böyük Britaniyanın şəhərsalma sahəsində böyük təcrübəyə malik “Chapman Taylor” şirkətinə həvalə olunub.**

Şirkətin direktoru Marselina Zieliniska yeni Baş planla bağlı bir sıra vacib məqamları açıqlayıb.

O bildirib ki, şəhərin mərkəzi hissələrində yeni inzibati binaların inşası üçün plan hazırlanır. Şəhərdə əhalinin sayının arta biləcəyini nəzərə alaraq, burada daimi yaşayan sakinlərlə yanaşı, gələcəkdə məskunlaşacaq insanlar üçün də yeni yaşayış komplekslərinin salınmasına ehtiyac yaranacaq. Bu səbəbdən, əhalinin daha komfortlu yaşayışı və istirahəti üçün zəruri infrastrukturun qurulması nəzərdə tutulur.

“Biz düşünürük ki, Naxçıvan, bəlkə də, öz hazırkı əhalisinin iki qatına qədər insanı qəbul edə biləcək potensiala malikdir. Reallığa əsaslanaraq yanaşsaq, şəhərin böyüməsi və genişlənməsi zəruridir. Bu səbəbdən də əsas məqsədimiz ilk növbədə şəhərin infrastruktur imkanlarını və ümumi potensialını genişləndirməkdir. Paralel olaraq, şəhərin əhatə dairəsinin və inzibati sərhədlərinin də genişləndirilməsi gündəmdədir,” – deyə Marselina Zieliniska vurğulayıb.

***H.SƏBUHİ***
***XQ***



# Qədim diyarın tarixi Gürcüstan mənbələrində

**AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclasında müzakirə edilən məsələlər sırasında Naxçıvanla bağlı xarici ölkələrin arxivlərində aşkar edilmiş materialların öyrənilməsi və qədim diyara gətirilməsi barədə hesabat da yer alıb.**



Elmi önəm daşıyan həmin sənədlərdən istifadənin əlçatanlığını təmin etmək məqsədilə son illərdə Türkiyə, Rusiya və Gürcüstan arxivlərinə elmi ezamiyyələrin təşkil olunduğunu bildirən bölmə sədri akademik İsmayıl Hacıyev qeyd edib ki, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və Ən yeni tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev may–iyun aylarında Gürcüstanda elmi axtarışda olub.

Sonra Musa Quliyev elmi ezamiyyə zamanı Gürcüstanın Dövlət Arxivində, Milli Əlyazmalar Mərkəzində, Simon Canaşia Muzeyində, gürcü şairi Nikoloz Barataşvilinin ev-muzeyində apardığı axtarışlar, əldə etdiyi materiallar barədə ətraflı məlumat verib.

Alim bildirib ki, Naxçıvan tarixi, etnoqrafiyası, mədəniyyəti ilə bağlı 1000-ə yaxın sənəd və əlyazmanı aşkar edərək ölkəmizə gətirib. Bəhram Naxçıvanskinin Qafqaz Canişinliyində işləməsi, İ.Şopenin Naxçıvan haqqında 70 səhifəlik kameral siyahısı, Hüseyn xan Naxçıvanskinin Qafqaz Canişinliyinin dəftərxana rəisinə yazdığı məktub, Ehsan xanın naib təyin olunması ilə bağlı 44 səhifəlik xidmət kitabçası, İ.Paskeviçin Naxçıvan haqqında məktubları, rus qafqazşünası K.Smirnovun rus dilinə çevirdiyi tarixçi Cəmil Quzanlının farsca yazılmış əsəri, Məhəmməd ağa Şaxtaxtinski, general-mayor Kalbalı xan Naxçıvanski barədə sənədlər və digər materiallar Naxçıvan tarixinin öyrənilməsi üçün önəmli mənbələrdir.

İclasda bölmənin elm və təhsil şöbəsinin müdiri, dosent Orxan Bağırov 2025-ci ilin birinci yarısı üzrə elmi və təşkilati fəaliyyətə dair yarımillik hesabatın hazırlıq vəziyyəti barədə Rəyasət Heyətini məlumatlandırıb.

***S.HƏSƏNOV***
***XQ***

Qalib Bağırov – 80

# Gəncənin Çini qablar dünyası



**Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə əsrlər boyu saxsı qablar istehsalının əsas mərkəzlərindən biri olub. Burada ətraf ərazilərdən əldə edilən əla növ gil emal olunaraq, yüksək keyfiyyətli saxsı və farfor məhsullarına çevrilib. Ötən əsrin ortalarından başlayaraq, farfor istehsalı geniş vüsət alıb, Gəncə Çini Qablar Zavodu fəaliyyətə başlayıb. Bu gün Ulu Şeyx Nizaminin yurdunda bu sənət növü ilə məşğul olan bir rəssam – Qalib Bağırov haqqında söhbət açmaq istəyirik.**

Düz 80 il əvvəl Gəncədə ziyalı ailəsində anadan olan Qalib Bağırov orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində və Stroqanov adına Moskva Ali Bədii-Sənaye Məktəbində təhsil alaraq rəssam-konstruktor (dizayner) ixtisasına yiyələnib. Daha sonra Moskvada aspiranturanı bitirib, namizədlik dissertasiyasını müdafiə edərək, sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb. Milli keramika sənətindən söz açanda onun təşəkkülündə xüsusi xidmətləri olanların ilk sırasında məhz Qalib Bağırovu xatırlamamaq mümkün deyil.

O, əmək fəaliyyətinə Gəncə Çini Qablar Zavodunda başlayıb, 30 il bu müəssisənin baş rəssamı olub. Azərbaycan çinisinin sənətkarlıqla cilalanmasına görə 1988-ci ildə Əməkdar rəssam fəxri adını alıb. Qalib Bağırov fəaliyyət göstərdiyi müddət ərzində 500-dən artıq dekorativ tətbiqi sənət nümunəsinin müəllifi kimi elmi araşdırmalarının nəticəsində 38 elmi məqalə müəllifi olaraq tədris resuslarında bu sahənin inkişaf etdirilməsində mühüm rol oynayıb.

Keramikaçı-rəssamın milli bədii sənət ənənələri ilə tanınmasını, onu yaradıcı bir formada inkişaf etdirməsini özünün hazırladığı çini vazalarda görmək mümkündür. Onun dahi Nizamiyə və “Xəmsə”nin qəhrəmanlarına həsr etdiyi vazalar orijinal formasına, xüsusilə səthi bəzəyən təsvirlərin şux rənglərinə görə hər zaman diqqəti cəlb edib. Əməkdar rəssamın yaradıcılığında milli cəhətlər üstünlük təşkil etməklə, onun rəssamlıq manerasında cərəyanların təsirində itmək hiss belə yoxdur. Rəssam hansı mövzuya müraciət edibsə, mütləq oradan xəlqi məzmun çıxarmaqla bəşərilik ifadəçisi olub. Bu baxımdan Qalib Bağırovun yaradıcılığı hər zaman öz müasirliyini qoruya bilib. O, müəllifi olduğu əsərlərdə həm də impressionizm, sürrealizm kimi cərəyanlardan bəhrələnən rəssam sayılırdı.

Qalib Bağırov 1996-cı ildə Şərqdə ilk dəfə məhz Gəncə şəhərində Dekorativ Tətbiqi Sənət Mərkəzini (Çini qablar miniatür muzeyini) yaratmağa müvəffəq olub. Mərkəzdə dekorativ tətbiqi sənətin davam etdirilməsi üçün ictimai əsaslarla kadr hazırlığını həyata keçirməyi də uğurla bacara bilib.

Bu gün xüsusi olaraq qeyd etmək lazımdır ki, məhz Qalib Bağırov yaradıcılığında Nizami “Xəmsə”sinin qəhrəmanlarına həsr etdiyi əsərlər müasir orijinal formasına görə maraqla qarşılanan sənət nümunələri hesab edilir.

Əməkdar rəssam Qalib Bağırov Gəncə Çini Qablar Zavodu ilə paralel 1980–2019-cu illər ərzində Azərbaycan Texnologiya Universitetində müəllim kimi çalışaraq “İstehlak mallarının texnologiyası” kafedrasının dosenti və “Dizayn” kafedrasının rəhbəri olaraq fəaliyyət göstərib. O, 30 ildən artıq bir müddət ərzində bədii layihələndirmə, dekorativ tətbiqi sənət və dizaynın əsasları fənlərini tədris edib. Həmçinin 2015–2019-cu illərdə Azərbaycan Aqrar Universitetinin “Dizayn” kafedrasında müəllim kimi də çalışıb və tədris proqramlarının tətbiqi ilə məşğul olaraq bu tədris ocağının elmi fəaliyyətində xüsusi xidmətlər göstərib.

Qalib Bağırov Gəncənin mədəni, ictimai həyatında da yaxından iştirak edərək, 1987-ci ildən həyatının sonunadək Azərbaycan Rəssamlar İttifaqının Gəncə şöbəsinə rəhbərlik edib. Əməkdar rəssam olaraq, bir çox beynəlxalq sərgilərin laureatı kimi 1985-ci ildə gümüş, 1987-ci ildə qızıl medallara və bir sıra digər mükafatlara layiq görülüb. O, Hindistanda, İran İslam Respublikasında keçirilən sərgilərdə, elmi konfranslarda, həmçinin ABŞ-da təcrübə mübadilələrində qrup rəhbəri kimi iştirak edərək Azərbaycanı layiqincə təmsil edib.

Əməkdar rəssam Qalib Bağırov Azərbaycanın milli sərvəti olan miniatür sənətini farfor üzərində əks etdirərək ona yeni nəfəs verib. Onun üçün həyat prinsipi yaradıcılıqdan kənar aləmin olmadığı anlamında idi. Məhz bu baxımdan onun yaradıcılıq aspektləri daha geniş və daha rəngarəng idi. Qalib Bağırov bütün yaradıcılığı boyu yeni forma, üslub eləcə də kompozisiya axtarışlarında olmaqla rənglər dünyasının daha uğurlu təzahürünü təsdiqləyə bilib. Məhz bu eksperimentlər rəssamın istədiyi koloriti almaq və eləcə də onun ifadə gücünün rəngarəngliyinə nail olmaq məqsədini ehtiva edir.

Qalib Bağırov 2019-cu il may ayının 31-də Gəncədə vəfat edib. Özü fani dünyanı tərk etsə də, sənəti yaşayır.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

Beynəlxalq həyat

# ABŞ–Çin ticarət razılaşması: möhlət, yoxsa yeni fürsət?

**İyun ayında ABŞ və Çin arasında əldə olunan yeni ticarət razılaşması, bir tərəfdən, iki böyük iqtisadiyyat arasında gərginliyin qismən yumşaldılması kimi təqdim edilsə də, digər tərəfdən, bu sənədin ictimaiyyətə açıqlanmaması və bəzi güzəştlərlə kifayətlənməsi onun daha çox taktiki xarakter daşıdığını göstərir.**



Son aylar ərzində Londonda və Cenevrədə keçirilmiş bir neçə görüşün nəticəsi olaraq razılaşdırılan sənəd, rəsmi məlumatlara görə, ABŞ-ın Çin məhsullarına tətbiq etdiyi tariflərin 55 faizə, Çin tərəfinin isə ABŞ mallarına qarşı tariflərin 10 faizə çatdırılması ilə nəticələnib. Bu rəqəmlər əvvəllər tətbiq edilən rekord səviyyəli tariflərlə müqayisədə nisbi yumşalma hesab olunsa da, razılaşmanın əsas məğzi daha çox qarşılıqlı strateji narahatlıqların müvəqqəti tənzimlənməsinə yönəlib.

Razılaşmanın tam mətni ictimaiyyətə təqdim olunmayacağı üçün onun hüquqi və iqtisadi strukturu barədə yalnız bəyanatlara əsaslanmaq mümkündür. Bu isə analitik qiymətləndirmələrin qeyri-müəyyən qalmasına səbəb olur. ABŞ-ın Ticarət naziri Hovard Latnikin sözlərinə görə, Çin nadir torpaq elementlərinin ixracına qoyduğu nəzarəti aradan qaldırır. Bu materiallar ABŞ-ın müdafiə və texnologiya sənayesi üçün həyati əhəmiyyət daşıyır və son illərdə Pekinin bu sahədəki dominantlığı Vaşinqtonda ciddi narahatlıq doğurmuşdu.

Çin isə öz növbəsində ABŞ-ın may ayında tətbiq etdiyi və etan ixracına nəzarət mexanizmlərinin yumşaldılmasını tələb edib. Bu tələb Çinin neft-kimya sənayesinin xammal təchizatının təhlükəsizliyi ilə bağlı strateji həssaslığını göstərir.

ABŞ üçün bu razılaşma, ticarət savaşının iqtisadi nəticələrinin daxili bazarlarda yaratdığı narahatlıqlar fonunda, həm siyasi, həm də iqtisadi baxımdan gərginliyi azaltmaq məqsədi daşıyır. Prezident Donald Tramp üçün bu cür razılaşmalar, bir tərəfdən xarici iqtisadi siyasətin uğuru kimi təqdim oluna, digər tərəfdən isə seçkiqabağı dövrdə daxili auditoriyaya ünvanlanmış geosiyasi jestlərdir.

Çin isə, ABŞ-la münasibətlərdə tam qarşıdurmadan yayınaraq, digər tərəfdaşlarla – Avropa İttifaqı, ASEAN, Rusiya və digər ölkələrlə iqtisadi diplomatiyasını balanslı şəkildə davam etdirmək istəyir. Belə bir razılaşma Çinə həm vaxt qazandırır, həm də alternativ bazarlara yönəlmək strategiyasını daha sistemli şəkildə qurmağa imkan yaradır.

Razılaşma Vaşinqtonun paralel olaraq Hindistan, Aİ, Yaponiya və Cənubi Koreya ilə apardığı danışıqlar kontekstində daha geniş strategiyanın tərkib hissəsidir. Prezident Tramp Hindistanla qarşılıqlı ticarət manelərinin aradan qaldırılmasına yönəlmiş yeni sazişi elan etsə də, bu bəyanatın real nəticələrə çevrilməsi hazırda qeyri-müəyyəndir.

ABŞ-ın Avropa İttifaqı ilə münasibətləri də mürəkkəb mərhələdədir: Bloomberg-in məlumatlarına görə, Brüssel bəzi əks tədbirlərdən imtina etməklə Vaşinqtonla razılaşma əldə etməyə çalışır. Bu isə Tramp tərəfindən elan edilən 90 günlük ticarət fasiləsinin 9 iyulda başa çatacağı təqviminə uyğun gəlir və Aİ üçün taktiki güzəştləri stimullaşdırır.

Siyasi müşahidəçilərin sözlərinə görə, yeni razılaşma daha çox "danışıqlar üçün nəfəs alma müddəti" rolunu oynayır və əslində, strukturlaşmış iqtisadi sabitlik və ya dərin iqtisadi inteqrasiya yaratmaq məqsədi daşımır. Tərəflər arasında əsas sistemli problemlər – texnoloji hegemonluq, intellektual mülkiyyətin qorunması, valyuta manipulyasiyaları və strateji sektorların qorunması məsələləri – hələ də açıq qalır.

Bu baxımdan razılaşma daha çox "siyasi taktika" və "zamana oynamaq" alətidir. Çin bu məqamda digər tərəfdaşlarla əlaqələri dərinləşdirməyə çalışacaq, ABŞ isə qarşıdan gələn seçkilər və geoiqtisadi reytinqlər fonunda yeni müqavilələri ictimaiyyətdə uğur kimi təqdim etməyə can atacaq.

Bir sözlə, ABŞ–Çin razılaşması qlobal ticarət müharibəsinin bitdiyi anlamına gəlmir. Bu, daha çox böyük oyunçular arasında "strateji fasilə"dir – növbəti mərhələlər üçün mövqelərin yenidən qurulduğu bir dövrdür. Razılaşmanın effektivliyi yalnız tərəflərin onu sabitlik platformasına çevirmək istəkləri ilə deyil, həm də üçüncü aktorların – Hindistan, Aİ, ASEAN və digərlərinin hansı istiqamətdə mövqe tutacağından asılı olacaq.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Süni intellekt "qalaktik müstəmləkəçiliyə" aparacaqmı?

**Texnologiya nəhəngi "Google DeepMind" laboratoriyasının baş direktoru, britaniyalı tədqiqatçı Demis Hassabis yaxın 5–10 il ərzində Süni Ümumi İntellektin – (AGI), (Artificial General Intelligence-red) yaradılması ehtimalını 50 faiz olaraq qiymətləndirir.**

Alim hesab edir ki, super modern texnologiya reallığa çevrildiyi təqdirdə, bu, bəşəriyyət tarixində yeni bir dövrün – ulduzlara doğru səyahətin və qalaktik müstəmləkəçiliyin başlanğıcı ola bilər.

"Wired" nəşrinə verdiyi açıqlamada D.Hassabis qeyd edib ki, 2030-cu ildən etibarən insanlıq "maksimum rifah və imkanlar erasına" qədəm qoya bilər. Onun fikrincə, AGI-nin tətbiqi təkcə texnoloji sıçrayış deyil, həm də sosial-iqtisadi dəyişikliklər üçün əsas olacaq.

## "Radikal bolluq" dövrü

D.Hassabis bildirir ki, AGI texnologiyası sağlamlıq, enerji və ətraf mühit kimi fundamental sahələrdə gizli qalan sirləri açmaq gücünə malik olacaq. Eyni zamanda, o, yeni layihənin mövcud kapitalist sistemin doğurduğu resurs qeyri-bərabərliyi və yoxsulluq problemini aradan qaldıra biləcəyinə inanır.

D.Hassabisin fikrinə görə, AGI arzu olunana bolluq erasını mümkün edəcək. Bu isə bəşəriyyətin uzunmüddətli problemlərini – istər xəstəliklər, istər iqlim böhranı, istərsə də sosial bərabərsizliyi yeni yanaşmalarla həll etməyə şərait yaradacaq.



## AGI nədir?

Xatırladaq ki, AGI– insan kimi düşünə bilən, müxtəlif sahələrdə dərin idrak qabiliyyətinə sahib, tapşırıqları təlimsiz şəkildə yerinə yetirə bilən süni intellekt texnologiyasıdır. Mövcud süni intellekt sistemlərindən fərqli olaraq, AGI tək bir ixtisasa deyil, ümumi və çevik zəkaya əsaslanır.

Hazırda AGI-nin elmi və texnoloji baxımdan hələ tam reallaşmadığı qəbul edilsə də, bir çox aparıcı tədqiqatçılar onun yaxın onillikdə mümkün ola biləcəyini düşünürlər.

Bu açıqlamalar texnologiyanın insan həyatına və bəşəriyyətin gələcəyinə təsiri ilə bağlı qlobal müzakirələri yenidən alovlandırıb. AGI gerçəyə çevrildikdə, artıq bu, yalnız texnologiya deyil, həm də sivilizasiyalar səviyyəsində dönüş nöqtəsi olacaq.

*S.ELAY*
*XQ*

# "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin 2024-cü il üzrə illik idarəetmə hesabatı

İllik hesabat Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalara" uyğun hazırlanmışdır.

"Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin illik idarəetmə hesabatına daxil olan məlumatlar aşağıda göstərilir:

1.Emitentin tam və ya qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN:1900037441) dövlət qeydiyyatının tarixi və nömrəsi:

Tam adı: "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" Açıq Səhmdar Cəmiyyəti

1.2. Qısaldılmış adı: "BHBDL" ASC

1.3. VÖEN-i: 1900037441

1.4. Dövlət qeydiyyatının tarixi və nömrasi : 1900037441 19.11.2003-cü il (əvvəlki dövlət qeydiyyat nömrəsi: (0103-P34-38808-) 11/19/2003

2. Emitentin hüquqi ünvanı və olduğu yer: AZ1089. Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Ş.Ziyadov küçəsi 1.

3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitentdə digər hüquqi şəxslərin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ila yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin ünvanları ,adları:

Hesabat dövrü ərzində emitentin adında təşkilati-hüquqi formasında dəyişiklik olmamışdır.

4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar: Hesabat dövrü ərzində emitent tərəfindən heç bir filial və nümayəndəlik yaradılmamış və ləğv edilməmişdir.

5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:

Hesabat dövrü ərzində emitentin heç bir yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti olmamışdır.

6.Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:Emitent heç bir şirkətlər qrupunun hissəsi deyil.

7 .Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri

7.1 Daşınan və daşınmaz əmlakın icarəsi , liman xidmətləri

7.2. Digər istehsal yönümlü fəaliyyət.

8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və ya qüvvədə olma müddətləri:

Emitentin lisenziya və ya icazəyə malik fəaliyyəti yoxdur.

9. Emitentin təklif etdiyi xidmətlər - Xəzəryanı ölkələrlə yüklərin daşınması xidmətlərinin göstərilməsi, liman xidmətləri, daşınan və daşınmaz əmlakın icarəsi.

10.Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:

| № | 2024-cü ilin birinci rübü | 2024-cü ilin ikinci rübü | 2024-cü ilin üçüncü rübü | 2024-cü ilin dördüncü rübü |
|---|---|---|---|---|
| 1. İşçilərin sayı | 2 | 2 | 2 | 2 |
| 2. İşə qəbul | | | | |
| 3. İşdən azad olma | | | | |

11.Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitası (olduqda), onların üzvlərinin adı, soyadı və atasının adı:

| № | Səhmdarların ümumi sayı | Direktorlar şurası | Baş direktor |
|---|---|---|---|
| 1. | 429 | Sədr Həşimov Zaur Rafiq oğlu | Vəliyev Emin Tofiq oğlu Baş drektor |
| 2. | | üzvü Şükürova Əzizə Balasoltan qızı | |
| 3. | | üzvü Məmmədov Ədalət Qardaşxan oğlu | |
| 4. | | üzvü Qafarova Fatma Surxay qızı | |

12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) adları, ayrı-ayılıqda emitentdə payı olan payçı fiziki şəxslərin sayı, cəmi 429 nəfər.

13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə, (paylara) malik olan şəxslər (fıziki şəxsin soyadı, adı, atasının adı;

hüquqi şəxsin adı, növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı

Hüquqi şəxs: "LOTOS-S "Məhdud Məsuliyyətli Cəmiyyəti

AZ1089, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Ş.Ziyadov küçəsi 1.

| | | | |
|---|---|---|---|
| 1. | "LOTOS-S" MMC<br>Bakı şəhəri,Suraxanı rayonu , Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1.<br>VÖEN: 1000492771<br>AZ- 1089, telefon- 4-57-77-93 | Səhmlərin miqdarı<br>Səsli səhmin sayı<br>1424329 | Nizamnamə kapitalında payı<br>96.0297 ədəd səsli səhm |
| | Fiziki şəxslər 428 səsli səhmdar | səhmlərin miqdarı<br>58888 s/s | Nizamnamə kapitalnda payları 3.971 |

14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):

Emitentin nizamnamə kapitalında payı beş faizdən az olmayan hüquqi şəxs yoxdur.

15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:

| № | Səhmdarların ümumi yığıncağının keçiriləcəyi tarix | Səhmdarların ümumi yığıncağının keçirilmə yeri | Səhmdarların ümumi yığıncağında qəbul edilmiş qərarlar |
|---|---|---|---|
| 1. | 25 iyun 2025- ci il tarixli 24 saylı protokol | AZ 1089, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Ş.Ziyadov küçəsi 1. Telefon- 4-57-77-93 | "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin 2024-cü ilin illik maliyyə hesabatı təsdiq edilmişdir. ASC-nin hesabat ili ərzində fəaliyyəti nəticəsində əldə olunmuş maliyyə yekunları vergisiz məbləğ (128337 manat) yüz iyirmi səkkiz min üç yüz otuz yeddi manat xalis mənfəət səhmdarın mülkiyyətində olan 1483217 ədəd, səsli səhmlərinin faiz nisbətinə mütənasib qaydada fiziki şəxslərin səsli səhmlərinə hər səhmə bölüşdürülməsi qalan xalis mənfəətin müəssisənin gələcək inkişafına sərf edilməsi qərara alınmışdır. Cəmiyyətin icra orqanına qanunla müəyyən edilmiş qaydada kütləvi informasya vasitəsi ilə illik hesabatın və maliyyə balansının səhmdarların tanış olması üçün dərc edilməsi həvalə edilmişdir. |

16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):

| İnvestisiya Qiymətli kağızın növü və forması | İnvestisiya Qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | İnvestisiya Qiymətli kağızların miqdarı və nominal dəyəri | İnvestisiya Qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat | Faizli istiqrazlar buraxılışı haqqında məlumatda -istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | İnvestisiya Qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer |
|---|---|---|---|---|---|---|
| Adi, sənədsiz, adlı səhm | AZ100100252 12 fevral 2010-cu il | 1483217 ədəd,adi, səsli səhm 2 (iki) manat | 1483217 Bir milyon dörd yüz səksən üc min iki yüz on yeddi | Ödənilməyib | İstiqrazlar buraxılmayıb | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |

17. Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumat:

Hesabat tarixinə xüsusi əqdlər bağlanmamışdır.

Emitent tərəfindən hesabat dövrü ərzində aidiyyətli şəxslərlə əqidlər haqqında məlumat:hesabat dövrü ərzində aidiyyətli şəxslərlə əqidlər bağlanmamışdır.

20.İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi: 25 iyun 2025-ci il saat 11.00.

21. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat: "Xalq qəzeti" redaksiyasında 2025-ci il iyulun 1-də dərc edilmişdir. Hesabatın hazırlanma tarixi: 25 iyun 2025-ci il.

*İllik hesabata Azərbaycan Respublikasının Auditorlar* Palatası tərəfindən 3 may 2023-cü il tarixli SA/518 saylı icazə əsasında 5 may 2025-ci il tarixli audit *rəyi verilmişdir*.

**Direktorlar şurası**

# Afrikada rus neomüstəmləkəçiliyi

## *Yağışdan çıxıb yağmura düşən Mali xalqı*

**Fransanın zülmündən qurtulan Mali xalqı bu dəfə Rusiya kölgəsində yeni fəlakətə sürüklənir. Malidə koloniya zəncirlərinin qırılması sevinclə qarşılanmışdı. Fransa ordusunun ölkədən çıxarılması, ilk baxışdan, uzun illər əziyyət çəkən xalq üçün yeni səhifə kimi görünürdü. Lakin gözlənilən azadlıq çox keçmədən daha qaranlıq bir dövrə keçidi ifadə etdi.**

## "Vaqner"in gəlişi: azadlıq, yoxsa işğalın yeni forması?

2021-ci ildə Fransanı əvəz edən "Vaqner" qrupu Malidə "xilaskar" kimi təqdim olunsa da, qısa müddətdə xalq arasında qorxu və dəhşət rəmzinə çevrildi. Nüfuzlu "Jeune Afrique" saytının yazdığına görə, bu yarımhərbi qurumun nə




rəsmi strukturu, nə sözçüsü, nə də fəaliyyətinə nəzarət edən hər hansı bir beynəlxalq instansiya var.

Mali mediasında "Vaqner" adını çəkmək belə qadağan olunmuş kimi görünür. Məlumata görə, bu barədə yazanlar ya itkin düşür, ya da döyülərək susdurulur. Amma sağ qalan şahidlərin səsi bəzən də olsa eşidilir – xüsusilə də "Forbidden Stories" jurnalist şəbəkəsinin araşdırmalarında.

## İşgəncə, kobudluq, terror

Araşdırmalar göstərir ki, "Vaqner"in Malidə fəaliyyət prinsipi çox sadədir: istənilən şəxs cinayət törətmədən belə "cihadçı" adı ilə həbs edilə və qeyri-qanuni həbsxanalarda saxlanıla bilər. Bu "həbsxanalarda" dindirmə işgəncə formasında keçirilir: qaynar kərpiclə cəzalandırma, dağlama və fiziki təzyiqlə "ifadə" alınması.

Maraqlıdır ki, bu metodlar keçmiş SSRİ-də tətbiq olunan susdurma və iltizam alınması təcrübəsinə çox bənzəyir.

## BMT-nin təsdiqlədiyi cinayət

"Vaqner"in adının hallandığı ən böyük qətliam 2022-ci ilin martında baş verib. Mura adlı kənddə cəmi 3 gün ərzində 600-ə yaxın günahsız insan "cihadçı" adı ilə qətlə yetirilib. BMT bu faktı təsdiqləyib. Vaqnerin nəzarəti altında olan ərazilərdə onlarla kəndin "xəritədən silindiyi" bildirilir.

## "Vaqner" gedir, "Africa Corps" gəlir

Bu Qurban bayramında malililər üçün sevincli xəbər gəlmişdi – "Vaqner" ölkəni tərk edir. Ancaq bu sevinc uzun çəkmədi. Bir gün sonra onu əvəz edən yeni qurum - "Africa Corps" - fəaliyyətə başladı. Əslində isə bu, eyni aktorun fərqli ad altında yeni təqdimatı idi.

## Mali – "müstəqil" müstəmləkə

Mali xalqı fransız kolonializmindən xilas olduğunu düşünərkən, indi rus neomüstəmləkəçiliyinin daha sərt formasına düçar olub. Əgər fransızlar maliyyə və resursları istismar edirdisə, "Vaqnerçilər" artıq insan həyatını hədəfə alır.

Afrikada neomüstəmləkəçiliyin ən ağrılı üzü budur – formal müstəqillik var, amma real azadlıq yoxdur. Mali bu mənada həm simvol, həm də xəbərdarlıqdır.

*XQ*

# "Gəncə Yol Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Yol Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 20 avqust 2025-ci il saat 16.00 –da Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

Ümumi yığıncağın gündəliyinin materialları ilə, iş günləri saat 10.00-dan 17.00-dək, Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda, qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 (iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında səhmdar özü, yaxud notarius tərəfindən təsdiqlənmiş etibarnamə əsasında səlahiyyətli nümayəndə iştirak edə bilər.

***"Gəncə Yol Tikini-2" ASC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 131 (30825) 1 iyul 2025-ci il, çərşənbə axşamı

Turan abidələri

# Ərzurum – Anadolunun Qafqaz yaxası

## *Nağıl-dastanlarımızın əks-səda verdiyi sevimli gədik*

**Ərzurumun gədiyinə varanda**
**Onda gördüm burum-burum qar gəlir.**
**Dedim Kərəm, gəl qayıdaq bu yoldan,**
**Gördüm Xan oğludur, ona ar gəlir.**



Hörmətli oxucu, Turan ellərinin görməli, gəzməli məkanlarına qiyabi səyahətimizi davam etdiririk. Bura hələ uşaq və yeniyetmə yaşlarımızdan “Koroğlu”, “Əsli və Kərəm” kimi dastanlarımızdan adını eşitdyimiz, şöhrəti ilə öyündüyümüz, əlyetməz, ünçatmaz bir ünvandır. Beləliklə, yolumuz çox sayda şair, yazıçı və puiblisistlərimizin sevə-sevə təsvir və tərənnüm etdikləri qardaş Türkiyənin Ərzurum vilayətinədir.

Türkiyənin hər yeri, hər bir guşəsi gözəldir, bizə də doğmadır. Gəlin etiraf edək ki, Ərzurum bizə yuxarıda qeyd etdiyimiz səbəblərdən bizə “bir köynək daha yaxın”dır. Məqsədimiz həm də Ərzurumda qış və yay turizminin mövcud durumu, imkanları və perpektivləri barədə söz açmaqdır.



Ərzurum deyəndə, əsasən qış turizmi yada düşür. Belə ki, “Palandökən” və “Qonaqlı” ünlü xizək kurortlarına sahib olan Ərzurum uzun müddət Türkiyədə müxtəlif növ qış idmanı oyunlarının mərkəzi olmuşdur. Bura Bizans, Səlcuq və Osmanlı imperiyaları dövrlərinə aid tarixi abidələrlə də zəngindir. Təsadüfi deyil ki, bu qədim şəhər son illər tez-tez “Açıq səma altında muzey” adlandırılır. Bölgəyə təşrif buyuran ziyarətçilər çox vaxt “Əkiz Minarə mədrəsəsi”, “Ulu came”, “Lalə Paşa məscidi” və “Yaqutiyyə mədrəsəsi” kimi tarixi abidələri ziyarət edərək, “Anadolu” mədəniyyəti və memarlığının parlaq nümunələri ilə yaxından tanış olurlar.

Bununla belə, Ərzurumun səfər, qonaq-qara imkanları təkcə qış turizmi ilə kifayətlənə bilməzdi. Belə ki, bu gözəl, əsrarəngiz diyarın cəlbediciliyi onun qarlı yamaclarından çox-çox kənara çıxır. Axı, bu yerlərin yazı, yayı da gözəldir! Son illər turistlər bölgəni yay aylarında da böyük həvəslə ziyarət etməyə başlayıblar. Ekspertlər deyirlər ki, məhz zəngin tarixi, heyranedici təbiət mənzərələri, fərqli mətbəxi, sərin, saf iqliminə görə bölgə isti aylarda on minlərlə yerli və əcnəbi səyahətçinin sevimli dayanacağına çevrilib.

Bəli, Ərzurumda nəfəskəsən təbiət mənzərələri insanı heyrətə gətirir. “Tortum şəlaləsi”, Nəriman Pəri bacaları” və “Yeddi göl” kimi füsunkar ərazilərə təkcə qışda deyil, yay aylarında da gələnlərin sayı daim artır. Bütün bunlar vilayətin ekoturizmdə populyarlığına töhfə verir.

Türkiyə Səyahət Agentlikləri Birliyinin (TÜRSAB) Şimal-Şərqi Anadolu bölgəsi üzrə sədri Nuh Şenolun sözlərinə görə, son illər Ərzurum və ətraf ərazilərə turist axınında nəzərəçarpacaq bir artım var. O, bu artımı, ilk növbədə, infrastrukturun təkmilləşdirilməsi və turizmin inkişafına uzunmüddətli sərmayələrin cəlb edilməsi ilə əlaqələndirir. Bu barədə N.Şenol “Andolu” agentliyinin müxbirinə demişdir:

– Son illər yay turizmində daha əvvəl qış mövsümündə əldə etdiyimiz uğuru görməyə başladıq. Ərzurumun təbii görməli yerlərini ərazidəki zəngin mədəni sərvətlərimizlə birləşdirdikdə daha çox insanın niyə məhz bu məkanı ziyarət üçün seçdiyi aydın olur. Bu artım, əlbəttə, turizmdə çalışan bizi həvəsləndirir.

Bölgə sədrinin sözlərinə görə, son 5 ildə Ərzurum Şərqi Asiya ölkələrindən, Almaniya və Fransadan artan sayda turist qəbul etməyə başlayıb. Qonaqların sayı artdıqca bölgədə restoranlar, otellər və turizm agentlikləri də inkişaf edir. Tələbin artması isə yerli müəssisələri özəl xidmət və təkliflərini dəyərləndirməyə sövq edir. Bu inkişaf həm də yerli sakinlər üçün yeni iş yerləri deməkdir.

Nuh Şenol onu da qeyd edib ki, bir vaxtlar bayram günlərində “sakit olan” Ərzurum indi bir çox turizm şirkətləri və səyahət agentlikləri üçün əsas məkanlardan biridir. Bəli, bu gün qonaqlı-qaralıdır Ərzurum! Bura bir dəfə gələn bir də gələcəyəm deyir. Səyahətçiləri təkcə yaylanın təbii gözəllikləri deyil, yerli sakinlərin sadəliyi, səmimiyyəti, qonaqpərvərliyi də heyran qoyur.

***MH ACIXANLI***
***XQ***

## İDMAN

### “Gimnastika hamı üçün”



**Bakıda “Gimnastika hamı üçün” 3-cü Bakı Beynəlxalq Festivalı keçirilib. 2 gün davam edən aksiya yerli və xarici iştirakçıların rəngarəng çıxışları ilə yadda qalıb.**

Yarışda, ümumilikdə, 900-ə yaxın iştirakçı və 52 komanda təmsil olunub. Müxtəlif yaş qruplarını əhatə edən proqramda zumba, hip-hop, milli rəqslər və “ustad dərsləri” xüsusi maraqla qarşılanıb.

İştirakçılar 2 yaş kateqoriyası - 50 yaşdan aşağı və yuxarı proqramları üzrə bacarıqlarını göstəriblər. Festivalın rəsmi açılışı iştirakçıların Bakı İdman Sarayından Azərbaycan Dövlət Kukla Teatrının arxasında yerləşən əsas səhnəyədək möhtəşəm yürüşü ilə start götürüb.

Dünən, festivalın 2-ci günü Qala şou keçirilib. Qaliblər “Ən yaxşı kostyum”, “Ən yaxşı performans”, “Ən yaşlı iştirakçı”, “Ən kiçik iştirakçı” və “Sosial mediada ən fəal iştirakçı” nominasiyaları üzrə mükafatlandırılıblar.

### Akrobatlarımız Dünya Kubokunda 2 gümüş medal qazanıblar



**Azərbaycan akrobatları Polşanın Jeşuv şəhərində keçirilmiş Dünya Kubokunda 2 gümüş medal qazanıblar. Bu barədə Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Qarışıq hərəkətlər proqramında Abdulla Əl-Məşayxi, Seymur Cəfərov, Riad Səfərov və Rəsul Seyidli ibarət kişi qrupu 29,070 xalla, Daniel Abbasov-Murad Rəfiyev cütlüyü isə 28,730 xalla ikinci yeri tutaraq gümüş medala sahib çıxıblar.

### “Formula 1” 6 gün tez başlayacaq



**2026-cı ildə keçiriləcək “Formula 1” üzrə Azərbaycan Qran-prisinin vaxtı dəyişdirilib. Bu barədə “Formula 1“in mətbuat xidməti məlumat yayıb.**

Qurum daha əvvəl yarışın sentyabrın 25-27-si aralığında gerçəkləşəcəyini açıqlamışdı. Yeni qrafikə görə, bu il “Formula 1” Azərbaycan Qran-prisi sentyabrın 19-da start götürəcək və 3 gün davam edəcək.

***MH ACIXANLI***
***XQ***

# Azərbaycanın kino sənətinə töhfə

**Azərbaycan Kinematoqrafçılar İttifaqının dəstəyi ilə “Azərbaycan kinooperatorları” kitabı ərsəyə gəlib. Topluda kinooperatorların dünyanı necə fəth etməsi, rejissor və operator işi, ssenarist təxəyülü barədə yazılar, eləcə də Əlisəttar Atakişiyev, Teyyub Axundov, Xan Babayev kimi kinooperatorların keçdiyi həyat yolu, yaradıcılığı barədə portretlər yer alıb.**

Dərs vəsaiti olaraq nəzərdə tutulmuş kitab ustad kinematoqrafçıların kino sahəsində miras qoyduqları təcrübədən yararlanmaq, görkəmli kinooepartor, rejissor, rəssam, aktyor və bəstəkarların özünəməxsus kino dəst-xəttini öyrənmək baxımından gərəkli mənbədir. Nəşrdə ümumi məlumatlarla yanaşı, kino sənətinin özəlliklərinə də yer ayrılıb.




Toplunu 16 bədii və 30-dan çox sənədli filmlər çəkmiş, yüksək kateqoriyalı kinooperator Rafael Qəmbərov və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin operator sənəti fakültəsinin IV kurs tələbələri tərtib ediblər. Kitabın redaktoru Əməkdar incəsənət xadimi, ədəbiyyatşünas İntiqam Qasımzadə, rəyçilər Əməkdar incəsənət xadimləri, rejissor Hüseyn Mehdiyev və operator Rafiq Quliyevdir. Vəsaitə peşəkar mütəxəssislərlə yanaşı, gənc kinematoqrafçılar Məmməd Əmin Əlizadə, Sadiq Əliverdibəyli, Babək Abbaszadə, Samir Əliyev, İsmayıl Cəfərov və Adil Məmmədovun məqalələri də daxil edilib.

***S.FİDAN***
***XQ***

## SAĞLAMLIQ

### İstidə nə yeyək, nə içək?

**Yayda əksər insanlar “soyuq” yeməklərə üstünlük verir. Lakin xüsusilə qastrit, pankreatit, xolesistit və mədə-bağırsaq traktının digər xroniki xəstəlikləri olan şəxslərdə belə qidalanma sağlamlıq problemləri yarada bilər.**



Rusiyalı qastroenteroloq Yevgeniya Melnikova istidə orqanizmin sevmədiyi qidaları açıqlayıb:

– İlk növbədə, dondurma. Bu yüksək kalorili desertdə çoxlu yağ və şəkər var. Bu, nəinki həzm sistemini həddən artıq yükləyir, həm də yuxarı tənəffüs yollarının selikli qişasını soyudaraq damarların spazmına və tənəffüs xəstəliklərinin yaranmasına səbəb olur. Limonad, kvas və ya süd kokteylləri özünüzü istidən xilas etmək üçün yaxşı seçim deyil. Məsələ burasındadır ki, onların tərkibində çoxlu şəkər var. Bu isə, susuzluğu artırıb istilik yaradır, həm də susuzlaşma riskini artıran normal tərləmənin qarşısını alır. Əlbəttə, isti bədənə əlavə maye lazımdır, lakin təmiz su, çay, kompotlar və ya meyvə içkiləri heç nə əvəz edə bilməz”.

Yayın ənənəvi olaraq səyahət mövsümü olduğunu xatırladan mütəxəssis bildirib ki, istidə tez xarab olan məhsullar – kəsmik, xama, süd, kolbasa, mayonezli salatlar, yumurta və qaymaqlı tortlardan uzaq olmaq faydalıdır.

***Z.HÜSEYNLİ***
***XQ***

## SAĞLAMLIQ

# Abşeronda dəyişkən buludlu, bölgələrdə arabir yağış...

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən mətbuata bildirilib ki, iyunun 30-dan iyulun 1-nə keçən gecə bəzi yerlərdə qısamüddətli az yağış ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 19-23, gündüz 26-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 755 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə yaranacaq. Gecə və səhər bəzi yerlərdə duman gözlənilir. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-21, gündüz 27-32, dağlarda gecə 5-10, gündüz 15-20 dərəcə isti olacaq.

***QQ ASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Əflatun Amaşov və Ağadadaş Dadaşov Mahir Mirzəyevə anası

**SOLTANXANIM MİRZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2793
SİFARİŞ 1255
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00